NİZAMƏDDİN ŞƏMSİZADƏ

# YAZIÇI ÖMRÜNƏ UVERTÜRA

*(Monoqrafik variasiyalar)*

BAKI–2010



*Ədəbi dostluq, əbədi dostluq*

NİZAMƏDDİN ŞƏMSİZADƏ

# YAZIÇI ÖMRÜNƏ UVERTÜRA

*(Monoqrafik variasiyalar)*

«TƏHSİL»
BAKI–2010

Redaktor: **Bəkir Nəbiyev**
*akademik*

Rəyçi: ***Rəhim Əliyev***
*filologiya elmləri doktoru*

**Nizaməddin Şəmsizadə**
**Ş 52** **Yazıçı ömrünə uvertüra** (monoqrafik variasiyalar).
Bakı, «Təhsil», 2010, 144 səh.

**Ş $\frac{4700206020}{053}$ 2010**

**«Təhsil», 2010**

## YAZIÇI ÖMRÜNƏ UVERTÜRA

İslamın qəbulundan sonra biz kitab dedikdə, yazı dedikdə dünyanın dördüncü və sonuncu müqəddəs kitabı olan «Quran»ı nəzərdə tutmuşuq. Ona görə də qədim və ulu xalqımız hansı ictimai formasiyada yaşamasından asılı olmayaraq, həmişə kitaba, yazıya, alimə, yazıçıya hörmət bəsləyib. Elə dinimizin və dilimizin əzbəri olan müqəddəs kəlamlar da bu həqiqətdən soraq verir: «Alim öldü – aləm öldü», «Elmi beşikdən qəbrə qədər öyrənərlər», «Alimin mürəkkəbi şəhidin qanından qiymətlidir» və s. Yazıçı (yaradıcı!) Allaha ən yaxın adamlardan biridir. «Əvvəl peyğəmbərlər, sonra şairlər» deyirdi dahi Nizami. Beləliklə də, şairi, yazıçını Allahdan sonra üçüncü yerə qoyurdu. Hürufilərin təlimində söz Allah, cahan, insan müstəvisində ikinci yerə keçdi. Dahi Füzuli isə «Söz yaradanın mədhi mənası – nəğməsidir» deyirdi. Əgər söz Yaradandan bizə hədiyyədirsə, sözü yaradan da Allahdan gəlmiş hesab olunmalıdır. Yazıçı Allah adamıdır. Çünki o, «Allah əmanəti» («Quran»ın Əl-Əhzab surəsi) olan ruhu dirildir, sözə bələyir, ədəbiyyat yaradır. Allah əmanəti olan **insan ruhunun sözdə cism və can bulmasına ədəbiyyat deyilir.**

Ədəbiyyat – əbədiyyətdir. Yazıçı əbədiyyət yolçusudur. Haqdan gəlib, həqiqətə gedir. Əgər sufi tərki-dünyalıqdan əbədi dünyaya gedirsə, yazıçı dünyasevərlikdən əbədiyyətə yol gedir: sözün işığında, fikrin nurunda! Məcnun bu dünyadan imtina etdi, sevgisi özündən əvvəl çatdı Allaha. Özü nura dönüb sevən könüllərə paylandı.

Yazıçı sözün qələsinə doğru gedən fatehdir. Sözün qələsini topla-tüfənglə almaq olmaz, ruhla, məhəbbətlə, səmimiyyətlə fəth etmək olar. İnsan təfəkkürünün hüdudları çərçivəsində bir neçə çətin iş var ki, yalnız səmimiyyətə təslim olur: dua, söz, sevgi! Bunları zorla fəth etmək olmaz. Yazıçı söz mülkünün sultanıdır. «Gör nə sultanəm məni dərvişi-kim, feyzi süxən» deyirdi Füzuli. Yazıçı sözə canından can verir: «Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl, Edə hər saət səni ol uyğudan bidar söz», deyirdi dahi Füzuli: «Söz candır, əgər bilirsə insan, Sözdür, əgər derlər özgədir can». Bu da mövlanə Füzulinin sözə ehtiram düsturudur.

Yazıçı həm əhli-qələmdir, həm də əhli-qəm. Çünki «dərd şairliyin sərmayəsidir» (Füzuli). Mənsub olduğu xalqın dərdini öz dərdi kimi qələmə alan bir yazıçı haqqındadı bu kitab. Onun əsərlərinin mətnində milli taleyimiz üçün narahat bir ürək döyünür. **Bədii mətn harmoniyası tapılmış dil işarələri sistemidir.** Mətnin ahəngi yazıçı qəlbinin döyüntüsü üstündə köklənir. Belə bir ürək sahibidi Hüseynbala Mirələmov. Yazdıqları onun tərcümeyi-halıdır. «Məsləkim tərcü-

meyi-halımdır!» deyirdi böyük romantik Abbas Səhhət. Eyni sözləri Hüseynbala Mirələmov da deyə bilər. Hüseynbala Mirələmov vətənkeşliyini görmək üçün «Xəcalət»i, humanizmini dərk üçün «Cəza»nı, cəsarətinə bələdlik üçün «Qırxıncı otağ»ı, sevgisini duymaq üçün «Gəlinlik paltarı»nı oxumaq lazımdır.

O, XX əsrin adamı, fəqət XXI əsrin yazıçısıdır. O, ədəbiyyat limanında əzmlə lövbər salıb, cəmisi on ilin içərisində o, Azərbaycan cəmiyyətinə özünü yazıçı kimi tanıtmağı və sevdirməyi bacardı. Hüseynbala Mirələmov oxucusunu tapa bildi. Oxucu onu dinlədi və eşitdi. Əslində ədəbi proses yazıçı, oxucu və tənqidçi arasındakı münasibətlərin məcmusundan ibarətdir.

* * *

Yazıçı Hüseynbala Mirələmov ədəbiyyata 1961-ci ildə «Leninçi» qəzetində (7 noyabr) çap olunmuş «Bir tikə çörək» hekayəsi ilə gəlib. O vaxtdan təqribən 50 il keçir. Onda Hüseynbala Mirələmovun 14 yaşı var idi. Hüseynbala Fazil oğlu Mirələmov 25 iyun 1947-ci ildə Azərbaycanın füsunkar guşəsi olan Lerik rayonunun zümrüd meşələr qoynunda yerləşən Nuravurd kəndində anadan olmuşdur. Onun «Tənha durna uçuşu» adlı ilk kitabı xeyli gec – 25 ildən sonra – 1986-cı ildə çap olundu və dərhal müəllifini ədəbi aləmdə tanıtdı. Xeyirxah Elçin Əfəndiyev bu əsərə səmimi bir ön söz yazdı... Və Hüseynbala Mirələmov altdan-

altdan ədəbi yaradıcılıqla məşğul olsa da, müharibəyə düçar olmuş ölkəsinə vətəndaş xidməti göstərdi. Yanacaq Komitəsi sədrinin müavini kimi kabinetdə oturmadı, yanacaq dolu maşınlara minib Qarabağa, ön cəbhə xətlərinə getdi, həyatını hər cür təhlükəyə, risqə atdı, eyni zamanda, qaz mühəndisi kimi elmi tədqiqatlarını apardı, elmi əsərlərini yazdı, dissertasiyalar müdafiə edib elmlər namizədi və az sonra elmlər doktoru, professor oldu. Hal-hazırda Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri kimi elmi-pedaqoji fəaliyyətini davam etdirir.

Hüseynbala Mirələmov ədəbiyyata bir də XXI əsrin, III minilliyin əvvəllərində gəldi. Mən 2001-ci ildə onun Yazıçılar Birliyinə üzv qəbul olunması üçün zəmanət verdim, «Qayada çiçək» (2002) adlı hekayələr kitabı haqqında səmimi bir məqalə yazdım və onun yeni əsr ədəbiyyatında ədəbi hadisə olan «Xəcalət» povestinə ilk «Yaddaş» Milli Mükafatını təqdim etdim. Biz Hüseynbala ilə dostlaşdıq. Və bu dostluğun özü təkcə mənim üçün, təkcə Hüseynbala üçün maraqlı olmadı, bu, həm də ədəbi prosesi hərəkətə gətirdi, ədəbi tənqidə zəngin mövzu verdi. Bizi tənqid edə-edə yeni bir tənqidçilər nəsli yetişdi... Və bu kitaba mənim 2002–2009-cu illərdə Hüseynbala Mirələmov haqqında yazdıqlarım toplanıb. Bu ayrı-ayrı yazılar vətəndaş bir yazıçının cəmisi on ildə keçdiyi vüsətli yaradıcılıq təkamülünü əks etdirir. Tərəddüdsüz deyirəm: Hüseynbala Mirələmov XXI əsrin

ilk on ilində möhtəşəm bir yaradıcılıq yolu keçib: «Qayada çiçək», «Xəcalət», «Gəlinlik paltarı», «Həyat eşqi», «Güllələnmiş heykəllərin fəryadı», «Bir gecənin sehri», «Cəza», «Yanan qar», «40-cı otaq», «Qumru yumurtaları» kimi roman, povest və hekayələrdən ibarət kitablar, pyeslər, Ümummilli lider Heydər Əliyevə həsr olunmuş ondan artıq siyasi publisistik kitab, «JZL» seriyasından «Heydər Əliyev» və «İlham Əliyev» monoqrafiyaları onu bir yazıçı, dramaturq və siyasi publisist kimi Azərbaycan ədəbiyyatının və ictimai fikrimizin tarixinə daxil etdi. Onun Heydər Əliyev şəxsiyyətinə, amal və ideallarına, Azərbaycan dövlətçiliyinə, prezident İlham Əliyev dövlətçilik siyasətinə inam, etibar və sədaqəti nəsillərə nümunədir.

Hüseynbala Mirələmov mənim dostum, böyük vətəndaş və yazıçıdır. O, çox etibarlı adamdır, şəxsiyyətini və xalqını sevən ziyalıdır. O, bütün Azərbaycan ziyalılarının xeyirxahıdır. İnsanpərvərlik, müqəddəslik və humanizm onun əsil-nəcabətindən gələn bir keyfiyyətdir. Hüseynbala Mirələmov müqəddəs dualarla böyüyüb, bəlkə də, anası layla əvəzinə ona həzin dualar oxuyub, böyüyəndə nağıllarla bərabər, həm də müqəddəslər haqqında hədislərə qulaq asıb. Hüseynbala Mirələmov Avropa təfəkkürlü, Şərq ruhlu bir azərbaycanlıdır.

«Xəcalət» və «Cəza» povestləri, «Gəlinlik paltarı» və «Qırxıncı otaq» romanları bir tənqidçi kimi mənə imkan verir deyəm ki, Hüseynbala Mirələmov

XXI əsr Azərbaycan sosial-psixoloji romanının yaradıcılarından biridir. Tamam təsadüfən tapılmış adi bir ipin ucundan tutub cəmiyyətin sarsılmış kökünə enmək, insan taleyini həll edən ani bir məqamı ciddi sosial-psixoloji hadisə miqyasında genişləndirə bilmək Hüseynbala Mirələmovun yazıçı fərdiyyətinə, onun nəsr və dramatik üslubuna xas olan başlıca cəhətdir. Daha çox XX əsr Amerika romanı – T.Drayzerin «Amerika faciəsi», E.Heminqueyin «Qoca və dəniz», «Əlvida silah», C.Steynbekin «Qəzəb salxımı», U.Folknerin «Küy və qəzəb», F.Fitsceraldın «Böyük Qetsbi» və bu kimi əsərlər üçün xarakterik olan sosial-psixoloji sərtlik, güzəştə getməyən kinayəli təhkiyə Hüseynbala Mirələmovun adı çəkilən əsərləri üçün də səciyyəvidir. Onun əsərlərində kapitalizm çevrəsinə daxil olmuş müstəqil Azərbaycanın sosial-mənəvi iflicləri bədii tədqiqatın mərkəzinə gətirilir. 30-cu illərdə dünya iqtisadi böhranının son həddə çatdığı bir dövrdə, həmçinin Amerikada sosial-psixoloji romanın vüsətli inkişaf dövründə Amerika yazıçısı V.Noyels acı bir kədərlə yazırdı: «Amerikada ədəbiyyatla məşğul olmaq ciddi iş sayılmır, onun faydalı, ya faydasız olması heç kimi maraqlandırmır. Biz ədəbiyyatçılar isə özümüzü elə göstəririk ki, guya biz də nəyəsə lazımıq, fəqət bu, başdan-başa cəfəngiyyat idi. Nə böyüklərin, nə də balacaların bizə ehtiyacı yox idi; ədəbiyyat onlar üçün dözülməsi lazım gələn, fəqət məşğul olmaq üçün yararsız bir əyləncə idi».

(Брукс В.В., Писатель и американская жизнь, М., 1971, s. 187).

Məhz belə bir psixoloji laqeydliyə əks-reaksiya olaraq Amerikanı içəridən təsvir edib iflicləri üzə çıxaran sosial-psixoloji roman yarandı. Bu gün Azərbaycanda da ədəbiyyat müəyyən təbəqələr üçün «dözülməsi lazım gələn, fəqət məşğul olmaq üçün yararsız bir əyləncədir». Azərbaycan ədəbiyyatı tarixində, bəlkə də, heç vaxt bədii ədəbiyyat bu qədər kasıbların malı olmamışdı. Və belə bir dövrdə Hüseynbala Mirələmov beyinlərdən laqeydlik qaysağını, qəlblərdən ətalət pərdəsini qoparıb atdı. «Xəcalət» povestinin qəhrəmanı, balaca məktəbli qızın – Didarın bircə xəcalətli hönkürtüsü rəzalət saraylarında xumar-xumar mürgüləyən bütöv bir elitanı silkələyib oyatdı. «Xəcalət» bizim XXI əsrin önlərindəki milli varlığımızın mənəvi simvoluna çevrildi. Bu əsər bəşəriyyətin diqqətini Azərbaycanın «Olum, ya ölüm» – Hamlet sualına – Qarabağ probleminə yönəltdi. Əsərin qəhrəmanı Vətənin və onun taleyi 37-nin tufanına düçar olmuş nəslinin başına gələnlər adi şüurun deyil, təhtəlşüurun gücü ilə təsvir olunur. Bu əsərdən başlayaraq türkün totemi olan canavar Hüseynbala Mirələmovun əsərlərinə güclü xarakterə malik obraz kimi daxil olur. Amerika yazıçısı C.Londonun «Həyat eşqi» hekayəsində insan canavara qalib gəlir, yazıçı insan iradəsinin qüdrətini, insanın ölməzlik ideyasını əks etdirir. Hüseynbala Mirələmovun «Xəcalət» və «Cəza»

povestlərində canavar insan mühitinə qalib gəlir, ədib onu təbiətin ölməzlik simvolu kimi yaradır. Amansız bir təsvirə nəzər salaq. Vətən donmuş, başı kəsilmiş, üzü şırımlanmış, gözü oyulmuş meyitlərin içində arvadını və iki balasının cəsədini tapmayanda məyus olur: «Bircə nəfəsi gələn olsaydı, yəqin, canavarın eyni açılardı. Onun hərəkətini, gözlərinin ifadəsini nəzərdən qaçırmayan Vətən bu muştuluğu həyəcanla gözləyirdi. Nəhayət, qeyri-adi vurnuxma, başçəkmə sona çatdı. Canavar cəsədlərin, demək olar ki, hamısını yoxladı və birdən dayanıb Vətənə sarı bir-iki addım atdı. Onun tükləri qabarmışdı. Qulaqları geriyə tərəf gərilmişdi. Gözləri də ifadəsini dəyişmişdi. Bu ifadə indiyə qədər canavarın gözlərində görünməmişdi. Boz, soyuq, tutqun. Bu, Vətəni bir az da üşütdü.

Canavar bir-birinə qıcanmış dişləri ilə öz sinəsinə ağız atdı. Dişlərilə bir cəngə tük qopartdı və təzədən ağzını daşa sürtdü.

Sonra qobuboyu təpəyə sarı yortavladı. Təpənin lap yuxarısında durub, ağzını göyə tutdu. Özü ilə Vətəndən savayı nəfəsi gələnin olmadığı bu yerlərdə dərəboyu dəhşətli bir ulartı bu qeyri-adi ölüm sükutunu pozdu: Au... auu... auu...» («Xəcalət», B., Gənclik, 2002, s.99). «Axır ki, mənim də qurdum uladı» (s.126). Xeyli sonra meyitlərin arasında özünə gələn Vətənin ilk cümləsi bu oldu.

Beləliklə, yırtıcı heyvan – Canavar insan (erməni!) vəhşiliyinə dözmür, qəzəbindən diş atıb özünü

qapır. Bu ağır və sərt təsvir, bu psixoloji məqam, canavar ulartısındakı mərhəmlik insanı insan caynağından qoparır, insana həyat verir: «Axır ki, mənim də qurdum uladı», – deyə sevinir Vətən!..

Yaradıcılıq müşahidədən, yazıçılıq dilə münasibətdən başlanır. Böyük tənqidçi V.Belinski yazır ki, «Təsadüfən açılmış kitabın vərəqləri arasından tapılmış qurumuş çiçək özlüyündə heç nə demir, fəqət həmin çiçək Puşkinə ən yaxşı şeirini yazdırmışdır». Allah bilir, həmin qurumuş çiçək Puşkinin xəyallarını haralara aparıbmış. Əlbəttə, müşahidə yazıçını adi adamdan fərqləndirən birinci əlamətdir. Hüseynbala Mirələmov zahirən göründüyündən çox-çox dərin adamdır. Ara-sıra görüşdüyümüz məclislərdə mən onu müşahidə etmişəm. O, bəzən adamın üzünə baxa-baxa onu təhlil edir, nəinki həmsöhbətinə, hətta yazdığı əsərlərə də daxili «mən»inin sirrini axıradək vermir. Həm şəxsi müşahidələrimdən, həm əsərlərinin rəmzi bədii modellərindən, həm də sətiraltı mənalarından, bədii mətnin semantikasından belə qənaətə gəlmişəm: o, çox zaman ikiləşir, amansız bir sərtliklə, özünütəhlil aparır, olanlarla olmalı olanları və olmalı olmayanları ziddiyyətli bir düşüncə axarında – şüur axını məcrasında vərəvurd edir. Onun yaradıcılığının psixoloji aləmi zəkası ilə qəlbi arasındakı konfliktlər meydanında qərar tutur. Bu emosional mühakimə, zahirdən daha çox daxilə yönəlmiş fikir arasında mühakimədir.

«Cəza» povestinin qəhrəmanları insanın təbiətə vəhşi münasibətinin faciəsini yaşayırlar. Allah insanı yaşatmaq üçün təbiəti, insan Allaha bənzəmək üçün sənəti yaradıb. Ədəbiyyat və sənət əsəri insanın öz əli ilə özünə ucaltdığı ən əzəmətli abidədir. «Cəza» təbiət üzərində, heyvanlar aləmində, xüsusilə mərd və yırtıcı təbiəti ilə insana daha doğma olan canavarlar üzərində aparılan zəngin müşahidədən yaranıb. Canavarlar arasında sevginin və sədaqətin əzəməti və ülviyyəti həssas sənətkar qələmi ilə poetikləşib. Yazıçı sevgi haqqında ən gözəl və fəlsəfi qənaətlərini canavarın varlığında obrazlaşdıra bilib. Heyvanlar haqqında, o cümlədən canavar haqqında çox yazılıb. Lakin Mirələmovun canavarı başqadır, o, bu əsərində bəşəriyyətin ekoloji taleyini canavarların taleyində tipikləşdirməyə nail olub. Təbiətlə harmoniyanın, psixoloji vəhdətin itməsi bəşəri bir fəlakətdir. Yazıçı heç yerdə yazmır ki, mən meşələri, bağları, heyvanları qıranlara nifrət edirəm. Onların əməllərini təsvir edir və aldıqları cəzanın ədalətli olmasına inam yaradır. Cinayətkar cəzasını almayanda cəmiyyət də, təbiət də pozulur. Onda təbiətin intiqamı başlanır və bu intiqam daha amansız olur. Ədib özü bu barədə yazır: «Təbiətə münasibətə gəldikdə etiraf edim ki, ona olan böyük sevgi mənimlə eyni gündə, eyni saatda, eyni anda dünyaya gəlib. Əmdiyim ana südüylə, aldığım nəfəslə, içdiyim su ilə ruhuma, canıma hopub. Təbiət mənim üçün ikinci anadır. Ana yalnız öz övladlarının qayğısını çəkdiyi halda, təbiət bütün canlılara analıq edir».

«Cəza» povestində, «Qayada çiçək» hekayəsində, «Dağlarda atılan güllə» («Yanan qar») romanında yazıçı təbiətə münasibətinin bədii-fəlsəfi mənasını açıqlayır.

Yazıçının istedadından, şəxsiyyətindən bəhs edən böyük türk ədibi, dünya şöhrətli Çingiz Aytmatov yazır: «Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm».

Hüseynbala Mirələmov gecə-gündüz üç çətin və məsuliyyətli sahədə çalışır: o, qaz mühəndisi, texnika elmləri doktoru, professor və kafedra müdiridir; yazıçı-dramaturqdur. Millət vəkili, Xətai kimi böyük bir rayon YAP-ının sədri, ictimai xadimdir. Bunların hər üçü yaşı altmışı ötmüş insandan, xüsusən böyük enerji tələb edir. Bəs haradandır Çingiz Aytmatov kimi nəhəng şəxsiyyətin (indi olmasın) qəbul etdiyi o müsbət enerji?! Əlbəttə, bu müqəddəs bir seyid ocağının oğluna bəxş olunmuş Allah vergisidir. Hüseynbala təbiətən çox narahat, həm də bu narahatlıqdan dolayısı ilə olduqca çevik bir adamdır. Onun şəxsiyyəti qaynar qazana bənzəyir. Hərarətli və bərəkətli.

Xalq şairi Qabil hər yazıçı və şairi, ümumən hər adamı bəyənməzdi. O, öz meyarları olan və sözü üzə deyən adam idi. Qabil yazır: «Yer üzündə yazıçı, şair çoxdur. Hüseynbala da bunlardan biridir. Yazıçını bəyənmək də olar, bəyənməmək də. Əsas şərt insanlıqdır ki, bu da mənə görə, Hüseynbalanın ən gözəl məziyyətidir». Hüseynbala Mirələmov həm cəsarətli, həm də səxavətli adamdır. Onun səxavəti də, cəsarəti də insanlığından

irəli gəlir. Yaşadığı cəmiyyətin, ərkanın, bulunduğu həyətin, içərisinə alındığı zamanın eyiblərini yalnız cəsarətli yazıçı açıb göstərə bilər. Yazıçının şəxsiyyətini ucaldan, ona hörmət gətirən bu cəhəti millət vəkili, AMEA-nın müxbir üzvü, görkəmli tənqidçi Nizami Cəfərov çox doğru qeyd edir: «Hüseynbala Mirələmov əsərlərində yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas-mütəfəkkir kimi də irəli gedir, insanlığın, xüsusən yeni həyat tərzinə başlamış Azərbaycan insanının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsarətlə açıb göstərir». Bu, müasir dövrün yazıçısı üçün böyük şərt, vacib əməldir.

Hüseynbala Mirələmov haqqında on beş kitab, beş yüzdən artıq məqalə çap olunub. Və bu yazıların əksəriyyətində o, bir yazıçı kimi təqdir olunub. Bu, həm də o deməkdir ki, Hüseynbala Mirələmov çox oxunan, ədəbi-ictimai fikrin diqqət mərkəzində olan bir yazıçıdır.

* * *

...Lerik dağlarının lap uca zirvəsindən, dünyada şirinlik, sağlamlıq iksiri olan, bal kimi süzülüb gələn, suyu bumbuz, dadı şipşirin bir çay axır. Adını bilmirəm, o yerlərə məni şair dostum Ağacəfər Həsənli aparıb – insan kimi heç bir insana, şair kimi heç bir şairə bənzəməyən Ağacəfər...

Mən o yerləri görməsəydim, heç vaxt Hüseynbalanı başa düşməzdim. Və həmişə dediyim və bu deyimlə də bəzi dostlarımı incitdiyim bir kəlamımı bu yazıda təkrarlamaya bilmərəm: «Dağ uşağı ilə vağzal uşağı bir

ola bilməz. Arx suyu içənlə bulaq suyu içən eyni ola bilməz». Bu fikirdən ötrü məni çox qınayıblar. Fəqət bu, mənim təcrübəmdən süzülüb gələn həqiqətimdir.

Hüseynbala dağ uşağıdı – saf, təmiz, bulaq suyu kimi dumduru, əlbəttə, bir az da sərin, səpsərin. Onun sevgisini qazanmaq çətindir, bunun üçün ancaq və ancaq səmimi olmalısan. Hüseynbalanın ürəyinin qapılarına ancaq səmimiyyətlə açar salmaq olar. Burada hətta nağıllarımızda olan «sim-sim» belə heç bir iş görə bilməz. Həmin suyu şipşirin və buz kimi sərin çayın kənarında müqəddəs bir ziyarətgah var – Babagil piri! Mən o suyu şipşirin və buz kimi çaydan içməmiş, bu çaya girməmiş bu müqəddəs övliyanın daşlarına alın sürtdüm və Qubanın İsrik kəndində ziyarətgah olan ulu əcdadımdan – Pirəqələm babadan aldığım ülvi duyğularla Babagil pirinə səcdə etdim. Övliyalar və ənbiyalar olub bizim nəslimiz – Mirələmovun da, Ağacəfərin də, bəndeyi-həqirin də.

İnsana yazını yazdıran qüvvə var. Mən hiss etmişəm ki, o, bəzən adamın əlindən tutub yazdırır. Mən bir alim, bir tənqidçi kimi o ulu qüdrətə pərəstiş edirəm. Bəzən elə olur ki, yazmağa iki sətir tapa bilmirsən. Bəzən isə beyindən və qəlbdən axıb gələni yazmağa əl çatdırmır. Mən otuz beş ildir ki, əlimlə yazıram. Qələmlə ünsiyyət canlı varlıqla ünsiyyət kimidir. Qələm bəzən dil açıb adamla danışır və bu danışıqdan – «Xəcalət», «Cəza», « Gəlinlik paltarı», «Qırxıncı otaq» kimi povest və romanlar yaranır.

Hüseynbala Mirələmov dupduru, şəffaf bir adamdır. O, heç vaxt ruhunu şeytana təslim etməyib. Onu heç zaman vəzifə, pul, sərvət aldatmayıb. Mən onun puluna diş qıcamış, umacaqlı, təmənnalı adamlar görmüşəm. Hüseynbala beş-üç manatına qızırqalanmayıb. Amma onun belə adamlardan rəncidəliyi də mənə yaxşı məlumdur. Rəhmətlik atam, Qubanın İsrik kəndində yaşamış Şəmsəddin kişi mənə deyərdi: «Özgə çörəyi yeyən oğuldan kişi çıxmaz». Və mən sonralar bu həqiqətə inandım. Bir gün atama belə cavab verdim: «Kişinin bədəni ilə paltarı arasında özgə ruh dayanmamalıdır». Mən bu gün belə hesab edirəm ki, Hüseynbala Mirələmovun əsərləri bizi həm öz içimizdə özümüzün-özümüzə yadlaşmadan, həm də milli-mənəvi yadlaşmadan xilas edən dəyərli bədii nümunələrdir.

Hüseynbala Mirələmov həm çətin, həm də dərin adamdır. Bəziləri (xüsusilə, yaradıcı qadınlar!) elə bilirlər ki, onunla asan ünsiyyət yaratmaq olar. Hesab edirəm ki, bu, səhv fikirdir. Hüseynbala Mirələmov ailəcanlılığın və dostcanlılığın simvoludur. Mən «Hıçqıran gülüşlər» kitabıma belə bir epiqraf yazmışam: «Bu kitabı həyatda və sənətdə əbədini ötəridən ayırmağı bacaranlara ithaf edirəm».

Hüseynbala Mirələmov həyatda və sənətdə əbədini ötəridən ayırmağı bacaran adamdır və məhz buna görə də mən onu sevirəm... dost kimi, yazıçı kimi, şəxsiyyət kimi...



# ƏQİDƏYƏ SƏDAQƏT

***Hərə bir namə yazdı...***

***Firdovsi «Şahnamə», Nizami «İsgəndərnamə», Xətai «Dəhnamə», Füzuli «Şikayətnamə»... Mirələmov da «Heydərnamə» yazdı. Yazılan qalacaq. Çünki əlyazmaları yanmır...***

## HEYDƏR ƏLİYEV: YAXINDAN VƏ UZAQDAN

İnsanda dəyərləndiriləsi ən mühüm keyfiyyət əqidəyə sadiqlikdir. Yalnız əqidəsinə son nəfəsinə qədər sadiq olan yazıçılar, filosoflar, mədəniyyət və incəsənət xadimləri səmimi əsərlər yaza bilirlər. Əslində əqidəyə sədaqət insan səmimiyyətinin ən bariz nümunəsidir. Bu, qələm əhli üçün vacib bir keyfiyyətdir. Tapındığı ideala belə sadiqliyin canlı nümunəsi yazıçı, publisist, texnika elmləri doktoru, professor Hüseynbala Mirələmovdur.

Bu yazıda Hüseynbala Mirələmovun çoxcəhətli yaradıcılığının bir cəhəti, fəqət ən önəmli cəhəti üzərində dayanmaq istəyirəm.

Hüseynbala Mirələmov Ümummilli lider, Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev epoxasının yetirdiyi sadiq bir şəxsiyyət, vətənkeş yazıçı və alim, son dərəcə səmimi bir müasirimizdir. O, hələlik Azərbaycanda Heydər Əliyev haqqında yazılmış ən yaxşı əsərin müəlliflərindən biridir.

Əlbəttə, mən onun rus yazıçısı və publisisti Viktor Andriyanovla birgə yazdıqları «JZL» – görkəmli adamların həyatı seriyasında rus, Azərbaycan, ərəb dillərində çap olunmuş «Heydər Əliyev» kitabını nə-



*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev yazıçı Hüseynbala Mirələmova «Qızıl Kəlam» ədəbi mükafatını təqdim edərkən*

zərdə tuturam. Hüseynbala Mirələmov Heydər Əliyev həqiqətini dərk etmək üçün 60-cı illərin sonundan bəri yol keçib. Onun Heydər Əliyev haqqında yazdığı əsərlər əslində bu yolun həqiqəti dərk və təkamül mərhələləridir: «Amalın işığında» (2002), «Həqiqət» (2003), «Zəfər yolu» (2003), «Bir günəş var» (2004), «İşığın izi ilə» (2004), «Millətin atası» (2004) və nəhayət, «Heydər Əliyev» monoqrafiyası.

Bir neçə il əvvəl bu kitablardan birinin Atatürk mərkəzində təqdimat mərasimi keçirilirdi. Orada mən də çıxış edib dedim: «Hüseynbala müəllim, Nizami «İsgəndərnamə», Firdovsi «Şahnamə», Nəimi «Cavidannamə», Xətai «Dəhnamə», Füzuli «Şikayətnamə» yazıb, siz də «Heydərnamə» yazın». Onda Hüseynbala Mirələmov dedi: «Biz artıq «Heydərnamə»ni bitirmişik». Həqiqətən, az sonra Ulu öndər Heydər Əliyev haqqında Hüseynbala Mirələmovun Viktor Andriyanovla birlikdə Moskvada rus dilində məşhur «JZL» seriyasından olduqca sanballı «Heydər Əliyev» (2005) kitabı – «Heydərnamə» epopeyası çapdan çıxdı.

Bu möhtəşəm kitabın elmi-tarixi və nəzəri-fəlsəfi məziyyətlərini təhlil etməzdən öncə Hüseynbala Mirələmovun Heydər Əliyev fenomeni barəsində yazmağa mənəvi haqqı olduğunu qeyd etmək istəyirəm. O, Heydər Əliyevin tarixi mövqeyinin dərkinə, mənəvi dünyasının duyum anına qədim sufilər kimi, necə deyərlər, ayaqyalın, pay-piyadə, addım-addım gəlib.

Hörmətli ağsaqqal İsa Məmmədov (Allah ona rəhmət eləsin!) Hüseynbalanın da iştirak etdiyi görüşlərimizdən birində mənə belə bir əhvalat danışdı. Dedi ki, Lənkəran Rayon Partiya Komitəsinin birinci katibi işləyirdim. Xəbər verdilər ki, təhlükəli bir qaz borusu partlayıb. Hadisə yerinə çatanda gördüm ki, xəndəkdə cavan bir oğlan həyatını təhlükəyə ataraq qaz borusunu qaynaqlayır. O, işini tamamlayıb xəndəkdən çıxanda əl verib tanış oldum. Bu öz işinin kamil ustası, əsl peşəkar və cəsarətli Hüseynbala Mirələmov idi.

70-ci illərin axırlarında o, öz istedadı və rəhbərliyin diqqəti sayəsində Lənkəran şəhər Qaz Tikinti-Quraşdırma İdarəsinin rəisi təyin olunur. 1979-cu ildə 32 yaşlı qaz mühəndisi Hüseynbala Mirələmov məhz Heydər Əliyevin gənc kadrlara qayğısı sayəsində «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif olunur.

1989–1992-ci illərdə, sonralar haqsızcasına çıxarıldığı Azərbaycan Dövlət Yanacaq Komitəsində sədrin birinci müavini işləyərkən həyatını təhlükəyə atıb özü yanacaqdaşıyan, oddan təhlükəli yük maşınında Qarabağa – qaynar döyüş bölgələrinə yanacaq aparıb. Bunun mahiyyətini əyani dərk etmək üçün son dövr nəsrimizin dəyərli nümunələrindən olan «Xəcalət» povestini oxumaq kifayətdir. Elə bu dövrdə də bütün təzyiqlərə baxmayaraq, YAP Xətai rayon təşkilatını yaradarkən onun Heydər Əliyev şəxsiyyətinə marağı və məhəbbəti formalaşır.

Viktor Andriyanov və Hüseynbala Mirələmovun «Heydər Əliyev» kitabı tarixin burulğanlarında, həzz və iztirablar içində keçmiş 80 illik qeyri-adi bir ömrün bədii-fəlsəfi salnaməsidir. Bu əsər, həqiqətən, əzəmətli bir insan ömrü haqqında şərəfli bir hekayət, «Heydərnamə» epopeyasıdır. Bu ömrü «üç»lər hüdudlayır. 1923–2003. «Üç» türk xalqlarının mifoloji düşüncəsində türk-islam təfəkküründə müqəddəs rəqəmdir. Beləliklə, Heydər Əliyev müqəddəs rəqəm çevrəsində doğulub və müqəddəs rəqəm altında dünyasını dəyişib.

«Heydər Əliyev» kitabında dahi şəxsiyyətin doğum tarixinin – 10 may 1923-cü il milli tarixə çevriliş prosesi nəzərdən keçirilir. Müəlliflər bu tarixin yaranması dövrünün kontekstini verməklə, daha doğrusu, bu tarixi təcrübə müstəvisinə çıxartmaqla ona canlı don geyindirməyə nail olurlar. Bunun üçün onlar nəinki Ümummilli liderin şəxsi arxivində olan sənədlərdən, dövrün rəsmi tarixi sənədlərindən, faktlardan, habelə dövrün mətbuat materiallarından bacarıqla istifadə edirlər. Bu isə əsərə tarixi reallıqla bərabər canlı üslub gətirir.

Hər bir şəxsiyyətin mənşəyi ana qucağı, ata ocağı və təhsil ocağıdır. Kitabda bu cəhətə xüsusi diqqət yetirilir. Heydər Əliyev təmiz süd əmib, zəhmətkeş atanın halal çörəyini yeyib, məktəbə məbəd kimi baxıb, kitabı və müəllimi müqəddəs sayıb. Şəxsiyyətin mayası, bax, məhz bu halallıqdan tutulub. Kitabın bu səhifələri həzin roman kimi oxunur, şirin xatirə



*Atatürk Mərkəzində Hüseynbala Mirələmovun «Heydər Əliyev» kitabının təqdimat mərasimi*

kimi yaddaşlara həkk olunur. Yeri gəlmişkən, qeyd edim ki, müəlliflər bu formatlı kitablar üçün çox səciyyəvi (və zəruri) olan, keçmişdən müasirliyə baxış və müasirlikdən keçmişə qayıdış üsulundan da çox böyük sənətkarlıqla istifadə etməyə nail olurlar.

Məncə, kitabın ən başlıca məziyyətlərindən birisi tarixilikdir. Müəlliflər istər müasir siyasi faktları təhlil edərkən, istərsə də Heydər Əliyevin taleyi prizmasından tarixi faktları təhlil edərkən bir an da olsun tarixin sükanını əldən vermirlər. Kitabda tarixiliyin başlıca xüsusiyyətinə – tarixin təcrübəsinə istinadən 80 illik nəhəng bir ömrün tarixi salnaməsi yaradılır. «Heydər Əliyev» kitabı tarixi şəxsiyyətin təşəkkül və təkamül tarixinin tarixidir. Və burada ifadə olunan, diqqətə yönəldilən başlıca fikir budur: tarix Heydər Əliyev əməllərinin təsdiqinə xidmət edir. Bunu əsərin tarixi-fəlsəfi konsepsiyası kimi də qəbul etmək olar.

«Heydər Əliyev» kitabı çevik və dərin publisistik üslubda, olduqca zəngin sənəd və materiallar əsasında yazılıb. Heydər Əliyevin dövlətçilik fəaliyyəti də, valideynlərinə ehtiramı da, ülvi məhəbbət duyğuları da bu üslubda olduqca əlvan və cazibədar görünür. Bu mənada «Heydər və Zərifə» epizodu «Heydərnamə» epopeyasının ən canlı və ülvi məqamlarındandır. Burada həm də nəsillərin bir-birinə ehtiramı ifadə olunur.

Heydər Əliyev memar olmaq istəyirdi. 1938-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib, Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası)

memarlıq fakültəsinə daxil olmuşdu. O, memar diplomu alanda (1941) artıq dünyada və ölkədə tarixi şərait dəyişmişdi – II cahan savaşı başlamışdı. O, sadəcə memar olmadı, tarix onu dövlətçiliyimizin memarı kimi yetişdirdi. Bu yol isə 28 il müddətində (1941–1969) DTK orqanlarından keçdi. Heydər Əliyev Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığı Sovetində məxfi arxiv şöbəsinin müdiri vəzifəsindən DTK sədri – general rütbəsinədək yüksəlir.

14 iyul 1969-cu il... Heydər Əliyev Azərbaycan dövlətçiliyinin sükanı arxasında inamla əyləşir... Azərbaycan dövlətçiliyi tarixində 30 ildən artıq davam edən Heydər Əliyev erası başlanır... Kitabın müəllifləri bu və sonrakı mərhələnin olaylarını, həm Heydər Əliyevin, həm onun doğmalarının, həm də müasirlərinin yaddaş prizmasından keçirərək təqdim edirlər. Başlıca məram isə budur: Heydər Əliyev fenomenini dünya oxucularına bütün möhtəşəmliyi və əzəməti ilə təqdim etmək. Və etiraf edək ki, Viktor Andriyanov və Hüseynbala Mirələmov bu ali niyyətlərinə uğurla nail olurlar. Kitabda həm DTK sədri, general Heydər Əliyevin, həm Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin, həm SSRİ Nazirlər Soveti sədrinin I müavini Heydər Əliyevin, həm də M.Qorbaçov güruhuna qarşı dönməz mübarizə aparan və nəhayət, xalqın iradəsi ilə müstəqil Azərbaycana əzmlə rəhbərlik edən müdrik Heydər Əliyev zamanın tarixi hadisələri fonunda təqdim edilir.

Kitabda Heydər Əliyevin Moskva dövrü, Kremldə baş verən və bütün dünyanı lərzəyə gətirən M.Qorbaçov «yenidənqurma»sı kontekstində getdikcə dərinləşən münaqişələr xüsusi bir dəqiqliklə ön plana çəkilir. M.Qorbaçov siyasi rəqiblərini, xüsusilə Kunayevi, Şerbitskini, Əliyevi Kremldən uzaqlaşdırdıqdan sonra (bu isə SSRİ-nin ən güclü respublikalarına – Qazaxıstana, Ukraynaya, Azərbaycana vurulan zərbə idi!) SSRİ-ni dağıtmaq üçün ən yaxşı vasitəyə əl atır – milli münaqişələri közərtməyə başlayır. Qarabağ problemi bu baxımdan ən əlverişli faktor idi. Ermənilər çoxdan belə fürsət gözləyirdilər, əvvəlcə «ziyalılar»a – Z.Balayana, S.Kaputikyana imkanlar yaradılır. Kitabda Heydər Əliyevin bu hadisələr prosesində yaşadığı iztirablar təsirli bir üslubda qələmə alınır. Bu iztirabların zirvə məqamı bu dəmir iradəli siyasətçinin 20 yanvar 1990-cı il Bakı qırğını ilə bağlı yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyində bəyanat verməsi idi. Bu, millətsevərliyin və siyasi cəsarətin parlaq nümunəsi kimi qiymətləndirilirdi.

Müəlliflər Heydər Əliyevin Azərbaycana qayıtması, blokadada olan Naxçıvandakı fəaliyyət dövrünü, 1993-cü ildə hakimiyyətə qayıdışını o zamanın ziqzaqlı hadisələri fonunda xüsusi dəqiqlik və həssaslıqla ön plana çəkirlər. Bu illərdə Heydər Əliyev milli hisləri oyatmaq, xalqda milli-tarixi özünüdərki qüvvətləndirmək üçün böyük işlər gördü. Bu çox çətin



*«Гейдар Алиев» kitabının müəllifləri Hüseynbala Mirələmov və Viktor Andriyanov (sağdan 1-ci) Lənkəran Dövlət Universitetində*

dövr idi. Bir yanda hələ Sovet dövlətinin xofu və strukturları qalır, digər tərəfdən Azərbaycanda qorxunc siyasi hərc-mərclik hökm sürür, ölkə vətəndaş müharibəsi ilə üz-üzə dayanmış, hər ağızdan bir avaz gəlir, silahlar nəzarətdən çıxmış, cəbhədə məğlubiyyətlər davam edir, ölkənin tən ortasında – Gəncədə hakimiyyət bölgüsü aparılırdı. Məhz belə bir dövrdə Heydər Əliyevin şəxsiyyəti, siyasi iradəsi öz tarixi rolunu oynadı. Viktor Andriyanov və Hüseynbala Mirələmov bu tarixi prosesi obyektiv bir qələmlə şərh edir, Heydər Əliyevin uzaqgörən siyasətçi olduğunu bir daha təsdiqləməyə nail olurlar.

Müstəqilliyi əldə etmək də, onu qoruyub saxlamaq da çətindir. «Heydər Əliyev» kitabında əsas istiqamətlərdən biri Ümummilli liderin Azərbaycanın müstəqilliyini möhkəmləndirmək uğrunda apardığı mübarizədir. O, hər şeydən öncə müstəqilliyin iqtisadi təməlini yaradır. «Əsrin müqaviləsi» adı ilə tarixə daxil olmuş neft kontraktı Heydər Əliyevin Azərbaycanı böhrandan çıxarmaq naminə gördüyü ən böyük iş idi. Müharibə şəraitində yaşayan, siyasi cəhətdən qeyri-sabit bir ölkə ilə heç bir dövlət siyasi-iqtisadi münasibətlər saxlamazdı. «Əsrin müqaviləsi» ilə Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin iqtisadi təməllərini formalaşdırır, Azərbaycanın beynəlxalq nüfuzunu təmin etməyə nail olur.

Azərbaycanın taleyi, ilk növbədə onu əhatə edən böyük dövlətlər – Türkiyə, İran, Rusiya ilə balanslaş-

dırılmış siyasət aparılmasından çox asılı idi. Heydər Əliyev gen bir, din bir, dil bir Türkiyə ilə, əhalisinin yarıdan çoxu azərbaycanlılardan ibarət olan İranla, iki yüz il bir kontingentdə yaşadığımız Rusiya ilə tarazlaşdırılmış xarici siyasətinin əsaslarını formalaşdırmağa nail oldu. Onun Avropa ölkələrinə və Amerikaya səfəri çox böyük tarixi və siyasi əhəmiyyətə malik idi. «Heydər Əliyev» kitabında bu cəhət ön plana çəkilir, Ulu öndərin Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirmək uğrunda mübarizəsinin ən mühüm detalları tarixi-siyasi təhlilin predmetinə çevrilir.

Heydər Əliyev öz xalqına iqtisadi cəhətdən qüdrətli, siyasi cəhətdən nüfuzlu müstəqil Azərbaycan və nəzəri cəhətdən güclü miras qoyub. Heydər Əliyevin misilsiz təcrübəsi və zəngin irsi dünyada ən mükəmməl dövlətçilik təməlidir. O, Azərbaycan əhalisində dövlətçilik hissini gücləndirdi. Azərbaycan Prezidenti İlham Əliyev hələ ailədə mənimsədiyi bu dövlətçilik təcrübələrini bu gün əzmlə həyata keçirir. Kitabda Heydər Əliyev və İlham Əliyevin münasibətləri ata-oğul, ailə çərçivəsindən çıxardılaraq böyük tarixi-siyasi müstəvidə təhlil olunur, bu varisliyin perspektivləri müəyyən edilir.

Heydər Əliyev nəzəri irsinin əsas müddəası, baş xətti azərbaycançılıqdır. O, azərbaycançılığı milli ideologiya kimi formalaşdırdı, dövlətçiliyə tətbiq etdi, müstəqil milli dövlətin ideologiyası kimi əsaslan-




*İstanbulda türk dilində nəşr olunmuş «Haydar Aliyev» kitabının təqdimatına toplaşmış ziyalılardan bir qrupu*

dırdı. Kitabda bu iki cəhət paralel nəzərdən keçirilir və oxucuya kifayət qədər zəngin məlumat verilir.

Heydər Əliyev haqqında yazmaq çətin və məsuliyyətlidir. Onun öz xalqı, müstəqil Azərbaycan üçün gördüyü cahanşümul işləri təhlil və əhatə etmək hər müəllifin işi deyil. Burada Hüseynbala Mirələmovun canlı müşahidələri, arxiv sənədləri dövri mətbuat materialları ilə vəhdətdə verilərək bu böyük şəxsiyyət haqqında elmi-tarixi təsəvvür yaradılmışdır.

Hüseynbala Mirələmov və Viktor Andriyanovun «Heydər Əliyev» kitabı çevik publisistik dildə, həssas yazıçı fəhmi ilə yazılmış ciddi tarixi əsərdir. Bu əsərdə Heydər Əliyevin canlı obrazı, döyünən ürəyi ilə eyni ritmdə tarixin özü nəfəs alır. Əminik ki, bu nəfəs gələcək nəsillərə qüdrət və hərarət bəxş edəcək.

## BÖYÜK NƏSLİN DASTANI

Əsası 1890-cı ildə F.Pavlenko tərəfindən qoyulan, 1933-cü ildən ömrünün sonunadək böyük yazıçı M.Qorkinin redaktorluğu ilə nəşr olunub şöhrət qazanan «JZL» dünyada ən çox oxunan bioqrafik seriyadır. Son illər bu məşhur seriyadan görkəmli Azərbaycan yazıçısı və publisisti Hüseynbala Mirələmovun «Heydər Əliyev», «İlham Əliyev» kitabları çap olunmuşdur. Bu kitabları Hüseynbala Mirələmov rus yazıçısı Viktor Andriyanovla birlikdə yazmışdı. Nəhayət, bu günlərdə böyük nəslin dastanının üçüncü kitabı «Zərifə Əliyeva» (2010) Moskvada həmin seriyadan çap olundu. Bu kitabı Hüseynbala Mirələmov tək yazmışdır.

Hüseynbala Mirələmov Azərbaycan xalqının tarixi taleyi üzərində aramsız düşünən, Ümummilli lider Heydər Əliyevin ideallarına hədsiz sadiq bir yazıçı, alim və ictimai xadimdir. O, Heydər Əliyev mövzusuna birdən-birə gəlməyib, böyük həssaslıqla, addım-addım daxil olub. Onun «Amalın işığında» (2002), «Həqiqət» (2003), «Zəfər yolu» (2003), «Bir günəş var» (2004), «İşığın izi ilə» (2004), «Millətin atası» (2004) kimi sanballı kitabları, adlarından da göründüyü kimi, Ulu öndərin, yazıçının öz obrazı ilə

desək, Böyük İnsanın möhtəşəm tarixi fəaliyyətini müxtəlif rakurslardan əks etdirən əsərlərdir. Mən deyərdim ki, bu kitablar təkcə fundamental «Heydər Əliyev» monoqrafiyasının deyil, həm də «İlham Əliyev» və «Zərifə Əliyeva» monoqrafiyalarının yazılması üçün etibarlı zəmin rolunu oynamışdır. Çünki adı qeyd olunan kitabların hamısında Heydər Əliyevin əzəmətli şəxsiyyəti həm onun nəcib xanımı Zərifə Əliyeva, həm də övladları, xüsusilə də Azərbaycanın Prezidenti İlham Əliyevlə birlikdə təqdim olunmuşdur.

Hüseynbala Mirələmov «Zərifə Əliyeva» kitabı üçün cazibədar forma tapıb. Monoqrafiya bədii əsərlərə – romanlara xas «Dastanın başlanğıcı» adlı epiloqla başlanır və «Əbədiyyət dastanı» adlı proloqla tamamlanır. Bu əsər, nəcib bir Azərbaycan qadını, görkəmli oftalmoloq alim–akademik, ağıllı və sədaqətli həyat yoldaşı, fədakar ana – nəslin ocağının odunu qoruyan və bütün Azərbaycan üçün saxlayan böyük insan haqqında əbədiyyət dastanıdır. Yazıçı öz qəhrəmanının nurlu obrazına onun müasirlərinin xatirələri prizmasından nəzər salır... Fəqət, «dastan» ata ocağından başlanır. İstər qız olsun, istərsə oğlan şəxsiyyətin yetişməsinə üç başlıca amil təsir göstərir: ana qucağı, ata ocağı və təhsil ocağı! Zərifə xanım Azərbaycanda Sovet dövrü səhiyyəsinin qurucularından biri, «daxili azadlıq və yüksək ləyaqətə, böyük ağıl və iradəyə malik» bütöv şəxsiyyət, tibb elmləri




*«Зарифа Алиева» kitabının təqdimatı. Kitabın müəllifi Hüseynbala Mirələmov son söz söyləyərkən*

doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya gəlmiş altı xoşbəxt uşaqdan biri idi: Tamerlan, Cəmil, Ləzifə, Zərifə, Dilbər, Gülarə! Dilbər rabitəçi-mühəndis, Gülarə pianoçu sənətini seçdi. Qalan dörd övlad isə şöhrətli atanın şərəfli yolu ilə gedib həkimlik sənətinə yiyələndi.

Hüseynbala Mirələmov kitabının Əziz Əliyevdən bəhs edən fəslini «Əvəzolunmaz insan» adlandırır. Bu, həqiqətən, belə idi. Yazıçı bunun səbəbini hər şeydən öncə Əziz Əliyevin mühitində axtarır, onun müasirlərinin xatirələrində izahını tapır. Əziz Əliyev 1897-ci il yanvarın 1-də qədim Azərbaycan yurdu İrəvan quberniyasının Hamamlı kəndində hörmətli bir kişinin – Məmmədkərim Kərbalayi Qurbanəli oğlunun ailəsində dünyaya gəlib. Rus-tatar məktəbini, sonra isə gimnaziyanı bitirib. O, 1918-ci ildə atasını, 1920-ci ildə anasını itirir. Ancaq ruhdan düşmür. Yeni yaradılmış Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində 1927-ci ildə təhsilini başa vurur. Böyük istedad, dərin savad və idarəçilik qabiliyyəti sayəsində o, 1930-cu ildə artıq səhiyyə naziri idi... Hüseynbala Mirələmov onu uşaqlıq yoldaşı, akademik Mustafa Topçubaşovun bir cümləsi ilə dəqiq xarakterizə edir: «Görünür, səhiyyənin atası Hippokrat özünün həkimlik andını Əziz kimi həkimlərə baxıb yazmışdır».

Zərifə xanım Əliyeva belə bir atanın, həkim və ictimai xadimin əlinin sığalı ilə böyümüşdü. Əziz Əliyev 1935-ci ildə Tibb İnstitutunun rektoru, 1937-ci il-

də isə, eyni zamanda Azərbaycan Dövlət Universitetinin – iki ali məktəbin rektoru təyin olunur. 1941-ci ildə isə o artıq Azərbaycan KP(b)MK-nın katibi idi. Hüseynbala Mirələmov öz qəhrəmanlarının yetişdiyi mühit haqqında təsəvvür yaratmaq üçün Əziz Əliyevin 1942-ci ildən etibarən səkkiz il Dağıstana rəhbərlik etdiyi dövrə də xüsusi diqqət yetirir. Bu zaman o təkcə Dağıstanın obkomu – katibi deyil, həm də Mahaçqala Müdafiə Komitəsinin sədri idi. Məhz buradakı fəaliyyəti, şablondan uzaq şəxsiyyəti, humanizmi, insansevərliyi, sadəliyi və əlbəttə, yüksək siyasi iradəsi və dövlət quruculuğu sahəsindəki istedadı ilə, həqiqətən, əvəzolunmaz şəxsiyyət olduğunu sübut etmişdir.

1950-ci ildə Moskvada İctimai Elmlər Akademiyasını bitirib Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra ona təzyiqlər başlanır. Şübhəsiz ki, Əziz Əliyevin gündən-günə artan nüfuzu ətrafındakıları narahat edirdi.

Kitabın «Zərifə və Heydər» fəslini həyəcansız oxumaq olmur. Zərifə xanım 1949-cu ildə təhsilini başa vurub Moskvadan, DTK zabiti Heydər Əliyev isə 1950-ci ildə Leninqraddan (indiki Sankt-Peterburq – *red.*) Bakıya qayıdırlar. Müəllif yazır: «Ayrılıq onların sevgi hislərini daha da möhkəmlətmişdi və o, ailə qurmağı qərara alır». Bu, Əziz Əliyevin ailəsinin nəzarətə alındığı, izlənildiyi, özünün yüksək vəzifələrdən çıxarıldığı dövr idi. Bundan sonra məhəbbətin




*M.F.Axundov adına Milli Kitabxanada Hüseynbala Mirələmovun «Ильхам Алиев» kitabının təqdimatı*

sınağı, sevgi «Dastan»ının çətin səhifələri başlayır. İndi təkcə Əziz Əliyev deyil, gənc Heydər Əliyev də təzyiqlərə məruz qalır. Azərbaycan SSR DTK-nın rəhbəri general S.Yemelyanov onu yanına çağırıb Əziz Əliyevin ailəsi ilə əlaqələri kəsməyi tələb edir. 1953-cü ilin əvvəllərində S.Yemelyanov onu bir də çağırıb xəbərdarlıq edir və işdən çıxarılacağı ilə hədələyir. Fəqət, heç bir qüvvə bu məhəbbətin qarşısını ala bilmir. Çünki bu qarşılıqlı, təmənnasız məhəbbət, iki sədaqətli və qüvvətli insanın duyğularının qarşısıalınmaz seli idi. Bu məhəbbət əsasında 1954-cü ildə qurulmuş ailə Əziz Əliyevin böyük ümid və rəğbətinə səbəb oldu. Hüseynbala Mirələmov dəqiq faktlarla onun öz kürəkəninə olan ehtiramını, onun böyük gələcəyinə dönməz ümidini əks etdirir. Lakin, şübhəsiz, o vaxt Allahdan savayı heç kəs bilmirdi ki, bu sadə ailə Azərbaycan tarixində yeni səhifə açacaq, tarixin yeni mərhələsinin əsasını qoyacaq.

Hüseynbala Mirələmov yazır: «Bu məhəbbətin tarixi haqqında sonralar çoxlu şeirlər yazıldı, filmlər çəkildi. Rejissor Vaqif Mustafayev bu mövzuda «Əsl məhəbbət haqqında» adlı insanı riqqətə gətirən dramatik bir film çəkdi. Və biz burada ekrandan filmin əsas qəhrəmanı Heydər Əliyevin təsirli etirafını eşidirik: «Mən onu, həqiqətən, çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim. Düşünürəm ki, bizim bir-birimizə olan məhəbbətimizin nə qədər dərin köklərə malik olduğunu sübut etməyə ehtiyac

yoxdur». Sonralar xalq şairi Zəlimxan Yaqub Heydər Əliyevin nəhəng şəxsiyyətinə, cahanşümul əməllərinə həsr etdiyi «Böyük ömrün dastanı» poemasında bu qeyri-adi məhəbbətin vəsfinə xüsusi bir fəsil ayırdı.

Elə kitablar var öz zəmanələri üçün, elə kitablar da var ki, yalnız kitabxanalar üçün yazılır. Hüseynbala Mirələmovun trilogiyası – «Heydər Əliyev», «İlham Əliyev» və «Zərifə Əliyeva» kitabları yaddaş üçün, əbədiyyət üçün yazılıb. Çünki bu kitablar bir nəslin üç böyük şəxsiyyətinə müəllifin dərin ehtiramını, səmimi ziyalı duyğularını əks etdirir. Dərin və ciddi araşdırmalar, tutarlı faktlar, dövrə və dövlətçiliyə dərindən bələdlik, yüksək tarixilik duyğusu və yazıçının peşəkarlığı bu kitabların hər səhifəsində aydın hiss olunur. Yazıçı-publisist Hüseynbala Mirələmov bu dünya şöhrətli qəhrəmanlarının həyat və fəaliyyətinə, xalqımızın tarixi taleyindəki rollarına qlobal şəkildə yanaşa bilmiş və Heydər Əliyev, İlham Əliyev və Zərifə Əliyeva haqqında yazmağın böyük məsuliyyətini bir an da unutmamışdır. Artıq qeyd etdik ki, «Zərifə Əliyeva» kitabının qəhrəmanı dərin və ülvi məhəbbətdir. Heydər Əliyevin və Zərifə xanımın simasında bu məhəbbət ağır sınaqlara məruz qalır, hədə-qorxu ilə üz-üzə gəlir. Hər iki tərəfin böyük iradəsi sayəsində yenilmir. Müəllif yazır: «Sonralar Heydər Əliyev etiraf etmişdi: «Bilirsinizmi nə kimi fikirlər mövcud idi, çünki mən DTK-da işləyirdim, onun atasının ətrafında nələr baş verir, onu necə

izləyirlər bilirdim. Mən bilirdim, eşitmişdim ki, onu bütün ailəsi ilə buradan Qazaxıstana sürgün etmək planı var. Mən düşünmüşdüm: əgər onları sürgün etsələr, mən onun ardınca Qazaxıstana gedəcəyəm, bəlkə də, mənə orada iş tapmaq buradakından asan olacaq».

Bu, insanın öz sevgisi yolunda həqiqi bir fədakarlığı idi. Biz eşq yolunda belə fədakarlıqlar haqqında nağıllarda, dastanlarda, Nizaminin, Füzulinin, Nəvainin, Şeksprin əsərlərində oxumuşuq. «Eşqdir mehrabı uca göylərin, Eşqsiz, ey dünya, nədir dəyərin?!» – deyirdi Şeyx Nizami. «Ya rəb, bəlayi-eşq ilə qıl aşina məni, Bir dəm bəlayi-eşqdən etmə cüda məni» – deyə fəryad edirdi Mövlanə Məhəmməd Füzuli. Dünya ədəbiyyatında məhəbbət haqqında ikinci böyük dastanı – «Romeo və Cülyetta»nı yaratmış U.Şekspir isə eşqi xoşbəxtlik adlandırırdı: «Xoşbəxtliyin nə olduğunu, nəhayət ki, dərk etdim, çünki sevirdim». Heydər Əliyevin Zərifə xanıma məhəbbəti övladlarına keçdi, xalqa, millətə böyük sevgiyə çevrildi.

«Zərifə Əliyeva» kitabı, beləliklə də, nümunəvi Azərbaycan xanımı, Heydər Əliyev kimi böyük bir şəxsiyyətlə həyatda yanaşı addımlamış həyat yoldaşı, qayğıkeş və mehriban ana haqqında maraqlı bioqrafik əsərdir. Həqiqətən də, zirvədən-zirvəyə addımlamış və əbədiyyətə qovuşmuş tarixi şəxsiyyətlər haqqında mənalı bir dastandır.

Dastan xalqın epos təfəkkürünün yaratdığı ən möhtəşəm bədii abidədir. Dastanın yaranması üçün əv-




*Milli Məclisin vitse-spikeri Ziyafət Əsgərov*
*«Ильхам Алиев» kitabı haqqında fikir söyləyərkən*

vəlcə xalq yaranmalı, öz mifini yaratmalıdır... Və türkün ən böyük dastanında «Kitabi-Dədə Qorqud» eposunda «Ana haqqı tanrı haqqı» adlandırılır, «Ana südü, dağ çiçəyi» ölümcül qəhrəmanı cana gətirir. «Cənnət anaların ayaqları altındadır» – deyib Məhəmməd Əleyhissəlam, «Anamın bircə öpüşü məni rəssam elədi» – yazıb Rafael, «Ana bir əli ilə beşiyi, o biri əli ilə dünyanı yırğalayır» – bu sözlər də böyük sərkərdə Napoleonun dilindən çıxıb. İ.V.Höte isə belə yazıb: «Təbiətin ən böyük möcüzəsi anadır». «Zərifə Əliyeva» kitabının qəhrəmanı belə böyük bir ana, xoşbəxt taleli tarixi bir şəxsiyyətdir. Və müəllif onun parlaq surətini ən isti boyalarla, ən ülvi və nəcib sözlərlə nəqş edib. Ümumiyyətlə, bu kitab böyük bir dövrün konteksti, fakt və sənəd mənzərəsi nəzərə alınmaqla yüksək tarixilik və müasirlik duyğusu ilə yazılmış konseptual tədqiqat əsəridir. Dilinin şirinliyinə, bədii tutumuna, müəllif mövqeyinin səmimiliyinə görə onu xatirələrdən hörülmüş yaddaş romanı da adlandırmaq olar. Əsərdəki xatirələr, hər şeydən öncə, Zərifə Əliyevanı dünya şöhrətli bir oftalmoloq kimi səciyyələndirir. Müəllif xatirələrin kontekstoloji əsasını düzgün müəyyən edərək, elə bir fikri-mənəvi sistem qurur ki, maraq oxucunu ahənrüba kimi öz arxasınca çəkib aparır.

Kitabda akademik Püstəxanım Əzizbəyovanın xatirələri gənc məktəbli qız Zərifə Əliyevanın vətənpərvər fədakarlığı haqqında məxəz kimi təqdim olu-

nur. O danışır ki, biz indiki İqtisad Universitetində yerləşən hospitalın bir palatasını hamiliyə götürmüşdük. Məktəbli qız Zərifə dərhal vəziyyəti ələ aldı. Pəncərənin qarşısında üzü tamam yanmış və bədəni sınıq-sınıq olmuş təyyarəçi yatır, heç nə yemir, heç nə danışmır, gözünü belə açmırdı. Nəhayət, Zərifə öz söhbətləri və istiqanlığı ilə onu dilə gətirdi. Məlum oldu ki, yaralı təyyarəçinin biz yaşda qızı var. O, Zərifəyə bir məktub diqtə elədi və biz məktubu onun qızına yolladıq.

Bir dəfə biz xəstələrə baş çəkib Zevin (indiki Əziz Əliyev küçəsi – *red.*) küçəsinə endik. Yolun kənarında gözəl, ucaboy bir qadın başını dik tutub dayanmışdı. Zərifə mənə dedi: «Gördün, gördün. O kordur». Bu iki fakt adicə müşahidə deyil, Zərifə Əliyevanı həkimliyə, özü də göz həkimliyinə aparan tale məqamlarıdır.

Professor Umnisə Musabəyova ona – uğurla dövlət imtahanı vermiş tələbəsi Zərifə Əliyevaya deyir: «Həkimlik gözəl, şərəfli sənətdir. Fəqət, tibb elmləri içərisində ən şərəflisi oftalmologiyadır. Mən istərdim ki, sən oftalmoloq olasan».

Zərifə Əliyeva Bakıdan sonra 1948-ci ildə Moskva məktəbini keçib istedadlı və bacarıqlı oftalmoloq peşəsinə yiyələnir. 1949/50-ci illərdə bu nəcib və şərəfli ixtisas üzrə ordinatura keçir, 1950–1953-cü illərdə isə aspiranturanı bitirir. 1954-cü ildə Heydər Əliyevlə ailə həyatı qurur, 1955-ci il oktyabr ayının

18-də onların ilk övladı – Sevil xanım dünyaya gəlir. Zərifə xanım 1960-cı ildə «Traxoma xəstəliyinin sintomisin və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi» mövzusunda uğurla müdafiə edərək oftalmologiya üzrə tibb elmləri namizədi alimlik dərəcəsi alır. Və 24 dekabr 1961-ci ildə Zərifə və Heydər Əliyevlərin oğul övladı – Azərbaycanın gələcək Prezidenti İlham Əliyev anadan olur. Zərifə xanım 1976-cı ildə Moskvada çox çətin bir mövzuda – «Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi alır. O, 1977-ci ildə professor, 1983-cü ildə isə akademik seçilir... Bura qədər elmi axtarışlarla dolu böyük həyat yolu var. Gəlin, biz də Hüseynbala Mirələmovun izi ilə xatirələrə qayıdaq...

Xatirə yaddaşın gəncliyi, şəxsiyyətin özünüifadəsidir. Xatirə şəxsiyyətin yaddaşında bitən elə bir ağacdır ki, onun bəhrəsi bütöv bir cəmiyyətə məxsusdur. Xatirələr ən yaxşı etirafdır: insan həm özü, həm də müasirləri barəsində həqiqəti söyləyir. Xatirələr bədii mədəniyyətin unikal bir növüdür. «Zərifə Əliyeva» kitabında da fakt və xatirə, bədii təsvir, lirik tərənnüm və fəlsəfi mühakimə həssaslıqla bir-birini tamamlayır. Məsələn, kitabda tibb elmləri doktoru Həcər xanım Nəsrullayevanın, Elmi-tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru Kərim Kərimovun, Fərhad Məmmədovun, tibb xidməti polkov-




*Millət vəkili, professor Nizami Cəfərov*
*«Ильхам Алиев» kitabı haqqında çıxış edərkən*

niki, tibb elmləri doktoru V.Vaynşteynin, professor A.Dobromıslovun, tibb elmləri doktoru, professor M.Sultanovun, baş tibb bacısı N.İsmayılovanın, professor T.Hüseynovun göz həkimi, humanist insan kimi Zərifə xanım barəsində bir-birindən maraqlı xatirələri kitabda yer alıb. Həmin xatirələr işığında onun obrazı daha nəcib, səmimi və ülvi təsir bağışlayır. Bu xatirələrdə Zərifə xanım ilk cərrahiyyə əməliyyatının uğurundan hədsiz sevinən uşaqqəlbli həkim (akademik P.Əzizbəyova) 60-cı illərdə Azərbaycan rayonlarında traxomaya qarşı fədakarcasına mübarizə aparan, bilik və bacarığını əsirgəməyən tibb alimi (t.e.d. H.Nəsrullayeva), öz peşəkarlığı və insani keyfiyyətləri ilə seçilən, traxomanın ləğv edilməsində xüsusi xidmətləri olan, səhiyyəyə inam və əqidə ilə xidmət edən göz cərrahı (K.Kərimov), təkcə özünün yox, həm də peşəsinin – oftalmologiyanın şərəfini qoruyan, prinsipial alim (t.e.d. V.Vaynşteyn) xəstəni təkcə dərmanla yox, həm də sözlə müalicə etməyi bacaran, təmənna və tərif güdməyən səmimi, ciddi və xeyirxah həkim (prof. A.Dobromıslov) kimi fikirlər və ifadələrlə səciyyələndirilir. Xatirələrdə həm də belə bir unikal cəhət ön plana çəkilir ki, Zərifə xanım müasirlərinə, xüsusilə həmkarlarına qarşı həssas, qəlbə toxunan acı söz işlətməkdən uzaq, xəstələrə qayğı ilə yanaşan, fəqət öz həyatı və elmi prinsiplərindən dönməyən, elmdə və həyatda öz haqlı mövqeyini inadkar bir inamla müdafiə etməyi baca-

ran mütəxəssis və şəxsiyyət idi. Hüseynbala Mirələmov onun xarakterində iki başlıca cəhəti – peşəkarlığa və prinsipiallığa hörməti ön plana çəkir. O, düşüncəsi saf, əqidəsi dürüst, əlləri şəfalı fenomenal bir həkim, yüksək nəzəri biliyə, intellektual səviyyəyə malik alim idi.

Ulu öndər Heydər Əliyev Azərbaycan qadınlarına böyük qiymət verərək demişdir: «Azərbaycan qadınları həmişə milli iftixara çevrilən işlər görüblər». Belə qadınlardan biri də onun öz xanımı Zərifə Əliyeva idi. Heydər Əliyev kimi dahi bir şəxsiyyətin sevilən xanımı olmaq həm böyük bir şərəf və səadət, həm də məsuliyyət idi. Tarixən böyük kişilərin arxasında böyük xanımlar dayanıb. Azərbaycan xanımları təkcə zəriflik və gözəllik mücəssəməsi deyil, həm də müdriklik, mərdlik, sədaqət, mənəvi dayaq timsalıdır. Biz belə hesab edirik ki, sevmək özü də bir qəhrəmanlıqdır. Azərbaycanın belə qəhrəman xanımları çox olub: Tomiris, Nüşabə, Məhinbanu, Şirin, Möminə xatun, Zahidə xatun, Mehrican xatun, Səlcuqşah bəyim, Pərixan xatun, Məhinbanu Sultan, Tutibikə, Ağabəyim ağa, Natəvan... Zərifə xanım və onun gəlini, ölkənin birinci xanımı Mehriban xanım məhz belə xanımlardandır.

Əsil-nəcabət, yüksək mənəvi mədəniyyət, ali analıq və qadınlıq duyğusu, millətə və dövlətə sevgi, humanizm və insanpərvərlik, tarixi keçmişimizə hörmət, sivil dünyanı heyrətə salan böyük intellekt bu




*«Ильхам Алиев» kitabının müəllifi*
*Hüseynbala Mirələmov*

xanımları tarixi şəxsiyyətlər kimi səciyyələndirən, onlara ümumxalq ehtiramı gətirən başlıca cəhətlərdir.

Bu gün Prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyeva bütün sahələrdə – həm dövlətçilikdə, həm xalqla mənəvi ünsiyyətdə, həm də millətə və milli mədəniyyətə məhəbbətdə Ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın müqəddəs ənənələrini şərəf və ləyaqətlə qoruyub saxlayır və yüksək əxlaqi dəyərlər kimi gələcək nəsillərə çatdırırlar.

Hüseynbala Mirələmovun «Heydər Əliyev», «İlham Əliyev» və «Zərifə Əliyeva» kitabları – «JZL» trilogiyası bir tarixi həqiqəti reallıqla təsdiq etdi ki, tarixi kütlə yox, liderlər yaradır. Bu kitablar Əliyevlər nəslinin tarixdəki rolunu aydınlaşdırır və təsdiq edir. Hüseynbala Mirələmovun «Zərifə Əliyeva» kitabını oxuyur və düşünürəm ki, bu kitabın konseptual əsasında nə dayanır? İlk cavabım: Zərifə Əliyevanın simasında milli əxlaqi dəyərlərimizin ülvi təcəssümünü, uca zirvəsini əks etdirib Hüseynbala Mirələmov. Bu, qadın məhəbbəti, qadın sədaqəti, pak qadın mənəviyyatı, qadın şəxsiyyəti, qadın dəyanəti, xanımlıq məktəbi, sadəlik və səmimiyyət haqqında ensiklopediyadır. Əslində ərə gedən bütün qızlarımızın ən qiymətli cehizi olmalıdır bu kitab! Qoy onlar sevəndə, həyat yoldaşına arxa durmalı olanda, sevgiləri sınaq qarşısında qalanda, elmi axtarışların əzabını intixab edəndə, xoşbəxtlik anlarını yaşayanda «Zərifə Əliyeva» kitabını oxusunlar.

Böyük fransız maarifçi-filosofu J.J.Russo deyirdi: «O şey ki, əxlaqi cəhətdən doğru deyil, o heç bir baxımdan məqbul sayıla bilməz». Hüseynbala Mirələmovun kitabı yüksək əxlaqi dəyərlər haqqında, onu qorumaq, nəsildən-nəslə ötürmək barəsində qəlbi Allah nuru ilə dolu bir insanın əsəridir.

Prezident İlham Əliyev 1995-ci ildə «Günay» qəzetinə müsahibəsində «Zərifə xanım yadınızda necə qalıb?» sualına belə cavab verir: «Ən əziz insan kimi. Onun vəfatından sonra mənim hayatım, ümumiyyətlə, bütün ailəmizin həyatı dəyişdi. Belə ki, mən indi onun sağlığında güldüyüm kimi gülə bilmirəm. Doğrudur, onun vəfatından on ildən artıq vaxt keçir, lakin indi də həyatımda hər hansı bir xoşbəxt hadisə baş verəndə düşünürəm ki, kaş o bu hadisənin sevincini yaşaya biləydi. O, vəfat edəndə mənim böyük qızımın 1 yaşı var idi. Belə ki, mənim qızlarım nənələrini görə bilmədilər – bu onların tərbiyəsi üçün böyük itki idi». Müəllif bu mənalı fikrə önəm verir: Zərifə Əliyeva böyük mənəvi tərbiyə və əxlaqi gözəllik məktəbi idi. Onun həyat tərzi, davranışı, həkimliyə olan sevgisi, ailəcanlığı gənc qızlarımız üçün misilsiz nümunədir.

Hüseynbala Mirələmov Zərifə xanımın 1985-ci ildə Moskvada vaxtsız vəfatını ümumxalq kədəri kimi qələmə alır. Bu, hər kəsdən öncə, qüdrətli şəxsiyyət Heydər Əliyev üçün ağır mənəvi zərbə idi. Bütün ailə bu itkinin ağrı-acısı ilə yaşadı. Azərbaycan xalqı

öz qiymətli qızına matəm saxladı. «Zərifə Əliyeva» kitabında bu ağır itki ilə bağlı görkəmli adamların xatirələri bu itkinin ağırlığını səmimi bir tərzdə əks etdirir. Jurnalistlərdən birinin «Sizin üçün ən sevimli adam kimdir?» – sualına Heydər Əliyev çox müxtəsər cavab vermişdi: «Zərifə xanım».

Zərifə Əliyevanın son məktubunda isə bu sözlər yazılmışdı: «Mənə görə narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm...» «Unutma ki, mən səni sevirəm!» Hüseynbala Mirələmov öz qəhrəmanının obrazını bu sevginin nurunda yaradır. Bu sevgi, ər, ailə, övlad qarşısında bir mənəvi borc deyil, daxili tələbat idi və öz səmimiyyəti ilə insanlığa işıq saçırdı. Zərifə xanım öz sevgisini, qəlbinin hərarətini təkcə ailəsinə və övladlarına həsr etmir, bir həkim kimi mehriban təbəssümü, mərhəmətli sözləri ilə xəstələrinə də bəxş edirdi. O, yunan filosofu Platonun bir fikrini həkimlik peşəsi üçün məram seçmişdi: «Həkimin edə biləcəyi ən böyük səhv xəstənin qəlbini, ruhunu nəzərə almadan onun bədənini müalicə etməyə başlamasıdır». Kitabda müəllifin gətirdiyi onlarla fakt və xatirə belə bir həqiqəti aydınlaşdırır ki, Zərifə xanım xəstələrinə qarşı olduqca səbirli və təmkinli, onun dərdlərinə həssas, istəklərinə qayğıkeş münasibət bəsləyən bir həkim idi. Doğrudur, bədənin hər bir üzvü insan üçün gərəklidir. Lakin göz insanı dünyaya bağlayan, insanın dünya haqqında təsəvvürlərini formalaşdıran əsas orqandır. Göz həkimi



*Soldan: akademik Bəkir Nəbiyev, millət vəkili Eldar İbrahimov və Hüseynbala Mirələmov*

olmaq nur həkimi olmaq deməkdir. Hürufilər deyirdi ki, «İnsan Həqdən qopmuş nur parçasıdır». Tanrının nuru insanın gözündə əks olunur. Göz qəlbə açılan nur pəncərəsidir. Keçmişdə babalar bir kişi ağır xəstələnəndə demirdilər ki, filankəs ölür, deyirdilər ki, gözünün nuru çəkilir. Zərifə xanım Allahın nurunu insana qaytaran qüdrətli bir loğman idi.

«Zərifə Əliyeva» kitabının qəhrəmanını Hüseynbala Mirələmov təbiətən şərqli, təfəkkürən qərbli kimi vermiş, onun şəxsiyyətində Şərq və Qərb dəyərlərinin vəhdətini əks etdirmişdir...

Hər insan özü bir dünyadır. Hər ömrün öz dastanı var. Hərə öz taleyini yaşayır, tarixini yaradır. Ömür sürmək hələ tale yaşamaq deyil. Çünki insan yaşadığı illərin sayı ilə yox, gördüyü işlərin sanbalı ilə yaddaşlara köçür, tarixə daxil olur. Taleyi Allah insanın alnına ana bətnində yazır. Hərənin heç kimə bənzəməyən öz alın yazısı var. Nə yazılıbsa o da olacaq.

Zərifə Əliyevanın taleyinə Əziz Əliyev kimi böyük bir həkimin, ictimai xadimin, diplomatın, ölkənin rəhbərlərindən birinin ağıllı qızı olmaq, eyni zamanda atasına ədalətsiz münasibətin şahidi olmaq, Heydər Əliyev kimi dahi bir şəxsiyyətin sevgisini qazanmaq və 1969-cu ildən Azərbaycanın birinci xanımı olmaq, həkim oftalmoloq kimi akademik zirvəsinə yüksəlmək, İlham Əliyev kimi prezident oğulun anası olmaq, Mehriban xanım kimi nadir xislətə, nurlu qəlbə, böyük istedada malik gəlinin qayınanası olmaq şərəfi

yazılmışdı. Bu gün Prezident İlham Əliyev və Mehriban xanım ülvi bir sədaqətlə, nəcib ehtiramla, böyük siyasi iradə və qabiliyyət əzmi ilə dahi Heydər Əliyevin və nəcib alim Zərifə xanımın arzularını həyata keçirir, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı qoruyub möhkəmlədir, böyük nəslin dastanının yeni səhifələrini yaradırlar. ... Tarixin yeni zirvələrinə zəfərli yürüşü əks etidrən «Əbədiyyət dastanı» davam edir.

Əminik ki, görkəmli yazıçı Hüseynbala Mirələmov Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyət əzmini yeni epopeyalarda daha böyük  istedadla əks etdirəcək.



*Moskva şəhərində keçirilən Beynəlxalq Kitab Sərgisində*

## HAKİMİYYƏT ƏZMİ

*«İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonudur».*

**Çingiz AYTMATOV**

Gəlin, etiraf edək ki, prezident haqqında yazmaq çox çətindir. Çünki o, adi adam deyil. Fəaliyyətinin görünən və görünməyən tərəfləri var. Onun haqqında yazmağa mənəvi səlahiyyətin olmalıdır. Ona həddindən ziyadə həssas və diqqətli yanaşmalısan. Cəmiyyət bu funksiyada səni qəbul etməlidir. Daha orasını demirəm ki, dövlətçilik tarixini, siyasəti, dünyanın tarixi-siyasi durumunu bilməlisən. Burada təkcə rəsmi sənədlər, arxiv materialları, mətbuat yazıları kifayət etməz. Sən öz qəhrəmanını şəxsən tanımalı, sevməli, onun sırf insani hislərinə bələd olmalısan. Xoşbəxtlikdən bütün bu cəhətlər 2007-ci ildə Moskvada rus dilində məşhur «JZL» – «Görkəmli Adamların Həyatı» seriyasından çap olunmuş «İlham Əliyev: bioqrafiya davam edir» kitabının müəlliflərində – Hüseynbala Mirələmovda və Viktor Andriyanovda var (Viktor İvanoviç ötən il dünyasını dəyişdi).

Hüseynbala Mirələmov Heydər Əliyev ideallarına, ümumən Əliyevlər nəslinə olduqca sadiq bir yazı-

çıdır. Bu sədaqət və səmimiyyət onun Ulu öndərə həsr etdiyi kitablarında, xüsusən də «JZL» seriyasından çap olunub bütün dünyada nüfuz qazanmış «Heydər Əliyev» əsərində başlıca keyfiyyət kimi diqqəti cəlb edib. Qeyd etməliyəm ki, hər iki kitab böyük bir ehtiramla oxucunu cəlb edən canlı bir üslubda yazılıb. Hüseynbala Mirələmov yüksək dövlətçilik duyğusuna malik bir ziyalıdır. Hiss olunur ki, o, Prezident İlham Əliyevin lider kimi yetişməsini həm rəsmi sənədlər, həm də canlı müşahidələr yolu ilə həssaslıqla izləmişdir. Müəlliflər öz qəhrəmanlarını bir an da olsun həm Heydər Əliyevin mühitindən, həm də XX əsrin 70–90-cı illər kontekstindən ayırmamışlar. Xüsusilə, 1969-cu ildən Heydər Əliyev Azərbaycan dövlətinin başçısı kimi əzmlə fəaliyyətə başladığı dövrdən üzübəri baş verən tarixi-siyasi olayların İlham Əliyevin bir şəxsiyyət kimi yetişməsindəki rolu əsas mərhələlər üzrə təhlil olunmuşdur.

Belə bir faktı qeyd edək ki, bu kitab «Molodaya qvardiya» nəşriyyatının «JZL: Bioqrafiya davam edir» adlı yeni layihəsidir. Yeni layihənin ilk kitabı fəaliyyətdə olan xarici ölkə liderlərindən birinci olaraq Azərbaycan Prezidenti İlham Əliyev haqqındadır. Bu təkcə müəlliflərin təşəbbüsü deyil, daha çox müasir zamanın fəal lideri kimi Prezident İlham Əliyevin dünyada qazandığı nüfuzun etirafı kimi qiymətləndirilməlidir. Kitabda onun uşaqlıq, gənclik illəri çox dəqiq tarixilik müstəvisində canlı və maraqlı faktlarla

nəzərdən keçirilir. Məktəb illərindən, tələbəlik dövründən ta ən ali mərtəbəyə – prezident taxt-tacına qədərki fəal mübarizələr, uğurlu cəhdlər və səmərəli işlərlə dolu möhtəşəm bir dövrün şərəfli ömür salnaməsidi bu kitab. Burada onun qəhrəmanının həm fiziki-mənəvi, həm də tarixi-siyasi boy artımı yaddaqalan cizgilərlə bir rəssam dəqiqliyi və görüntüsü ilə nəqş edilir. Kitab elə həssaslıqla yazılıb ki, onu əfsanəvi bir şəxsiyyət haqqında romantik novella kimi oxuyursan. Və nəticədə oxucunun gözü qarşısında varlığı siyasi ehtiraslarla çağlayan passionar şəxsiyyətin, müdrik dövlət başçısının, fikri-siyasi baxışları tarixin ən uzaq üfüqlərinə yönəlmiş vətənpərvər insanın parlaq obrazı əzəmətlə canlanır. Fikrimizcə, çox ciddi şəkildə tarixilik prinsipinə əməl edən müəlliflər onu dövlət başçısı kimi səciyyələndirən cəhətləri obyektiv surətdə analitik təhlilin predmetinə çevirməyə nail olmuşlar.

Hər şeydən öncə, kitabda İlham Əliyev Ümummilli lider Heydər Əliyevin dövlət idarəçilik məktəbinin ən layiqli yetirməsi kimi təqdim olunur. Belə bir fikir ön plana çəkilir ki, İlham Əliyevin şəxsiyyəti hələ uşaq yaşlarında ailədə mənimsənilmiş dövlətçilik təcrübələri əsasında formalaşmışdır. Heydər Əliyevin adi davranışları özü bir universitet idi... Onun simasında Ulu öndərdən irsən gələn cəhətlərlə Allahın bəxş etdikləri gözəl bir vəhdət təşkil edir: sərtlik və səmimiyyəti birləşdirən görkəm, şəxsiyyət




*Hüseynbala Mirələmov Moskvada kitab mağazasında*

bütövlüyü, ağılla parlaq nitqin ahəngi, sözlə işin vəhdəti, intellekt və siyasi tizfəhmlik!

Müəlliflər öz qəhrəmanlarına xas olan üç cəhəti təhlilin mərkəzinə gətirirlər: çevik təfəkkür, hadisələrin tarixi təkamülünü proqnozlaşdırmaq bacarığı və monolit siyasi iradə!

Mənə elə gəlir ki, İlham Əliyevi bir dövlət başçısı, siyasi lider kimi fərqləndirən cəhətlərdən biri də özünü xalqa sevdirmək bacarığıdır. O, ilk növbədə, xalqla ünsiyyət yaratmağı, xalqın içərisinə getməyi bacardı. Buna öz səmimiyyəti ilə nail oldu. Məhz bunun sayəsində o, xalqla dövlət arasında etimad mühiti yaratmağa nail oldu.

Müstəqillik dövründə dövlət idarəçiliyində icrası zəruri ən çətin məsələ sovet rejimindən qalıb daşlaşmış, zehinlərdə kök salmış siyasi-ideoloji ehkamları və buna əsaslanan strukturları dağıtmaq idi. Bu işi Ulu öndər Heydər Əliyev başladı, o, müstəqil Azərbaycan dövlətinin strukturunu və siyasi strategiyasını işləyib hazırladı. İlham Əliyev bu çətin prosesi əzmlə həyata keçirməkdədir. O, hər şeydən öncə uzun-uzadı iclasbazlıqdan imtina etdi, yeni ekspressiv dövrün tələbinə uyğun olaraq problemləri yerindəcə həll etmək metodu özünü doğrultdu.

İlk seçkiqabağı gənc və müdrik namizəd belə bir çətin şərt qoydu: «Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam!» Prezident seçildikdən sonra onun bütün fəaliyyəti məhz bu istiqamətə yö-

nəldi. Hər bir Azərbaycan vətəndaşı söz və əməlin vəhdətinin canlı şahidi oldu. Çünki İlham Əliyev Azərbaycanın enerji resurslarını böyük bir bacarıqla İNSAN amilinə yönəltdi, İNSAN kapitalına çevirməyə nail oldu. «Əsrin müqaviləsi» kontraktını – Azərbaycan xalqının ən böyük maddi sərvəti olan NEFTi milli mənafelər baxımından istifadəyə yönəltməsi onun başlıca xidmətlərindən biridir. Və kitabda bu cəhət ön plana çəkilir. Qeyd etməliyəm ki, yalnız bundan sonra qeyri-neft sektorunun inkişafını düzgün məcraya salmaq mümkün oldu. Kəskin iqtisadi böhranın bütün dünyanı öz əənginə alıb maliyyə məngənəsinə saldığı bir dövrdə İlham Əliyev düzgün, düşünülmüş iqtisadi siyasət nəticəsində ölkənin iqtisadi təhlükəsizliyini, bununla da hər bir Azərbaycan vətəndaşının rahat güzəranını təmin etməyə nail oldu. Az vaxt ərzində ölkədə yaranan enerji təminatı, enerji təhlükəsizliyi də bu qlobal siyasətin tərkib hissəsi idi. Buraya dəqiq maliyyə və vergi sistemini, maliyyə intizamını, yeni iqtisadi siyasət forması olan sahibkarlığa, özəl sektora dövlət yardımını da əlavə etmək olar.

İlham Əliyevin belə bir fikri var: «Yoxsul ölkədə demokratiya qurmaq olmaz!» Bu, demokratik dövlət quruculuğunun yeni – Azərbaycan variantıdır. Bunun üçün prezident Azərbaycanı investisiya alan ölkədən investisiya qoyan ölkəyə çevirməyə nail oldu. Ölkədə ictimai-siyasi sabitliyin qorunması böyük iqtisadi

layihələri həyata keçirməyə imkan verdi. Bu sırada regionların inkişafı haqqında dövlət proqramının mərhələlər üzrə həyata keçirilməsi Azərbaycanın bütün regionlarında mədəni-mənəvi və iqtisadi dirçəlişə zəmin yaratdı. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009–2013)» yeni strategiyanın əsas konsepsiyası kimi bu gün öz möhtəşəm fəaliyyətini davam etdirməkdədir. O, həm də əhalinin sosial müdafiəsini nəzərdə tutur. Dünyanın məşhur yazıçılarından biri, türkün yetirdiyi böyük şəxsiyyət Çingiz Aytmatov deyib: «İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonudur». Bu möhtəşəm fikir Hüseynbala Mirələmov və Viktor Andriyanovun «İlham Əliyev: bioqrafiya davam edir» kitabının leytmotivini, əsas pafosunu müəyyən edir. Və bu söz təsadüfən deyilməyib. Məlumdur ki, bu gün baş verən ən böyük tarixi proses qloballaşma – kürəsəllikdir. Bütün dünya öz qapılarını millətlərin və milli mədəniyyətlərin üzünə açıb. Elmin, mədəniyyətlərin qarşılıqlı transformasiyası gedir. Yeni texnologiyalar erası nə hava, nə su, nə də quru sərhədi tanımır. Bu ümumdünya tarixi və ümumdünya mədəniyyəti üçün faydalı bir prosesdir. Bu prosesdə Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsi İlham Əliyev xarici siyasətinin böyük nailiyyətidir. İnamla demək olar ki, İlham Əliyev dünya siyasətində yeni dünya sahmanı yaradanlardan biri kimi böyük nüfuza malikdir.




*Əbədi yaşar kitablar*

O, Ulu öndər Heydər Əliyevin xətti-hərəkətini əzmlə davam etdirərək, dünya azərbaycanlılarını bir araya gətirməyə, Azərbaycan Diasporunu möhkəmləndirməyə, onun beynəlxalq nüfuzunu və gücünü, müqavimət qabiliyyətini artırmağa nail oldu. Bu, qloballaşan dünyada idarə olunmağımız, milli özəlliyimizi mühafizə etməyimiz üçün vacib amildir.

Ümummilli lider Heydər Əliyevin miras qoyduğu və bu gün Heydər Əliyev Fondu və onun rəhbəri, ölkənin birinci xanımı, xoşməramlı səfir, millət vəkili Mehriban xanım Əliyevanın fədakar əməyi sayəsində beynəlxalq layihələr formatında təbliğ olunan «Azərbaycançılıq» fəlsəfəsinin yeni dövrün tarixi şəraiti nəzərə alınaraq dövlətçiliyin arsenalına gətirilməsi – mədəniyyətə, elmə, memarlığa tətbiqi İlham Əliyevin kitabda öz əksini tapan xidmətlərindən biridir. Azərbaycançılıq müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyası – istiqlal məfkurəsidir.

Sözügedən kitabda Azərbaycan Prezidentinin idmana xüsusi diqqət yetirməsi, ölkədə olimpiya komplekslərinin, xalqın sağlamlığını təmin etmək üçün diaqnostika mərkəzlərinin tikintisinə mühüm əhəmiyyət verməsi dövlət siyasətinin istiqamətləri kimi təhlil olunur. Məşhur məsəldə deyilir: «Sağlam bədəndə sağlam ruh olar!» Və əlbəttə ki, sağlam ruh olan yerdə də ağıllı millət və qüdrətli dövlət formalaşdırmaq mümkündür. Bu gün Azərbaycanda vüsət almış idman – olimpiya hərəkatı millətin fiziki və

mənəvi sağlamlığına xidmət göstərən, onun güc və qüdrətini əks etdirən bəşəri hərəkatdır.

Hüseynbala Mirələmov və Viktor Andriyanovun «İlham Əliyev: bioqrafiya davam edir» kitabında bu möhtəşəm bioqrafiyanın gələcək davamçılarından Leyla Əliyevanın Rusiyada gördüyü böyük işlərdən, yeniyetmə Heydər Əliyevin parlaq arzularından, Arzu Əliyevanın ideallarından olduqca səmimi söhbət açılır.

Şübhəsiz ki, bu mənalı kitabın parlaq obrazlarından biri öz tarixi əməlləri, Heydər Əliyev ideallarına, İlham Əliyevin şəxsiyyətinə və dövlətçilik siyasətinə sədaqəti, Azərbaycan xalqına, millətimizə, təhsil və mədəniyyətimizə xidməti ilə böyük nüfuz və məhəbbət qazanmış ilahi insan – Mehriban Əliyevadır. «İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonu» (Ç.Aytmatov), Mehriban Əliyeva isə qloballaşan dünyanın müasir Ledi etalonudur. O, Azərbaycan qadınlarına xanımlıq nümunəsidir. Ağılla gözəlliyin nurlu vəhdəti, məlahətli və məzmunlu nitq qabiliyyəti, millətə və milli mədəniyyətə sevgi, hər bir insana, xüsusən uşaqlara humanist ana qayğısı, mənəvi iradə, həyat yoldaşına ehtiram və məhəbbət, övladcanlılıq və nəhayət, ölkənin birinci xanımı kimi işıqlı aura (halə) yaratmaq bacarığı onu lider xanım kimi səciyyələndirən, xalqa sevdirən mühüm cəhətlərdir.

Hüseynbala Mirələmov və Viktor Andriyanovun «İlham Əliyev: bioqrafiya davam edir» kitabını müasir şəxsiyyət haqqında maraqlı bir bioqrafik roman kimi oxuyub başa çatır və düşünürəm: İlham Əliyevin fəaliyyətinə güc verən və dünyamiqyaslı lider kimi onu ucaldan nədir?! Və böyük alman filosofu Nitsşenin məşhur bir əsəri köməyimə gəlir: «Hakimiyyət əzmi».



*Hüseynbala Mirələmov Y.Məmmədəliyev adına «Qızıl medal» mükafatının təqdimat mərasimində*



# BİR TİKƏ ÇÖRƏK,
# BİR DÜNYA ÜRƏK

***İnsana ürək qanı bədənə vurmaq, qəlb isə sevmək üçün verilir.***

## GÖZ YAŞINDA BİTƏN ÇİÇƏK

Ömrün orta çağındayam; nə qocayam, nə də cavan.

Hüseynbala Mirələmovun eyniadlı hekayələr kitabına daxil olan «Qayada çiçək» hekayəsinin qəhrəmanı Məftun da mən yaşdadı. Bu qəhrəmanın ömrün ucalıq rəmzi kimi seçdiyi məkan – «Zində dağı» da mənə doğmadır. Bakı–Quba yolunun üstündə yerləşən bu dağ göyə diklənən əlin beş barmağına oxşadığına görə, ona «Beşbarmaq dağı» da deyilir. İldə heç olmasa neçə dəfə Qubaya – evimizə gedəndə bu dağın yanında ayaq saxlayıb onu ziyarət edirəm. Çünki bu dağ «Xızır zində» ziyarətgahıdır. İslamaqədərki türk təfəkküründə əfsanələşən, mif qəhrəmanı kimi şöhrət tapan Xızır peyğəmbər guya ölməyib, diridir. Bu mənada «Xızır zində» diri xızır anlamını verir. Nədənsə, Hüseynbala Mirələmov «Zində» sözünü «ağlayan» deyə mənalandırır. Fəqət, məsələnin mahiyyəti bunda deyil... Mahiyyət hekayənin qəhrəmanı ortayaşlı ziyalı Məftunu «Zində dağı»na çəkib aparan duyğuların məzmunundadır.

Məftunu dağa gətirən həm də onun dağlar oğlu olmasıdır. Dağlardan şəhərlərə gələn ziyalılar əslində elə qayaların göz yaşında bitən çiçəklərə bənzəyir. Şəhərlər onları soldurduqca, onlar da öz saf tə-




*Bakı şəhəri 41 nömrəli orta ümumtəhsil məktəbində yazıçı Hüseynbala Mirələmovla görüş*

biətləri, mərd və sərt xislətləri, nəhayət, ətirləri ilə şəhərlərin və cəmiyyətin ab-havasını təmizləyirlər. Təsadüfi deyil ki, Məftun məhz dağın zirvəsinə qalxanda keçmişi, tarixi və gələcəyi xatırlayır, zirvədən hər şey gözəl görünür: «Ətraf aləm aşağıda qalmışdı. Buradan hər şey – lap mazutlu gölməçələr də, çirkab bataqlıqlar da, urbanizasiyanın ucqar dağ kəndlərindən qovub gətirdiyi adamların tikdiyi gecəqondu, eybəcər evlər də – hər şey gözəl görünürdü.

Dağın adı Zində idi. «Zində» sözünün mənası ağlayan deməkdir. Bu çiçəklər qayaların göz yaşından içib göyərmişdi».

Bu hekayə və kitaba daxil olan «Tənha durna uçuşu», «Qasırğa tez keçdi», «Meşədə tənha ev» kimi uğurlu bədii yazılarda Hüseynbala Mirələmovun yüksək humanist konsepsiyası ifadə olunub. Onun qəhrəmanları cılız hislərdən, məişət adiliklərindən xilas olmağa, təbiətin əbədiliyinə qovuşmağa can atan, mənəvi təkamül təşnəsi ilə yaşayan insanlardır. Yazıçının qənaəti budur ki, zirvədə qalmaq zirvəyə qalxmaqdan çətindir. Onun «Qayada çiçək» hekayəsində verilən rəvayət milli-mənəvi birliyin içimizdən keçdiyinə ciddi bir işarədir. Yazıçı, yalnız zirvəyə ucalanda beş barmaq bir olar fikrini irəli sürür. O, öz hekayələri ilə həyatın dibində sürünənləri mənəvi ucalığa, milli birliyə səsləyir.

Hüseynbala Mirələmov qaz sənayesi sahəsində tanınan mütəxəssisdir. Onun «İnşaat fizikası», «Qaz

kondensatları», «Karbohidrogen qazlarının emalının texnoloji sxemlərinin atlası» kimi kitabları çap olunub. Bəlkə də, hekayələrində planetin ekologiyası üçün həyəcan və bəşəri-insani narahatlıq onun peşəsindən gəlir. Bununla belə, deməliyəm ki, Hüseynbala Mirələmovun yazıçılığı adi həvəs deyil, candan və qandan gələn mənəvi tələbatdır. Bunu ilk dəfə hiss edən şəxsiyyətinə və qələminə dərin hörmət bəslədiyim dostum, xalq yazıçısı Elçin olub. Onun Hüseynbalanın 1986-cı ildə çap olunan «Tənha durna uçuşu» adlı hekayələr kitabına yazdığı ön sözdə oxuyuruq: «Bu hekayələrdəki səmimiyyət, doğma yurda məftunluq, hiss etdiklərini öz imkanları daxilində söyləmək ilə, xeyirxahlıq ilə o dağların, o bağ-bağatın, o dəniz mehinin arasında nəsə üzvi bir yaxınlıq var».

Hüseynbala Mirələmovun hekayələrini həyatın üzünü görən, əməlinə və zəkasına güvənən adamın həyat və tale üzərində lirik-əfsanəvi düşüncələr kimi qiymətləndirmək olar. Qayaların göz yaşında çiçək bitirmək təşnəsi ilə əlinə qələm alan yazıçı, əsl insan və vətəndaş yanğısı ilə tənha durnanın öz qatarına qoşulmaq həsrətindən, vicdan cəzasından, zurnaçalan behbudların ağır mənəvi çəkisindən, bir tikə çörək arzusundan bəhs edir, ağıl və bəxt haqqında rəvayətlər söyləyir. «İzlər» hekayəsində müharibə ağrıları olduqca canlı verilir, yazıçı qəhrəmanın iztirablarını elə səmimi qələmə alır ki, sanki o özü müharibədə

ayaqlarını itirib. Bu hekayələrdə tarixlə müasirlik xatirələrdə qovuşur, müharibənin faciəsi romantik-fəlsəfi tərzdə ümumiləşdirilir. 60-cı illərin nəsri üçün xarakterik olan lirik-psixoloji üslubda qələmə alınan «İzlər» hekayəsi təcəssüm etdirdiyi insani ağrının səmimiyyəti ilə yadda qalır. Ata həsrəti, müharibədə iki ayağını itirmiş ata haqqında kövrək bir yaddaş üzərində qurulan bu miniatür hekayə «insan həyatda iz qoymalıdır», – qayəsini ifadə edən fəlsəfi sonluqla bitir: «Sahil gedir, izlər gedir... Sahil gedir, izlər itirdi. Ürəklərə neçə-neçə izlər düşüb, ürəklərdən neçə-neçə izlər silinib. Ancaq elə izlər də olur ki, heç vaxt itmir, atamın saldığı yollar kimi, izlər kimi...» Ümumən həyatın mənasını reallıqla xatirə arasında bir hərəkət, kövrək romantik fikir həsb-halı kimi yaşamaq Hüseynbala Mirələmovun hekayələri, yazıçı fəaliyyəti üçün səciyyəvidir. Bu cəhət, məsələn, «Qayıtdı durnalar» hekayəsinin bədii-poetik dəyərini müəyyən edir. Hüseynbala Mirələmov müşahidələri, görüb-götürdüklərindən mənəviyyatında kodlaşan fəlsəfi qənaətləri qələmə aldı. «Zurnaçalan Behbud» hekayəsində cəmiyyətimizdə unudulmaqda, itib-batmaqda olan bir hiss – dostun, tanışın adına hörmət, ailə kultunu qorumaq ideyası ön plana çəkilir. Yazıçı mənəvi dəyərləri qorumağa səsləyir, Talıb kimi gənclərə ailənin, qadın namusunun müqəddəsliyini xatırladır. Tarix göstərir ki, müharibələrin, zəlzələlərin və s. tarixi-təbii fəlakətlərin törətdiyi dağıntıları bər-



*Milli Elmlər Akademiyasının kitabxanasında görüş*

pa etmək mümkündür. Fəqət, mənəvi fəlakətlərin millətə və ümumən insanlığa bəxş etdiyi dağıntıların yarası sağalmır. Hüseynbala Mirələmovun hekayələrində mənəvi aşınmalara qarşı bədii etiraz, əxlaqımızın saflığı və bütövlüyü üçün vətəndaş narahatlığı səciyyəvidir. Kitaba maraqlı müqəddimə yazan redaktorun – şair-publisist Ə.Xələflinin bir fikri diqqətimi çəkdi. O, belə qənaətə gəlir ki, Hüseynbala Mirələmovun qəhrəmanlarının əksəriyyəti sanki elə tənha durnaya bənzəyirlər. Mənə elə gəldi ki, tənha durna əslində yazıçının özüdür, onun içində yaşayan, tükənməz arzuların qatarına doğru qanad çalan həsrətdir. «İzlər» hekayəsində olduğu kimi «Qara xal» hekayəsində də Hüseynbala Mirələmov insanlara fəlakətlər bəxş edən qanlı müharibələrə mənəvi etirazını bildirir. «Qasırğa tez keçdi» hekayəsi psixoloji planda yazılıb. Yazıçı burada mənəvi yaddaşı milli sərvət kimi qorumağa səsləyir. Mənə elə gəlir ki, heç kəs insanın özü qədər onu başa düşə bilməz. Sufilər deyirdilər ki, ən ağır müharibə insanın özü ilə apardığı döyüş, ən böyük qələbə insanın özünə qalib gəlməsidir. Bu mənada yazıçının kitaba yazdığı «Sözə pənah gətirmək haqqa sığınmaqdır» adlı çox müxtəsər ön söz onun bədii-estetik məramını və mövqeyini mənalı açıqlayır.

Biz yazıçı mövqeyinin çətinləşdiyi, sözün urvatdan salındığı bir dövrdə yaşayırıq. Belə bir əyyamda ixtisasca qaz mühəndisi olan bir adamın yazıya-pozu-

ya belə həssaslıq göstərməsi, yazı üçün məsuliyyəti təqdirəlayiqdir. Hüseynbala müəllim poetik obrazını tapmadığı həqiqətləri zorla hekayəyə çevirmir, publisistika janrında ifadə edir. Onun «Amalın işığında» kitabı ədibin publisistika sahəsindəki uğurlarını əks etdirir.

Hüseynbala Mirələmovun bir yazıçı kimi aydın məramı var: həyati həqiqətləri bədii sözün sehrinə çevirərək insanların mənəviyyatına yol tapmaq! Yazıçının «Qayada çiçək» hekayəsinin qəhrəmanı Məftun haqqı nahaqqa dəyişənlərə belə deyir: «İnsanların mənəviyyatına yol tapan kitabı birdəfəlik bağlamaq mümkün deyil».

Yazıçının həqiqət uğrunda, yaddaşımızın və mənəvi bütövlüyümüzün qorunması naminə mübarizə aparan qəhrəmanları bu qayəni həyat amalı kimi yaşayan insanlardır. Hüseynbala Mirələmovun lirik-fəlsəfi hekayələri belə bir fikrə gəlməyə imkan verir ki, «Qayada çiçək» insanların mənəviyyatına yol tapan bir kitab olacaq.



# XƏCALƏTLİ İNSANLAR... SƏDAQƏTLİ HEYVANLAR

***Mən əlli yaşın aşırımında neçənci dəfə «Leyli və Məcnun»u oxuyandan sonra bu nəticəyə gəlmişəm ki, heyvanlar arasında yaşamaq, insanlar arasında yaşamaqdan daha asandır.***

## QURD ULAYANDA SƏADƏT... İT ULAYANDA FƏLAKƏT GƏTİRƏR

Müəyyən zaman kəsimlərində xalqların ürcah olduğu tarixi olayların ağrı-acısı insanların içərisindən keçir, taleyində əks olunur. Və qəribə burasıdır ki, tarix özü bəzən özünü unutduqda, hansısa tarixçinin əli ilə «Tarix» kitabında özünə xəyanət etdikdə insan ağrı-acısı tarixi olayın mənəvi obrazını o xalqın, millətin yaddaşına həkk edir. Bu həqiqəti Azərbaycan ədəbiyyatı tarixinə daxil olan klassik əsərlərin hər biri parlaq surətdə təcəssüm etdirməkdədir. Başqa xalqları bilmirəm, Azərbaycanın tarixi öz varlığını qorumaq baxımından Azərbaycan xalqının mənəvi varlığının büllur aynası olan bədii ədəbiyyata borcludur.

Mən əminəm ki, müəyyən vaxt keçdikdən, Qarabağ hadisələrinin əsl səbəbləri gizli seyflərdən tarixin üzünə çıxdıqdan sonra Qarabağ tarixi «Qarabağnamələr»dən daha əhatəli şəkildə ədəbiyyatda öz əksini tapacaq. Bunun ilkin işartıları artıq görünməkdədir. Belə işartılardan biri əlyazması ilə tanış olduğumuz «Xəcalət» povestidir.

Povest məktəbli qız Didarın «Xəcalət»inin səbəbləri üzərində qurulub. Qarabağdan didərgin düşmüş

Vətənin qızı Didar xəstə ikən ona baş çəkməyə gələn sinif yoldaşlarından yaşadıqları «mənzil»ə görə utanır. Bu «mənzil» Bakıda, Sumqayıtda, Gəncədə və s. yaşayan məcburi köçkün ailələrinin tipik yaşayış yeridir. Didargil tikintisi yarımçıq qalmış, heç bir kommunal şəraiti, adi sanitar xətləri olmayan xəstəxana binasının bir otağında güzəran keçirir, demək olar ki, yaşamır. Qarabağın qayıdacağı, düşmən əsarətindən qurtulacağı zamana doğru günlərini ötürməklə məşğuldurlar.

Yazıçı diqqəti həmin xəcalət zirvəsindən geriyə – bu tipik Qarabağ ailəsini həmin xəcalətə sürükləmiş amansız olaylara yönəldir. Məlum olur ki, cibində xəstə qızına dərman almaq üçün bircə qəpiyi belə olmayan Vətən, əslində qəhrəman bir oğul, vətənpərvər, əyilməz bir şəxsiyyətdir. Dünyalar qədər sevdiyi həyat yoldaşı Fərqanə, qızı Didar, oğlu Qəmxardan ibarət ailəsi ilə soyuq bir binada daldalanan Vətən, taleyi hələ 37-də bədnam sovet ideologiyasının qanlı oyununa düşmüş şərəfli bir ailənin – «qızıllı İsgəndərin» nəvəsidir. Qürbətdə, vətən həsrətli sürgündə doğulduğuna görə Ötərxan kişi oğluna Vətən adı qoyur, Fərqanə vilayətinin şərəfinə unudulmazlıq rəmzi olaraq adı Fərqanə qoyulan deyiklisi ilə ailə qurandan sonra onlara Azərbaycana qayıtmaq qismət olur. Ailə baba ocağını bərpa edir, Qarabağda, Xocalı yaxınlığındakı ev-eşiklərini abad edirlər. Yazıçı Vətən, Fərqanə kimi tutumlu, çoxmənalı adlara uyğun



*Professor Nizaməddin Şəmsizadə «Xəcalət» povestinin müəllifi Hüseynbala Mirələmova «Milli yaddaş» ədəbi milli mükafatını təqdim edərkən*

da uşaqları adlandırır: Didar, yəni gözümün bəbəyi, Qəmxar, yəni qəm sirdaşı!

Ömrünün dar günlərindən birində Vətən, bir zaman Qarabağ əhalisinə yardım göstərən, vəzifəli dostu Muradla rastlaşır.

Povestdəki hadisələrin bir hissəsi həm müəllifin, həm də Muradın dilindən verilir. Əsərin poetik strukturundan, təhkiyənin ikiləşməsindən belə qənaətə gəlmək olar ki, Murad elə müəllifin prototipidir. Yazıçı təhkiyəni yeknəsəqlikdən qurtarmaq üçün sanki özü və Muradın simasında ikiləşir, nəticədə 80–90-cı illərdə Qarabağ dərdi ilə vətəndaş narahatlığı keçirən maraqlı bir dövlət işçisi – Murad surəti formalaşır.

Muradın və Vətənin dilindən söylənən əhvalatlarda daha iki obraz, onların dostları – Mahmudəli və Teymurçin diqqəti cəlb edir.

Povestdə Qarabağ problemi qlobal şəkildə, müəllifin dilindən danışan Muradın real şəxsi müşahidələri və mühakimələri əsasında qoyulur. Murad o zaman Qarabağda – Xankəndində gördüklərinə doğru qiymət verir, onun danışdıqları oxucunu sövq-təbii ilə həmin illərə və olaylara qaytarır.

Yeri gəlmişkən, obyektivlik naminə deyək ki, əsərin bəzi (məsələn, 24–25; 34–44 və s.) səhifələrində publisistik tərzdə verilən siyasi motivlər bədii ümumiləşmə səviyyəsinə qalxmır. Bu da əsərdə müəyyən tendensiyaçılığa səbəb olur.

«Xəcalət» əsərinin əsas bədii çəkisi Vətənin ailəsinin məcburi KÖÇü ilə bağlıdır. Bu, adi köç deyil, ailə sovet dövründə ata yurdunu ikinci dəfə itirməyə məcbur olur. Hər anı ölümlə qarşılanan bu köçdə ailə ilk itkisini verir, sürgünlərdə, qürbət ellərdə can verməyən ana qəfil düşmən gülləsinə ürcah olur. Gecənin zülmət qaranlığında Fərqanəni iki körpə ilə ölümlü yollarla yola salan Vətən anasını dəfn edir.

Bu dəfn mərasimi əsərin maraqlı və ibrətli səhifələrindəndir. Yazıçı bu səhnəni psixoloji cəhətdən uğurla işləyib. Gecənin zülmətində əziz anasını dəfn edən Vətənin iki köməkçisi var: biri atası Ötərxanın ruhu, biri də ən dəyərli mənəvi sərvət kimi qaçhaqaç vaxtı evdən götürülən Seyid Nigarinin «Divan»ı. Vətən anasının meyidi üstündə «Yasin» əvəzinə Seyid Nigarinin Vətən – Qarabağ həsrətli qəzəlini oxuyur. Səhər açılanda Vətən deyəndə ki, anamı atamla birlikdə dəfn etdim, oxucu buna reallıq kimi inanır. Atanın ruhunu belə inandırıcı verməsi müəllifin sənət uğurudur. Vətənin və ailəsinin KÖÇündə rastlaşdığı iki maraqlı obraz xüsusilə diqqətimi cəlb edir. Bunlardan biri çay, ikincisi isə ac canavardır. Çay ailəni mühasirədən xilas edən yeganə yoldur: ay işığı çay işığı ilə birləşib Fərqanəni və iki körpəsini tarixin ən amansız səhifəsi olan Xocalı soyqırımından xilas edir.

Qurd xilaskarlıq rəmzi kimi türk xalqlarının mifik təfəkkürü üçün səciyyəvi obrazdır. Ac canavar və onun insanla «olum-ölüm» mübarizəsinin parlaq bə-



*«Xəcalət» tamaşasından sonra görkəmli yazıçı Çingiz Aytmatov pyesin müəllifi Hüseynbala Mirələmovu təbrik edir*

dii təcəssümünə Amerika yazıçısı Cek Londonun «Həyat eşqi» hekayəsində də rast gəlirik. «Xəcalət» povestinin müəllifi bu obrazdan yeni yöndə istifadə edir. Ağır yaralanıb huşunu itirmiş Vətən canavarı görəndə sevinir, bilir ki, əgər yanında canavar varsa, demək, yaxınlıqda insan yoxdur. Beləliklə, çox rəmzi və obrazlı şəkildə yazıçı insanları (erməniləri!) vəhşi canavardan betər, daha təhlükəli və amansız hesab edir.

Povestin bədii, psixoloji cəhətdən ağır, elə bundan dolayısı da maraqlı səhifələrindən biri – yaralı Vətənin Xocalı soyqırımına məruz qalan adamların donmuş meyitlərini bir-bir yoxladığı səhnədir. Və fikrimizcə, yazıçı yeganə canlı insanın – Vətənin bu amansız faciəyə münasibətini çox obrazlı, konkret və dərin mənalı ifadə edir: «Ona elə gəldi ki, hər tərəfi qan gölündə boğan ölüm onu da xırxalayıb. Küləkdən ölüm qoxusu gəlir, sular ölüm rənginə çalır, yer ölümlə doludur, göydən ölüm yağır, sağdan, soldan – hər tərəfdən ölümün qıcanmış dişləri ona yön tutub. İki ovcu ilə qarı xışmalayıb özünə sarı çəkdi. Bəlkə də, heç dərəcəsini bilmədiyi bir hirs və hikkə ilə torpaqqarışıq qarı keyləşmiş əlləri ilə üzünə, boyunboğazına sürtdü.

Qış günəşinin zəif hərarətindən bir az yumşalmış qar üzünə, gözünə dəydi. Gözündən axan yaşa qarışıb boynunu, boğazını islatdı. Sinəsinə doğru süzülən soyuq damcılar elə bil onun səsini özünə qaytardı. Bayaqdan bəri boğulan Vətənin səs telləri açıldı.

– Ehey, hey!..

Bəlkə də, ancaq özünün eşitdiyi bu səs – sonuncu sədası göyün ənginliklərinə bülənd olmuş qurd ulartısına qarışdı.

«Axır ki, mənim də qurdum uladı» – bu kəlmə də qeyri-ixtiyari ağzından çıxdı».

Yazıçı Vətəni Xocalı soyqırımının şahidi kimi sağ saxlayır. O, meyitlərin içində yeganə nəfəs sahibi kimi Ağdama gətirilir.

«Xəcalət»in bədii-fəlsəfi akkordu bu son ulartıdır. Qurd ulayırsa həyat davam edir, it ulayırsa faciə baş verəcək.

Qoy həmişə Qurdumuz ulasın. Qurdun ulartısı türkün səadətindən xəbər verir. Qarabağda Qurd ulayarsa, çaqqallar qaçıb dağılacaq...

«Xəcalət» povestini Qarabağ mövzusunda yazılmış uğurlu əsərlərdən biri kimi dəyərləndirmək olar.

## DÜNYANI GÖZƏLLƏŞDİRƏN CƏZA

*Yazıçı dostum Hüseynbala Mirələmova açıq məktub*

***Əzizim Hüseynbala!***

Qəlbimin Azərbaycanla bitişən yerində – Qubadakı bağ evimdə, ömrümün kövrək bir anında sənin «Cəza»nı oxudum. Povestin məni vəcdə gətirdi. Sənin canavarlarının qeyri-adi sevgisi məni düz 500 il əvvələ – dahi Məhəmməd Füzulinin «Leyli və Məcnun»una apardı. Ha illah elədimsə bu uzaq düşüncəmdən yaxa qurtara bilmədim. Leylinin atası Məcnunun atasına deyir ki, apar oğlunu müqəddəs Kəbəyə, and içsin, eşq mərəzi canından çıxsın və mən yalnız onda sənin oğluna – müqəvvaya qızımı verərəm. Bundan sonra Məcnun onu real dünya ilə bağlayan bütün zəncirləri qırır, paltarını cırıb üryan olur, səhraya düşür. Füzuli «Məcnun səhraya getdi, yaxud qaçdı» – demir, «Səhraya düşdü» deyir. Səhraya Günəş düşər, Füzuli Məcnunu Günəşə bənzədir. Əslində Məcnun insanlardan üz döndərib heyvanlar aləminə gəlir, insanlar onu başa düşmür, heyvanlar onu anlayır. Qəribədir, Füzulinin Məcnunu insanlar arasından yox, heyvanlar aləmindən təmizlənərək, saflaşaraq haqqın

dərgahına təcrid edir. Və mən əlli yaşın aşırımında neçənci dəfə «Leyli və Məcnun»u oxuyandan sonra bu nəticəyə gəlmişəm ki, heyvanlar arasında yaşamaq, insanlar arasında yaşamaqdan daha asandır.

Sənin insanlara və heyvanlara humanistcəsinə yanaşan canavarların, nəinki insanlığı, hətta məcnunluğu başa düşə bilən canlı varlıqdır. Buna sübut üçün povestdə canavarların sevişdiyi yeri misal gətirməyə məcburam: «Sağlam, totuq və gözəgəlimli Ayçən artıq yetişkənlik dövrünə qədəm qoymuşdu. Ətraf ərazilərdə yaşayan erkək canavarların, demək olar ki, hamısı onu gözaltı eləmişdi. Ancaq Ayçənin boğazının altından sinəsinə qədər qaramtıl zolaq enən Köysərəkdən xoşu gəlirdi. Odur ki, digər erkək canavarları azacıq da olsa, yaxınına buraxmırdı. Etirazına məhəl qoymayanları isə, iti dırnaqları ilə cırmaqlayır, ya da var gücü ilə dişləyirdi. Əlbəttə, bu sərt əlbəyaxa döyüşlərdə ona dov gələnlər də olurdu. Belədə Köysərək dadına çatır, ona hücum edənləri altına basıb gəmirir, dirənənləri al qanına qəltan edib, ölümcül hala salırdı. Bu döyüşlərdə Köysərək özü də rəqibləri tərəfindən xəsarət alırdı – biləyindən və boğazından qan axırdı. Amma yaraları nə qədər ağır olsa da, qürurunu itirmirdi. Məğrur-məğrur Ayçənin yanına qayıdırdı. Ayçən də onun sevgisi uğrunda aldığı yaraları nəvazişlə yalayır, mehribanlıq göstərirdi. Bəzən də uzun, isti, qırmızı dili ilə burnuna, ipək kimi yumşaq tüklü boyun-boğazına sığal çəkirdi. Bu zaman




*«Cəza» povestinin üz qabığı*

Köysərəyin canından xoş bir gizilti keçirdi və o, bütün ağrısını unudurdu...

Özünü hamıdan güclü hesab edən Köysərək bir dəfə, qeyri-ixtiyari, hansı sehrli qüvvənin təsirilə cazibədar Ayçənin üz-gözünü, qulaqlarını, boyun-boğazını yaladı, iti, ağappaq dişləri ilə belini yüngülcə sıxdı və onu qüvvətli qolları ilə qucaqlamağa cəhd göstərdi. Amma Ayçən cəld çevrilərək, onun istəyinə mane oldu. Bu, Köysərəyin qanını bir az da coşdurdu. Ayçəni arxadan qucaqlamaq istədi. Ayçən bu dəfə də onun qucağından çıxmağı bacardı və meşəyə doğru götürüldü. Köysərək onu yaxalamağa çalışdı. Başqa ərazilərdən gələn canavarlar da onların arxasınca düşdülər, ancaq çata bilmədilər və bu qoşa sevgilinin gözdən itdikləri meşəliyə baxa-baxa qaldılar.

Köysərəklə Ayçən isə bir-birini qova-qova, təpələrdən keçə-keçə, aşırımlardan aşa-aşa, qapışa-qapışa, ac-susuz olduqlarını unuda-unuda gəlib sakit, kimsəsiz bir ovalıqda məskən saldılar...»

***Hörmətli dostum!***

«Cəza» povestini yalnız zümrüd meşələri yaşıl tuman kimi əyninə geymiş ağ çalmalı dağların qoynunda dünyaya gəlmiş adam yaza bilərdi. Çünki bu əsərdə «qüdrətdən səngərli, qalalı dağlar»ın (Aşıq Ələsgər) əzəməti, möhtəşəmliyi əbədiləşib. Çünki bulağın insan əməlindən küsüb batmasına arx suyu içənlər yox, dağın döşündən ana südü kimi axıb gələn saf bulaq suyu içənlər duya bilər.

Yadımdadır, gənc vaxtı bir dəfə XX əsrin böyük mütəfəkkiri, ustadım, professor Yaşar Qarayevə şikayət etdim. Dedim ki, oxumaqdan və yazmaqdan gözüm tor görür. Dedi ki, Nizami, get Qubaya və uzun müddət dağlara bax. Belə də etdim. Sənin povestində də dağlar insanları təmizləyir, mərdləşdirir.

Marksistlər (materialistlər!) uzun illər beynimizə yeridiblər ki, insan yaşadığı cəmiyyətin, ictimai münasibətlərin məhsuludur. Mən isə dönə-dönə demişəm, insan yaşadığı cəmiyyətdən çox, doğulduğu təbiətə bənzəyir. Bu povestində hiss etdim ki, sən də beləsən və doğulduğun təbiət üçün nə qədər darıxmısan. Sənin dağlarında böyük (və gözəl!) bir həsrət əbədiləşib. «Cəza» povestinlə sən, XXI əsrin III minilliyin oxucusunu dağ zirvəsinə qaldıra, onun qəlbini dağa döndərə bilmisən. Axı yazıçı üçün bundan böyük uğur nə ola bilər?!

***Cənab Mirələmov!***

Dünya ədəbiyyatında heyvanlara həsr olunmuş, heyvanla insanın münasibətlərini təsvir edən əsərlər çoxdur. Heç uzağa getmirəm, elə sənin dostun, böyük türk yazıçısı, dünya şöhrətli ədib Çingiz Aytmatovun «Əlvida, Gülsarı» povestini yada salıram. Amma sənin canavarların bambaşqadır. Sən onların simasında ülvi məhəbbətin əbədiyyətini, məhəbbətin nəinki cəmiyyəti, hətta təbiəti belə saflaşdırdığını əks etdirməyə nail olmusan. Əlbəttə, gələcəkdə tənqidçilər (elə mən özüm də!) bu əsəri müxtəlif cür yozacaqlar:



*Tamaşadan sonra*

onu ekoloji problemlər qaldıran əsər, mənəvi-əxlaqi problemlər irəli sürən və s. povest kimi izah edəcəklər. Lakin mən belə hesab edirəm ki, gərgin dramatizm zəminində düşünülmüş bu fəlsəfi-psixoloji povest MƏHƏBBƏT haqqında MÜASİR əsərdir.

***Hörmətli Hüseynbala müəllim!***

Siz çox doğru etmisiniz ki, burada MƏHƏBBƏT kimi ali və əbədi, İLAHİ bir hissi ənənəvi olaraq lüt qadın bədəninin fakturasında yox, xilqətin yaratdığı iki qüdrətli varlığın – iki canavarın timsalında təcəssüm etdirmisiniz. Beləliklə də, Siz ədəbiyyatımızda ilk dəfə insana xas ən ali hiss – MƏHƏBBƏT kontekstində ulu Tanrının yaratdıqları arasında ədalətsizcəsinə təyin olunmuş İNSAN və HEYVAN bölgüsünü aradan qaldırmısınız. Sübut etmisiniz ki «Palıdlı» restoranının müdiri Ağaləlә və Tülkü Qasımın simasında əsl heyvan, ağappaq dişi canavar və sinəsi qara zolaqlı əzəmətli yalquzağın simasında heyvanlar əsl insandır. Bu, «Cəza»nın ədəbiyyatımızda novator əsər olduğunu təsdiqləyən başlıca fəlsəfi qayədir.

«Cəza»nın çap olunduğu «Azərbaycan» (2006, №4) jurnalının səhifələrini qara qələmlə dağım-dağım etmişəm. Adam istəyir ki, əsərdən lay-lay səhifələri misal versin. Bu «Açıq məktub»u təkcə sənə yox, təbii ki, həm də (bəlkə də, daha çox) oxuculara yazdığım üçün, bu işi həmin dərgini əlbəəl gəzəcək oxucuların ixtiyarına buraxır və iki məqamı da qeyd etməklə həm fəlsəfi, həm də bədii cəhətdən bu bit-

kin əsər haqqında, bəlkə də, bir az hissiyyatlı dost (və tənqidçi!) fikrimi tamamlamaq istəyirəm.

***Əziz dostum!***

«Cəza» misilsiz poetik təsvirlər povestidir. Bunlar, sadəcə, təsvir deyil, peyzaj prosesidir, təbiətən fəlsəfi-psixoloji dərkdir. Səndə dağa, meşəyə, ağaca, heyvana, bulağa nə qədər böyük, saf və tükənməz məhəbbət var imiş...

Dünyanın böyük filosoflarından olan G.V.Hegel haqqında yazanlar onun dahiliyini fikirdə ardıcıllığı ilə sübut edirlər. Yadındadırmı, bu yaxınlarda Milli Elmlər Akademiyasındakı bir çıxışımda sənin haqqında dedim: Hüseynbala Mirələmov fikrində, əqidəsində, inamında çox dönməz, ardıcıl bir adamdır. Mən belə dönməzliyi sənin «Cəza» povestində bir daha müşahidə etdim. Gördüm ki, sən, cəmiyyətdə baş verən əxlaqi deformasiyalara, xüsusilə onların hamısını cürbəcür çeşiddə doğuran pul, sərvət hərisliyinə necə yüksəkdən, ardıcıl və inadkar bir inamla etiraz edirsən. Tülkü Qasım canavarın balalarının ölümünə heyifsilənmir, hərəsini satıb alacağı yamyaşıl dollarlara heyifsilənir. Bu povestdə yaşıl yaşılı, yəni dollar meşələri yeyib məhv edir. Sərvət hərisi Ağalələ min ilin yadigarı, meşələr şahı, əslində bu povestdə göstərildiyi kimi, milli qürur, vüqar rəmzi palıdı bir imkanlı əclafın əcnəbi (lap olsun yerli!) fahişəsinə üç min dollara satır. Bütün bu cinayətlərin cəzasını təbiət verir: Ağalələ cibində həmin pullar

ailəsi ilə, Tülkü Qasım maşınında sinəsi qara zolaqlı ata canavarın satılıq dərisi ilə sürüşmə nəticəsində restoranqarışıq lilin, torpağın altına gömülürlər. Sürüşmənin yaratdığı təpəcikdə pöhrələri yamyaşıl milli vüqar rəmzi əzəmətli palıd salamat qalır və Azərbaycan təbiətinin, milli-mənəvi varlığımızın, məhəbbətin ölməzlik simvolu kimi əbədiləşir.

Təbiətin cəzası harmoniyanı bərpa edən, dünyanı gözəlləşdirən cəzadır. Bu cəza Allahdan gəlir və nə yaxşı ki, sən bir Allah adamı kimi, belə bir cəza üsulu seçmisən. Əslində, Allah ən kamil gözəllik təcəssümü olan təbiəti öz varlığının əlaməti kimi yaradıb.

***Əziz dostum!***

Povestin bu yerində səndən narazı qaldım. Gərək sən əzəmətli duruşundan, zəhmindən, ulartısından təkcə insanların yox, heyvanların belə tük atdığı qüdrətli ata canavarı Tülkü Qasıma öldürtdürməyəydin. Doğrudur, bir yazıçı kimi sən həyat həqiqətinə də, bədii həqiqətə də sadiq qalmısan. Əgər cəzanı ata canavar versəydi bu məlum sonluq təkrar olunardı. Doğrudur, hələ həyatda tülkü qasımlar canavar oğullara qalib gəlir, onların ailələrini böhtana salır, məhv edirlər. Atalar əbəs deməyib ki, «çaqqal var gödən dağıdır, qurdun adı bədnamdır». Ancaq gərək sən, heç olmasa, ədəbiyyatda buna yol verməyəydin.

Özü də bu, necə insafsız ölümdür: körpə bala canavarın yarısı onu xilas etmək istəyən ata canavarın

ağzında qalır, yarısını güllə aparır. Tülkü Qasımın gülləsinin qurbanı olur?!

***Hörmətli Hüseynbala müəllim!***

Sənin yazıçı məramın çox işıqlı, estetik idealın aydın, nurlu ümidlə doludur. İldırımların gurladığı, güclü leysanın torpağın özünü belə üstündəki əclaflarla birlikdə məhvərindən qopardığı bir gecə qəfəsə salınmış dişi canavar xilas olur, ölməz təbiətə, başı əbədi qarlı dağlara çəkilir və biz əmin oluruq ki, canavar nəsli kəsilməyəcək, bu millətin canavar kimi oğulları torpaqlarımızı işğaldan xilas edəcək, minillik palıd kimi min il bundan əvvəlki ərazilərimiz də bütövləşəcək və əlbəttə ki, dünya SƏRVƏTƏ yox, MƏHƏBBƏTƏ baş əyəcək. Çünki hakimiyyət və sərvət ötəri, məhəbbət isə əbədidir.

***Əziz dostum!***

Mən sənin bu humanist bəşəri qayəni ürəkdən dəstəkləyirəm.



# BİR GECƏ VƏ BÜTÜN ÖMÜR

*İndi biz Azərbaycanın tanınmış yazıçı-dramaturqu Hüseynbala Mirələmovla bir yerdəyik... Mən dostluqda dəqiqliyə, həssaslığa və təmannasız münasibətlərə xüsusi qiymət verən adamam. Bu mənada, Hüseynbala Mirələmovla oxşarlığımız çoxdur. Həmfikir olduğumuza görə tale bizi qovuşdurub. Biz hər bir mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ bilirik... Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.*

**Çingiz AYTMATOV**

## AZMIŞ ŞÜURUN FACİƏSİ

Müasir Azərbaycan nəsri bədii axtarışların intensivliyi ilə diqqəti cəlb edir. Bütün zamanlarda olduğu kimi, XXI əsrin əvvəllərində də nəsr həyat həqiqətlərini daha həssaslıqla təcəssüm etdirməyə səy göstərir. Tarixin təcrübəsi göstərir ki, həmişə əsrlər dəyişəndə ictimai coşqunluq da vüsət alır. Bir qədər fərqli tarixi müstəvidə XX əsrin əvvəllərində baş verənlər XXI əsrin əvvəllərində də az qala təkrarlanır.

XX əsrin əvvəlləri də fikir və düşüncələrdə milli kökə qayıdış, istiqlal mücadilələri dövrü idi. Bu dövrün ədib və şairləri, publisist və mütəfəkkirləri milli intibaha maarifçilik məcrasında gəlib çıxmışdılar. Əsrin ilk illərində ana dili uğrunda aparılan fikir mücadilələri, az keçməmiş, Ana Vətən uğrunda tarixi-siyasi məcraya doğru yön aldı. XXI əsrin əvvəllərində – yaşadığımız günlərdə də Əlifba çevrilişi faktiki olaraq Azərbaycan dilinin işlənmə hüdudlarının genişlənməsi uğrunda mübarizəyə çevrildi. Bir mühüm faktı da qeyd etməliyəm. XX əsrin əvvəlləri ədəbi mühitdə realizm və romantizmin ədəbi cərəyan və bədii yaradıcılıq metodu kimi paralel yaşayıb qarşılıqlı təsir və fəaliyyətdə bulunduğu dövr idi. «Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəbləri bunun



*Ziyalılarımız Çingiz Aytmatovla bir yerdə*

parlaq əyani təzahürləri kimi dəyərləndirilə bilər. XXI əsrin əvvəllərində də, xüsusilə nəsrin axtarışlarında romantik və realist əlamətlərin sintezi müşahidə olunur. Bu sintez daha çox tarixi mövzuların bədii inikasında, milli tale və ziyalı probleminin təcəssümündə özünü büruzə verir. Bu da səbəbsiz deyil.

XX əsrin əvvəllərində böyük Mirzə Cəlil «şüur yoxsulluğu» problemini milli faciə kimi qələmə alırdı. «Danabaş kəndinin əhvalatları» povestində «eşşəy»in itməsi, əslində, zahiri süjetdir: daxili, psixoloji, tragik süjet – Məhəmmədhəsən əmilərin varlığında fəal ictimai insanın, şəxsiyyətin, vətəndaşın itməsi süjetidir» (Yaşar Qarayev).

Yazıçı Hüseynbala Mirələmovun «Bir gecənin sehri» kitabında toplanmış hekayə və povestləri, çevik ictimai həssaslıqla yazılmış publisistik yazıları oxuyanda bir daha əmin oldum ki, XXI əsrin Azərbaycan vətəndaşı «şüur çaşqınlığı» bəlasına düçar olub. Onun əsərlərini çox müxtəsər – belə mənalandırmaq olar: azmış şüurun faciəsi! Ağrı yaddaşının kütləşdiyi yerdə, ziyalıların və ümumən şəxsiyyətin deqradasiyası başlanır. Hüseynbala Mirələmov öz qəhrəmanlarını ekzistensial mühitə daxil edir. Bu, əslində XX əsrin son çərəyinin real mühitidir. Bu mühitdə şəxsiyyət (xüsusilə qadınlar) azadlığa çıxmağa, cəmiyyətin məngənəsindən qurtulmağa can atır. Bu qəhrəmanlar özü ilə cəmiyyət arasındakı bağları qırır, yeni mühit tapa bilmir, nəticədə strukturu qeyri-

müəyyən, naməlum fəzada yaşamağa məcbur olurlar. «Yuxu» hekayəsinin 60-cı illər nəsrinin, «yeni nəsr»in banilərindən olan xalq yazıçısı Anara ithaf olunması təsadüfi deyil. Hüseynbala Mirələmov bu hekayədə orijinal poetik forma tapır, yuxudan, metamorfozdan, yaddaşa qayıtmaq faktorundan istifadə edərək ekzistensial mühit yaradır. Bu hekayədə yazıçı, əslində, öz yaradıcılığı, həm də ümumən çağdaş ədəbiyyat üçün səciyyəvi olan bir suala cavab axtarır: insan həyatının mənası nədir, insan öz varlığında necə yaşayır? Bu təkcə ədəbi yox, əslində əbədi bir sualdır. Bu avtobioqrafik hekayədə Hüseynbala Mirələmov öz qəhrəmanını – görkəmli sənayeçi və yazıçı Ziya müəllimi reallıqdan irreallığa – yuxu aləminə gətirir. Parisdə yüksək mükafat – qızıl medal alıb gəmi ilə vətənə qayıdan Ziya müəllim yuxuya dalır: «Ona elə gəlir ki, uzaqda – suyun üzündə bir pilləkən var. Adamlar bu pilləkənlə üzüyuxarı qalxırlar. Lap yuxarıdakı adam pilləkənin başına çatanda yerini aşağıdakı tuturdu. Ancaq bu vaxt yuxarıdakı yox olurdu. Aşağıdakı üçün bunun fərqi yox idi ki, o yuxarıdakı hara getdi. Havaya uçdu, külək oldu, yağış olub yağdı, buxarlanıb buluda qarışdı...

Ziya müəllim özü, deyəsən, suyun üstündə olanlardan birinin arxasında idi... Yox, bu ki gəmi-restorandır».

Hadisələr yuxuda məhz bu gəmi-restoranda baş verir. Ziya müəllim burada 60-cı illər nəsrinin üç

qəhrəmanı ilə rastlaşır: Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının qəhrəmanı Zaurla, Əkrəm Əylislinin «Kür qırağının meşələri» povestinin qəhrəmanı Qədirlə və özünün «Çimərlikdə» hekayəsinin qəhrəmanı Elbəylə! Onlar gəmi-restoranda bir stol arxasında əyləşib söhbət, daha doğrusu, mübahisə edirlər. Hər obraz öz estetik-poetik mövqeyindən çıxış edib biri digərini ittiham edir. Zaur elə həmin meşşan laqeydliyində qalır, Qədir yenə heyvərə-heyvərə hamını söyüb saplayır, meşşanlığın gənc nümayəndəsi Elbəy hələ də düşdüyü vəziyyəti dərk etməyərək ailəli adamları yük daşıyan heyvana bənzətməkdən çəkinmir. Bu, üç övladını görmək həsrəti ilə Parisdən vətənə qayıdan Ziya müəllimi hiddətləndirir. Bu söhbətin dramatizmini artıran, ona kolorit gətirən bir cəhət də var: bu da xanəndənin dahi Nizaminin qəzəli üstə oxuduğu muğamdır.

Bu surətləri fərqləndirən cəhətlər çoxdur, fəqət, onları birləşdirən bir mühüm cəhət var və əslində, yazıçını məhz o məşğul edir: onların hər üçü hansı zəmanədə yaşamasından asılı olmayaraq patriarxal insanın təkidini həyat prinsipi seçmişlər. Təkcə Qədir yox, Zaur yox, gənc Elbəy də öz içində iddialıdır. Lakin faciə bundadır ki, bu qəhrəmanların heç biri həmin iddianı reallaşdıra bilmir. Odur ki, şüur çaşqınlığı içərisində səhvlərə, faciələrə yol verirlər. «Yuxu» ümid sahili ilə tamamlanır, Ziya müəllimin gəmisi səmimi bir ailənin işığına doğru üzür: «Hələ



*Oxucularının əhatəsində*

dumanlı olsa da, uzaqda olsa da, sahil görünürdü. Adamların üzündə həyat sevinci, yeni günü yaşamaq həvəsi vardı. ...Ziya müəllimə elə gəldi ki, hələ heç kimin görünmədiyi o sahildə çoxlu adamlar var və o adamların arasında Güləzəri də, Fəhmini də, Farizi də, Laləzəri də apaydın görür». Və oxucu inanır ki, yuxu kimi, duman da çəkilib gedəcək, Ziya müəllim günəş işığı ilə dolu o sahildə ayağını doğma torpağa basacaq, öz ailəsi ilə birlikdə ambisiyasız bir insan ömrü, söz əzabını tale yolu seçən bir ziyalı ömrü yaşayacaq.

«Yazıçı həmişə özünü yazır» həqiqəti Hüseynbala Mirələmovun bu kitabına daxil olan əsərlərdə özünü bariz şəkildə doğruldur. «Qatarda» hekayəsində Hüseynbala Mirələmov öz həyatının ən kövrək dövrünü – ali məktəbə qəbul imtahanı verməyə gələn kəndli yeniyetmənin arzularını Həmid obrazında ümumiləşdirməyə nail olub. «Çimərlikdə» hekayəsində, artıq qeyd etdiyimiz kimi, ali məktəbi bitirən Elbəyin taleyində yazıçı bir daha insan həyatının mənası üzərində düşünür. Və amansız bir boşluq taparaq onu psixoloji cəhətdən təhlil edir. Bu hekayədə də yazıçı ümid işığını söndürmür, çimərlikdəki körpəni ümid timsalı kimi təqdim edir.

«Qarınqulu» hekayəsində yazıçı həyatın mənasını qarın otarmaqda görən miskin bir obraz yaradır. Müəllif qarın doyurmaq üçün onun-bunun əlinə baxan Zaminin insani məzmununun sıfıra bərabər olduğunu inandırıcı bədii detallarla açıb göstərir.

Yazıçının dostu Çingiz Tofiqoğluna ithaf etdiyi «Maşallahın paneli» hekayəsi iki bədii müstəvi üzərində qurulub. Burada həm Qarabağ müharibəsi ilə bağlı ölüm, qan, barıt qoxulu real səhnələr, müharibə xofu, həm də qaçqın-didərgin taleyi bir-birini tamamlayır. Elat həyatının koloritli mənzərələrini, Laçının, Kəlbəcərin əsrarəngiz təbiətini yurd sevgisi ilə təsvir edən Hüseynbala Mirələmov bu doğma mövzusunda tarixin ibrət dərslərinə də müraciət edir. 1905-ci il erməni-müsəlman davasında qeyrətli və ağıllı Soltan bəyin tayqulaq Andronikin qoşununu necə tədbirlə qırğına verməsini yada salır. Təkcə bu fakt hekayəyə tarixilik gətirir, yaddaşımızı ayıq saxlamağa, yaddaşı yada təslim etməməyə çağırır.

Hekayə novellavari, gözlənilməz və çoxmənalı, həm də tragik bir sonluqla bitir. Bakı ətrafında çadır qurub ailəsini məşəqqətlə ora toplamış Maşallah hər yerdə iş axtarıb ümidi üzüləndən sonra bir gün Alatavada kəndlisinə rast gəlir. Kəndlisi Maşallaha deyir ki, Yeni Yasamalda qaçqınlar üçün ev tikilir, biz hərəmiz adımızı bir panelin üstünə yazmışıq, həmin panel hara düşsə, o mənzil ad sahibinin olacaq. Maşallah da tələsik gəlib adını bir panelə həkk edir, çadırda it əzabı çəkən ailəni də sevindirir ki, payızda öz evimiz olacaq. Gəlin, hekayənin gözlənilməz finalına nəzər salaq: «Nəhayət, sentyabrın ortalarında binanın tikintisi sona çatdı. Maşallah sübh tezdən bir-bir bloklara girib öz panelini axtarmağa başladı, divarda Maşallah sözünü

oxuyanda nə edəcəyini bilmədi. Əsl möcüzə baş vermişdi: onun adını yazdığı panel liftə düşmüşdü...» Bu, təkcə yazıçının ironiyası deyil, yazıçı onu daha tragik – taleyin ironiyası kimi işləyə və mənalandıra bilmişdir.

Ədibin jurnalist dostu Əli Mahmuda ithaf olunmuş «Hesab çatıb» hekayəsində ali məktəbi bitirib təyinatla işləmək üçün ucqar dağ rayonuna gəlmiş gənc jurnalist Şakirin ilk addımdan necə büdrəməsindən bəhs olunur. Dağ rayonunun həyatını gözəl bilən yazıçı əvvəlcə əsas diqqəti mühitin təsvirinə yönəldir. Təkcə elə mehmanxananın təsviri Şakirin düşdüyü aləm haqqında kədərli təsəvvür yaradır: «Mehmanxana binası çox köhnə idi. Deyilənə görə, burada lap əyyami-qədimdən Rayon Maarif Şöbəsi yerləşirmiş, sonradan poliklinika, bir müddət isə Ziyanvericilərə qarşı Mübarizə İdarəsi, axırda da Rayon Komsomol Komitəsi olub. İndi də əvvəllər müstəntiq işləmiş və «Paxmel Şebi» kimi tanınan Şəbiyarın ixtiyarına verilib. Mehmanxana müdirinin hörmət edib verdiyi «lüks» nömrə isə əvvəllər ayaqyolu kimi istifadə olunurmuş. Sonradan kiçik bir «əməliyyat» nəticəsində «lüks» nömrəyə çevrilib. Bu otaqda bir çarpayı, üstünə qırmızı rənglə «8» rəqəmi yazılmış və çox güman ki, poliklinikadan yadigar qalmış nimdaş tumboçkadan başqa heç nə yox idi. Əslində, bura o qədər darısqal idi ki, heç əlavə şey qoymaq da olmazdı». Bu sətirləri oxuyanda F.M.Dostoyevskinin məşhur «Sreda zayela!» sözləri yada düşür. Yazıçı mehmanxananı



*Düşüncələr qoynunda...*



*Məktəblilərlə görüş*

dağ rayonunun daxili obrazı, onun psixoloji simvolu kimi təsvir edir. Bu, sadəcə, təsvir deyil, psixoloji nəsr üçün səciyyəvi olan təsvir – prosesdir. Və günlərin bir günü Şakir uzaq kolxoza gedəndə onun gecə qayıtmayacağını güman edən tamahkar Şəbiyar jurnalistin otağında kənddən gəlmiş alverçi arvadı yerləşdirir. Gecə yarısı ifrat dərəcədə sərxoş vəziyyətdə qayıdan Şakir həmin «lüks» nömrədə həmin alverçi qadınla dünyanın ən ləzzətli gecəsini keçirir. Hekayənin sonuna nəzər salaq: «Təzə il qabağı bazarda qələbəlik idi. Belinə köhnə, qalın yun şal sarımış, başına qırmızı gülləri olan qara yaylıq və yaylığın da üstündən göy bir əsgi bağlamış qadının satdığı meyvələr diqqətini cəlb etdi. Hər iki gözünün yarıdan çoxunu qırmızı qan örtmüş, əlləri çat-çat olmuş, üzündə dərin şırımlar açılmış qadın, nədənsə, tez əl-ayağa düşdü:

– Bazarda mənim mallarımdan təzə-təri, dadlısı, ləzzətlisi yoxdur...

Səs elə bil Şakirə tanış gəldi. Diksindi. Əvvəlcə bu bədheybət qadından heç nə almamaq qərarına gəldi. Ancaq tez fikrindən daşındı. Qızıləhmədi almalar, mələs,  gülövşə narlar, keçiməməsi üzümlər... O, ağzınacan dolmuş sarı kağız torbaları piştaxtanın üstünə qoyub əlini cibinə saldı, bir dəstə pul çıxarıb hesabı soruşdu.

Qadın astadan, səsi titrəyə-titrəyə, həyəcanla dilləndi:

– Hesab çatıb, başına dönüm.

– Kimdən? Kim verib?

Qadın altmış-altmış beş yaşını sanki unudaraq üzünə zərif və utancaq bir ifadə verərək:

– Hesab yayda... O gecə... Mehmanxanada... – dedi.

...Şakir piştaxtanın üstündəki meyvə dolu kağız torbalara baxmadan, az qala, yüyürə-yüyürə bazardan çıxdı».

Göründüyü kimi, yazıçı son anda psixoloji təzyiqi amansız bir inadla şəxsiyyətin üzərinə salır, ona güzəştdə getmir, insanın məzmununu yeni mənəvi dəyərlərlə sınağa çəkir, mənəvi deformasiyaların köklərini və səbəblərini tapmağa doğru yönəlir.

Mən hələ Hüseynbala Mirələmovun «Gəlinlik paltarı» romanı haqqında «Həqiqətin bədii gücü» məqaləmdə rəssam Yusifcan və Fənayə xəttini təhlil edərkən diqqəti bir məsələyə – yazıçının bədii yaradıcılığın psixologiyasını gözəl bildiyinə yönəltmişdim. Əsərdə yaradıcılığın təhlilini bədii mətnə çevirmək, əsər içərisində əsər, yaradıcılıq proseslərinin çarpazlaşması və çulğalaşması çətin işdir, yazıçıdan bədii nitq zonalarını itirməmək, fərdiləşdirmək bacarığı tələb edir. Böyük bəstəkar və misilsiz tarixi şəxsiyyət Üzeyir Hacıbəylinin və Bülbülün gənc istedadlara qayğısından və yaradıcılıq əlaqələrindən bəhs edən «Bir gecənin sehri» bu baxımdan yazıçının ən uğurlu əsərlərindən biri hesab oluna bilər.

Yazıçı Üzeyir Hacıbəyliyə dediyi: «Sənətkarlar sənətlərinə səhhətlərindən çox fikir verirlər... Fədakarlıq onların xislətindədir...» cümləsi ilə Mircəfər

Bağırova rəğbət yaratmağa nail olur. Üzeyir Hacıbəyli ilə Bülbül arasındakı münasibətlər, hər iki böyük sənətkarın Qara Qarayev və Cövdət Hacıyev kimi varlığında ilahi vergisi olan istedadlara qayğısı hekayədə səmimi realist-romantik boyalarla təsvir olunur.

Hekayəni dolğunlaşdıran, onu oxucuya sevdirən bir cəhət də var: bu, tarixiliklə müasirliyin uğurlu bədii vəhdətidir. Hüseynbala Mirələmov adları Azərbaycan xalqının qəlbində məhəbbətlə yuva bağlamış Üzeyir Hacıbəyli, Bülbül, Qara Qarayev, Cövdət Hacıyev kimi yaradıcı tarixi şəxsiyyətləri öz yazıçı qəlbinin məhəbbət prizmasından keçirərək oxucuya bir daha  sevdirməyə nail olur. Xüsusilə hekayənin gözlənilməz sonluğunda Bülbülün böyük cəsarətlə Mircəfər Bağırovun qarşısında gənc bəstəkarlar Qara Qarayev və Cövdət Hacıyevin qadağan olunmuş «Vətən» operasından Mərdanın ariyasını oxuması onu bir şəxsiyyət kimi ucaldır. Bu, həqiqətən, amansız, qorxunc bir gecənin sehri idi və bu sehr Qara Qarayev və Cövdət Hacıyev kimi gələcəyin korifeylərinə yol açmış oldu. Bu, təkcə sənətin sehri yox, həm də həyatın manasını dərk etmiş kamil insanların möcüzəsi idi.

Bütün zamanlarda real varlığı necə əks etdirmək bədii ədəbiyyatın, sənətin, onun bədii metod və ədəbi cərəyanlarının ən böyük problemi olub. Söz və sənətlə bağlı nəzəri-estetik və poetik prinsiplər bu problemin həllindən nəşət edib. Bəs reallıq özü nədən




*F.Köçərli adına Respublika Uşaq Kitabxanasında görüş*

ibarətdir? Beləliklə, bədii əksetdirmənin üsul və metodlarından əvvəl onun predmetini müəyyən etmək başlıca şərtdir. «Bir gecənin sehri» kitabına daxil olan «Təmizlənmə» və «Coğrafiya çubuğu»nun əsas mövzusu müəllim–məktəb–şagird münasibətləri, ümumiyyətlə, təhsilin milli taleyimizdə rolu problemidir.

«Təmizlənmə» povestinin qəhrəmanı kənd müəllimi Göyüşün bir arzusu var: mal-heyvan satıb düzəltdiyi pulla Bakıya gedib, özünə papaq, arvadı Gözələ bərbəzək, qızı Turaca don, oğlu Qaraya faralı, zəngli velosiped alsın. Borc istəyən qohum-əqrəbanın əlindən Göyüş müəllim bu arzusunu neçə ildir həyata keçirə bilmir. Nəhayət, mal-heyvana, bağ-bostana aludə olub müəllim kimi nüfuzunu itirən Göyüş müəllim Bakıya gəlir. Şəhərə düşən kimi təsadüfən burada əyyaş həyatı keçirən əmisi oğlu – toy müğənnisi Tuqayla rastlaşır.

Tuqay təkidlə onu «Mersedes»ə oturdub pozğun qadınların mənzilinə gətirir. Göyüşün Bakı arzuları bir gecədə puça çıxır. O, səhər univermaqda arvadına paltar almaq üçün əlini cibinə atır və görür ki, pulunu oğurlayıblar, əvəzində kart qoyublar. Dilxor olmuş Göyüş müəllim kəndə qayıdıb gur şəlalənin altında çimib təmizlənir. Yazıçı Göyüşə ibrət dərsi verir, amma oxucu onun tam təmizləndiyinə inana bilmir. Diqqətini və narahatlığını daha çox Göyüşün mühiti üzərində saxlayır: həm kənd mühiti, həm də onun təmasda olduğu şəhər mühiti. Əslində, yazıçının uğu-

ru məhz bu mühitləri psixoloji təhlil etməsindədir. Hər iki müstəvidə Göyüş müəllim – kənddə ziyalının əsas nümayəndəsi son dərəcə miskin görünür. Bəs buna səbəb nədir, niyə təhsil, müəllim bu günə düşüb? XX əsrin əvvəllərindəki milli ziyalıların – Cəlil Məmmədquluzadənin, Məhəmməd Əmin Rəsulzadənin, Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun, Üzeyir Hacıbəylinin və başqalarının dili ilə desək, «kimdir müqəssir, nədədir nicat?» Bu taleyüklü suala XXI əsrin əvvəllərinin Azərbaycan yazıçısı Hüseynbala Mirələmov «Coğrafiya çubuğu» povestində cavab tapmağa çalışır.

«Coğrafiya çubuğu» milli cəmiyyətə sovet gerçəkliyinin nələri gətirdiyi haqqında povestdir. Tipik Azərbaycan kəndi olan Kürəkçi kəndinin məktəb direktoru Bəhmən müəllim həmişə əlində oynatdığı coğrafiya çubuğu ilə, hətta xəritədə olmayan Kürəkçi kəndini də göstərib hirsini-hikkəsini nümayiş etdirəndən sonra «nizam-intizama partbiletimlə cavabdehəm» – deyir. Bəhmən müəllimin üç dayağı var: coğrafiya çubuğu, partbilet, bir də ona bütün xəbərləri gətirən, yaltaqlanıb köpünü alan dərs hissə müdiri Fəzail müəllim! Bəhmən müəllimin coğrafiya çubuğu Xudayar bəyin dəyənəyinə oxşayır. Lakin Bəhmən müəllimin coğrafiya çubuğu, necə deyərlər, artıq bir iş görə, hərəkət edə bilmir, nağıllarda olduğu kimi, bu sehrli çubuq yavaş-yavaş gücdən düşməyə başlayır. Ali məktəbi zorla «3»lə bitirmiş Bəhmən

müəllim bu həqiqəti bütün çılpaqlığı ilə gənc ədəbiyyat müəllimi Xatirə Kürəkçi kəndinin məktəbinə gəldikdən sonra anlayır. Nə Bəhmən müəllimin coğrafiya çubuğu və partbileti, nə Fəzail müəllimin iftiralı qurğuları, nə idman müəllimi zırrama Zakirin şit atmacaları, nə maarif müdiri Fəzail müəllimin didaktik həqiqətləri, nə də Vəsilənin özünü intihara cəhdi ilə bağlı böhtanlar ədəbiyyat müəllimi Xatirəni öz prinsiplərindən döndərə bilmir. Yazıçı onu məhəbbətlə, milli ziyalılığın nümunəsi kimi işləyir. Xatirə yalnız çox ciddi pedaqoq və şəxsiyyət olan Kamil müəllimin saf məhəbbətinə təslim olur.

Povestdə milli taleyimizin, milli istiqlal və dövlətçiliyimizin cəmiyyətdə ziyalı mövqeyindən, ziyalıya münasibətin tarixən doğruluğundan asılılığı ideyası əsaslandırılır.

«Bir gecənin sehri» kitabına Hüseynbala Mirələmovun tizfəhm bir ağılla yazılmış publisistik məqalələr, Rəsul Rzanın poeziyası haqqında fəal tənqidçi təfəkkürü ilə yazılmış silsilə yazıları, böyük istedad və zəhmətlə edilmiş tərcümələri də daxil edilmişdir.

«Rəsul Rza haqqında yeddi nəğmə» çevik tənqid üslubunda yazılmış müstəqil bir monoqrafiya qədər siqlətlidir. Hüseynbala Mirələmov Rəsul Rza yaradıcılığını XX əsr fəlsəfi-intellektual poeziya təmayüllü kontekstində təhlil edir. Onun həmin təmayüldəki banilik rolunu təsdiqləməyə müvəffəq olur.

Kitabın mühüm bir hissəsini təşkil edən tərcümələr gərgin yaradıcı əməyin uğurlu bəhrəsidir. Buraya Varlam Şalamovun altı hekayəsi, Yuri Polyakovun «Homo erektus və yaxud arvadların dəyişdirilməsi» komediyası və Teymur Zülfüqarovun «Kəklikli qəfəs» pyesi daxildir. Ümid edirik ki, bütün bu tərcümələr ədəbi əlaqələrimizin qiymətli faktları və tərcümə mədəniyyətimizin uğurlu nümunələri kimi qəbul olunacaq.

«Bir gecənin sehri» istedadlı yazıçı, ədəbiyyatı həssaslıqla duyan və analitik təfəkkürlə təhlil edən tənqidçi, güclü söz fəhminə malik tərcüməçi kimi Hüseynbala Mirələmovun ədəbi-tarixi mövqeyini təsdiqləyən və möhkəmləndirən sanballı əsərdir. Bu kitab azmış şüurun didərgin taleyini, onun milli faciə olduğunu əks etdirən əsərlər toplusudur.



# ROMAN VƏ QƏHRƏMAN

***Roman janrının ən möhtəşəmi, ədəbiyyatın qocalıq şəklidir. Roman xalq həyatının bədii təcəssümüdür. Xalq romanda özünü görmürsə, deməli, yazıçı mənasız təsvirlərlə məşğul olub. Romanda əhvalat, təsvir və təfərrüat yox, həyatı, cəmiyyəti, tarixi un kimi üyüdən təhkiyə əsasdır. Milli xarakter milli romanın bel sütunudur. Lakin dahiyanə roman bütün bəşəriyyətə məxsus İnsan, Cahan və Zaman münasibətlərini təhlil və izah edir...***

## HƏQİQƏTİN BƏDİİ GÜCÜ

Bütün zamanlarda yaradıcılığın ən çətin problemi həqiqəti demək və yazmaq olub. Təsadüfi deyil ki, «Sözün doğrusunu danışmaq hünərdir!» – deyirdi böyük Mirzə Cəlil. «Şairəm, əsrimizin ayinəsiyəm» – bunu da dahi Mirzə Ələkbər Sabir deyib. Amma belə demək hər yazıçıya nəsib olmayıb. Çünki belə demək və belə olmaq üçün böyük cəsarət tələb olunur. Mən hesab edirəm ki, yüz il, lap beş yüz il əvvəl olduğu kimi indi də bədii əsərin dəyəri onun təcəssüm etdirdiyi həqiqətin miqdarı ilə ölçülür. Bu ədəbiyyatda ən epik forma, mənə görə ədəbiyyatın qocalıq şəkli olan roman janrına daha çox aiddir.

Təsadüfi deyil ki, 1965-ci ildə Leninqradda (indiki Sankt-Peterburq) keçirilən Beynəlxalq Roman Müşavirəsində romanın bir janr kimi qalıb-qalmaması, onun «olum, ya ölüm» məsələsi müzakirə olunanda, sonralar nəzəriyyədə ayaq tutub yeriyən «Romanın taleyi – realizmin taleyidir» (B.Suçkov) düsturu meydana çıxdı. Hər şeyin ədalətli hakimi olan tarixin təcrübəsi sübut etdi ki, nəinki kosmos əsri sayılan XX əsrdə, hətta XXI əsrdə də romana ehtiyac var. Hüseynbala Mirələmovun «Gəlinlik paltarı» (Bakı, «Gənclik», 2004) belə bir ehtiyacdan yaranmış və çox vaxtında



*Ömrün bir anı*

yazılmış maraqlı Azərbaycan romanıdır. Roman dünya müharibələri, inqilabi çevrilişlər, qanlı repressiyalar, siyasi qalmaqallar və əlbəttə, xalqa və millətə istiqlal şəfəqləri bəxş etmiş XX əsri, onunla birlikdə XX minilliyi tarixin panteonuna yola salmış yazıçının müasir Azərbaycan reallıqları üzərində düşüncələrindən yaranıb.

«Gəlinlik paltarı» azad insan ruhunun qüdrəti və faciəsi haqqında romandır. Romanda müəllif qayəsini ifa edən baş qəhrəman jurnalistika fakültəsinin tələbəsi olan 18–19 yaşlarında gənc qız – Fənayədir. Roman iki namuslu gəncin – Fənayənin tələbə yoldaşları Sərraf və Sadiqənin etnoqrafik dəqiqliklə verilmiş toy məclisinin təsviri ilə başlanır. Sadiqənin ülviyyət, sədaqət və səadət olan bəyaz gəlinlik paltarı Fənayəni yoldaşının başına gəlmiş bəlalara, amansız olaylara qaytarır. Roman ənənəvi yaddaşa yayıdış, xatirədə yaşayan tale manerasında yazılıb. Əsərin qəhrəmanı Fənayənin taleyi və faciəsi dörd əsas xətt üzrə açılır: Fənayə və ailəsi – atası Qadir və anası Zinayə; Fənayə və Haris; Fənayə və Fədai (qəzetsatan, Qarabağ əlili); Fənayə və rəssam Yusifcan!

«Gəlinlik paltarı»nın qəhrəmanı Fənayə təkcə öz gözəlliyinin və varlığına sığmayan azad ruhun, sərbəstliyin və coşqun ehtirasların, sadəcə, qurbanı deyil. «Gəlinlik paltarı»nı təkcə şıltaq bir gözəlin macəralarını təsvir edən əyləncəli «bulvar romanı» kimi oxumaq olmaz. Həm roman, həm də onun qəhrəmanı

asan və birmənalı anlaşılmayan mürəkkəb poetik-psixoloji cizgilərə malikdir.

Fənayə bataqlıqda, çürük və antimilli kök üstə bitən günahsız bir çiçəkdir. Romanda ədib diqqəti əvvəlcə bu kökə yönəldir. Məlum olur ki, Fənayənin atası Qadir də, ana babası Yəmən də mənşəcə türk, nənəsi Zinaida isə ermənidir.

«Gəlinlik paltarı»nda Fənayənin faciəsi, əslində, onun damarında axan əxlaqsız toxumalı erməni qanı ilə bağlıdır. Fənayənin babası Yəmən rayonlarda birinci katib işləyib, öz erməni arvadı Zinaidanı Azərbaycan sərvətləri ilə bol-bol bəzəyib-bəsləyib. Onlar yeganə qızlarına Zinaida və Yəmən adlarının ilk altı hərfini birləşdirib Zinayə adı veriblər. Sonralar Qadirə ərə gələn coşqun Zinayə isə böyük qızına öz adı ilə səsləşən Fənayə, oğluna isə Qadirlə səsləşən Nadir adı qoyub. Nadir orta məktəbi bitirib Livana – erməni dayılarının yanına gedib Nodar olub, Fənayə isə hərəsi özü üçün yaşayan ata və anasından, xüsusilə kişilərin yatağını döşəkağı kimi dəyişən anası Zinayənin laqeydliyindən, nəzarətsizliyindən yana ifrat sərbəst, heç nə ilə hesablaşmayan kefinəqulu bir qız kimi yetişib.

Fənayə sovet imperiyası çökdükdən sonra Azərbaycana amansız bir ehtirasla hücum çəkmiş vəhşi kapitalizmin yavrusudur. İki erməni qanlı qadın – Zinayə və Fənayə rəzil bir şirkətdə işləyən Qadirin hesabına yağ içində böyrək kimi bəslənirlər. Lakin

anasından fərqli olaraq, Fənayə ləl-cəvahirat, mal, mülk və pul əsiri deyil. Yazıçının uğuru da bundadır ki, o, Fənayəni gözəlliyini sərvətə satan adi fahişə kimi yaratmır, onun daxilindəki duyğulara güc verir. O, aciz və yazıq bir qız da deyil. Fənayə ali məktəbə öz bilik və bacarığı sayəsində daxil olur. Sanki ali məktəbə girəndən sonra coşqun hiss və ehtiraslarına boy verməyən, onu sıxan və əzən mühitdən, həbsxana adlandırdığı ailəsindən mənən qopub uzaqlaşır. Öz ehtiraslı, narahat ruhuna, dünyaya sığmayan, təkcə bir ölkəyə deyil, bütün kainata meydan oxuyan daxili dünyasına və onun ali təcəssümü olan ideal gözəlliyinə məkan axtarır. Və oxuduğu universitetdə – nə müəllimlər, nə də tələbələr arasında onu tapa bilmir, həmyaşıdları olan dostlarına – Zahirə, Zaura, Faiqə yuxarıdan aşağı baxır, onlara yazığı gəlir. Təkcə Rahibə ilə dostluq edir, çünki Rahibə də bir az ona bənzəyir, azad ruhunun, coşqun qızlıq ehtiraslarının qulu, əsiri idi. Fənayə, eləcə də Rahibə, öz qızğın, təbii ehtiraslarına cavab verən qüdrətli erkək, əsl kişi axtarır. Yaşıdların arasında bunu görmür. Nəhayət, o belə bir insanla, rəfiqəsi Rahibənin əmisi Harislə rastlaşır. Yazıçı Fənayə və Harisin münasibətlərini bütün zərif detalları, incəlikləri ilə səbir və təmkinlə işləyir. Haris Fənayədən 20–25 yaş böyük, fəqət sağlam, yaraşıqlı, başlıcası isə ehtiraslı və cəsarətli kişidir. Haris Azərbaycanda vəhşi, ibtidai və primitiv kapitalizm münasibətlərinin nəbzini tuta bilən həris




*«Gəlinlik paltarı» romanının üz qabığı*

bir adamdır. Təsadüfi deyil ki, yazıçı onun adını Haris qoyur. Yerə gəlmişkən deyək ki, Hüseynbala Mirələmovun qəhrəmanları öz adları ilə xarakterlərini açır, başqa sözlə, onların adları ilə xarakterləri bir-birini tamamlayır. Bu mənada əsərdə, məsələn, Haris – hər şeyə həris, Qadir – hər rəzalətə qadir, Zinayə – zina etmiş, günahkar, Fənayə – fənaya, qəzavü-qədərə uğramış, Sərraf – tükü-tükdən seçən, Sadiqə – sadiq gəlin, Yusifcan – canı gözəl, gözəllik aşiqi, Fədai – fədakar, Vətən də Vətən fədaisi kimi diqqəti cəlb edirlər.

Haris keçmiş hüquq işçisidir, bəd əməllərinə görə bu sahədən uzaqlaşdırılıb. Pisliyinə görə ailəsi – arvadı və yeganə qızı ondan imtina edib. Haris qətiyyən onların taleyi ilə maraqlanmır. Geniş və zəngin evində hər gün bir yüngülbeyin qadınla öz aləmində kef çəkir, həqiqətdə isə əyyaş həyatı keçirir. Tanrısı pul olan bu adam cəmiyyətin arxa planında yaşayır. O, xaricdə işə düzəltmə şirkətinin gözəgörünən rəhbəridir. Əslində, bu şirkət milli namus alveri ilə məşğuldur. O, gözəl qızlardan dəstə toplayıb, əvvəl özü istifadə edir, sonra isə Dubaya göndərib baha qiymətə ərəblərə satır, külli miqdarda pul qazanır. Haris isə bu işdə Fənayənin atası Qadirlə əlbirdir. Əvvəlcə Haris gözəllik ilahəsi olan Fənayəyə vurulur. Qardaşı qızı Rahibənin vasitəsi ilə o, bu həssas şairəyə, əfsanəvi gözəllik pərisinə aşiq olur, ona şövqlə, ehtiyac və ehtiramla, başlıcası isə cəsarət və ehtirasla yanaşır. Fənayə isə, həqiqətən, Harisi sevir, ondakı cəsa-

rət, sağlam kişi bədənindən kükrəyib daşan ehtiras onu məftun edir. Haris bir ilə qədər bu ilahi gözəlliyin əsarətində dünyanın ən incə həzlərini alır. Onlar Harisin evində, Harisə məxsus əfsanəvi «Satır» restoranının xüsusi zallarında, daha çox isə Fənayənin füsunkar gözəlliyini və onun böyük sevgisini tamamlayan lacivərd dənizin sahilində təsvirəgəlməz günlər yaşayırlar.

Lakin bakirəliyini qurban verdiyi elə ilk gecənin səhəri Harisin cah-calallı yataq otağında nəsil yadigarı olan qiymətli üzüyünün qaşının itməsini müəllif mənəvi-fəlsəfi cəhətdən rəmzləşdirir. Romanda bu, qızlıq bakirəliyinin itməsi nişanəsidir. Lakin Fənayə geriyə qayıtmaq üçün doğulmayıb, o, cəmiyyətin bütün əxlaqi kanonlarına, yıpranmış mənəvi adətlərə qarşı gedir, heç bir el tənəsi onun çılğın ehtiraslarının, azad ruhunun qarşısında dayana bilmir.

Haris Fənayəni dərk etmir. Səhərisi gün onu univermağa aparıb təzə bahalı üzük almaq istəyir. Fənayə ikrahla qızıldan üz döndərir və ilk dəfə hiss etməyə başlayır ki, Harisin Tanrısı da, sevgisi də pul, qızıl, maşındır. Elə bu zəmində də sonralar onların arasında konflikt baş verir.

Yazıçı Fənayənin mövqeyini qəbul etməsə də, onu dərin sevgi və məhəbbətlə təsvir edir. Adama elə gəlir ki, müəllif Fənayəyə ən səmimi duyğularını bəxş edib, onun gözəlliyinə aludə ola-ola onu yaradıb. Fənayənin çılpaq dəniz mələyi kimi təbiətlə

vəhdətdə təsvir olunduğu səhnələr romanın ən təsirli, təbii və oxunaqlı səhifələridir...

Haris Fənayəyə istehlakçı münasibət bəsləyir, onu qiymətli bir əşya kimi dəyərləndirir və əzizləyir, hətta onu atası Qadirin əli ilə Dubaya gedəcək yeni dəstəyə qoşmağa hazırlaşır. Bütün bunları duyan Fənayə bir gün Harisi qayanın üstündən itəlib atmaq istəyir, elə bu məqamda bətnindəki körpə içəridən onu təpikləyib mane olur. Fənayənin hamilə olduğunu bilən Haris qəzəblənir, qəzəblə «Mersedes»i magistral yola çıxarır, sərnişin avtobusu ilə toqquşub ağır qəza törədir, özü həlak olur, Fənayə isə həm körpəsini, həm də ana olma şansını əbədi itirir...

Fənayə həyatda öz cütünü tapa bilmir... Romanda qəzetsatan müharibə əlili Fədai elə adına uyğun bir inam və sevgi ilə Fənayəyə vurulur, güllə qarşısında gözünü qırpmayan bu mərd, igid və vətənkeş oğlan günlərin bir günü kövrək bir səmimiyyətlə qəlbini ona açır. Fənayə onu başa düşür, Fədainin sevgidolu gözləri həyatın bütün çətin anlarında onu məhəbbətlə izləyir, fəqət, bu sevgidolu qəmli gözlər Fənayəni geri qaytara bilmir. Çünki Fənayə o gözləri ilk dəfə Harisin evinə bakirəliyini təslim etməyə gedəndə Harisin onun ayağı altına qoyduğu büllür qabla birlikdə basıb çıxarmışdı. Fənayə elə ilk söhbətdə səmimiyyətlə Fədaiyə başa salır ki, o, bir evdə xanım ola bilməz: «Fədai, mən səni başa düşürəm. Ancaq mən arvad ola bilmərəm. Dediyin o gəlinlik paltarı qə-



*Yazıçı dostlarına avtoqraf yazarkən*

fəsdən başqa bir şey deyil. Mənimsə güclü qanadlarım var. Heç bir qəfəs inadımı qıra bilməz» (s.125).

Fənayə başa düşür ki, Fədai ona çox nümunəvi bir ər olacaq, onu tükənməz bir məhəbbətlə sevəcək, fəqət, əvəzində ondan elə bir şeyi alacaq ki, onun dünyada dəyəri, misli-bərabəri yoxdur: bu onun azadlığıdır. Fənayə isə qəfəs üçün doğulmuş bülbül deyildi, hər səhər qanadlarını günəşdə qızdıran dağ qartalı idi. O, bu zirvədən enə bilməzdi, bu zirvəyə onu qeyri-insani ilahi eşqi və sirri-möcüzəsi yalnız Tanrıya bəlli olan ehtirasları qaldırmışdı. Elə ona görə də son anda o, məhz günəşə doğru uçur.

Yazıçı romanda xəyaldan, yuxudan, teyfdən – ümumən fantasmaqoriyadan ustalıqla istifadə edir. Harisin teyfi, Fədainin sərt və nəcib gözləri ölənə qədər Fənayəni rahat buraxmır, onu qarabaqara izləyirlər. Yazıçı sanki azad ruhuna, misilsiz gözəlliyinə vurulduğu Fənayəyə gözlənilən ittihamlardan bəraət qazandırmaq üçün romana rəssam Yusifcan obrazını daxil edir. Yusifcan sevgisiz ailənin üzüntüsünü dibsiz bir boşluq kimi içində həzin-həzin yaşadan istedadlı və görkəmli rəssamdır. Əvvəlcədən deyim ki, «Gəlinlik paltarı»nın Yusifcan və onun sənəti ilə bağlı səhifələrini rəssamlıq sənəti haqqında fəlsəfi traktat kimi oxudum.

Görünür, Hüseynbalanın rəssamlığı da var. Çünki o, bu hisləri sənətşünasdan daha əfzəl peşəkar bir rəssam təxəyyülü ilə qələmə alıb. Həm sənətə, həm

də Fənayəyə münasibəti mənə belə qənaətə gəlməyə imkan verir ki, Hüseynbala Mirələmov Yusifcan obrazında bir az da özünü yaradıb. Amma taleyi ona oxşamasın... Yazıçı əsərin sonunda oxucunu məcbur edir ki, o bu qıza pozğun qadın kimi baxmasın, ona həqiqi sevginin – Yusifcanın aşiq və sənətkar gözləri ilə nəzər salsın.

Deyirlər ki, rus ədəbiyyatı qadınlar ədəbiyyatıdır. Uzun illər ali məktəbdə bu qadınları – dərin hislərə malik nəcib və gözəl Tatyananı («Yevgeni Onegin»), ehtiraslı varlığına sığmayan füsunkar Annanı («Anna Karenina»), bütün varlığı ehtirasdan yoğrulmuş Aksinyanı («Sakit Don»), qızğın təbiəti ilə dünyanı yandıran Anfisanı («Uqryum çay») sevə-sevə tədris etmişəm. Lakin Fənayə bunların heç birinə oxşamır. Onun ehtirasları şərq günəşinə bənzəyir, adamı kül olana qədər yandırıb-yaxır.

Gözəl qadın ən böyük təhlükədir. Məşhur rəssam Yusifcan bir gün tələbələr arasında ucaboylu, zeytun gözlü Fənayəyə vurulur və ömrü boyu ilan gülləyə doğru gedən kimi bu təhlükəyə doğru gedir. Fənayəni itirsə də, o, əslində bütün əsərlərində onunla bağlı duyğularını çəkir.

Başına gələnlərdən dəhşətli iztirablar çəkmiş Fənayə üzülmüş, fəqət, həyat eşqi bir az da olsun öləziməmiş halda İncəsənət Muzeyinə gəlir. Burada açılmış sərgidə Yusifcanın ecaskar rəsmi onu sarsıdır, rəssam fəhmlə onun qayıqdakı qayğısız anlarının

şəklini ədəbiləşdirmişdi. Sənət əsərində əks olunmuş bədii ülviyyətin gücü onu Yusifcanın emalatxanasına gətirir. Fənayənin qəfil gəlişi, bu qəfil görüşün təsviri romanın ən poetik səhifələridir. Bu, artıq, sadəcə, təsvir, bədii nəsr təhkiyəsi deyil, yaşanılmış hislərin Qu nəğməsidir. Fənayə öz gözəl vücudu, ilahi bədəni, başlıcası isə bumbuz həsrətə son qoyan günəşdən qaynar sevgisi ilə Yusifcanın içindəki boşluğu nura qərq edir. Fənayəyə heç nə lazım deyildi, Yusifcandan və onun soyuq emalatxanasından başqa. Fəqət, ilahi bunu da ona çox görür, bu, Yusifcanla Fənayənin son görüşü olur. Yusifcan molbert önündə, əlində fırça, yanında yatmış səadətin – dəniz ilahəsi Fənayənin şəklini çəkərkən, bəlkə də, illər həsrətinə qovuşduğu eşqin sevincinə dözməyib ürəyi partlayır. Fənayənin büllur sinəsinə bir qırmızı gəlinlik paltarıtək qan axıdaraq həyatını sona vardırır.

Yusifcanı itirəndən sonra Fənayə ələk-vələk etdiyi dünyanın boşluğuna, mənasızlığına dözə bilmir. Fənayə özü tükənmir, onun mübarizə apardığı dünya tükənir. O, dünyanın acizliyini görür. Fənayə mübarizə obyektini itirir, qarşısında qüdrət, güc görmədiyi üçün sarsılır. Lakin o bilmirdi ki, elə bu zaman rəfiqəsi Rahibə həmin «Satır» restoranında onun atası Qadirin qucağında bu boş və rəzil dünyadan kam alır. Yazıçı Fənayəyə sonuncu ehtiramını göstərir, onu həmişə arzuladığı ucalığa – Günəşə sarı qaldırır: «Onun ayaqları yerdən üzülürdü. Hiss edirdi ki, in-



*«Ləyaqət» pyesinin müəllifi Lənkəran Dövlət Dram teatrının aktyorları arasında*



*Dostlar arasında*

sanlardan yuxarıya qalxır. Bu günə qədər yaşadığı həyatdan, şəhərdən, xatirələrdən, bir sözlə, hamıdan və hər şeydən uzaqlaşır. Qəribə idi ki, o, qalxdıqca durulur, yüngülləşir, ürəyində, qəlbində bir sevinc hiss edirdi.

...Sanki onun Günəşə uçmaq istəyi bir az tezləşdi. Yerdən, insanlardan çox-çox uzaqlarda olan bakirə, tərtəmiz Günəşə sarı. Özü də bəyaz gəlinlik libasında. Onu gəlinlik paltarında görüb Günəş gözlərini daha geniş açardı» (s.511 və 520). Beləliklə, adi insanlar üçün, yer üçün doğulmamış Fənayənin gəlinlik paltarı yalnız özünə layiq ola bilərdi, oldu da...

Bütün dövrlərdə, bütün əsərlərdə ölüm faciə kimi, faciəvi sonluq kimi mənalandırılıb və qəbul olunub. Hüseynbala Mirələmovun «Gəlinlik paltarı» romanının Azərbaycan ədəbiyyatına gətirdiyi yenilik məhz budur ki, bu əsərdə qəhrəmanın içi azad ruh və azadlıq ehtirası ilə çağlayan gənc və gözəl Fənayənin intiharını faciə kimi qəbul etmirsən. Əksinə, o, özünü məscidin minarəsindən atanda əmin və rahat olursan ki, o qız mütləq ölməli, özü də belə ölməli idi. Damarlarında erməni qanı axan bu füsunkar gözəlin ölüm məqamı, intihar anı kimi məhz qədim və müqəddəs məscidin seçilməsi də rəmzi məna daşıyır; o, bütün günahlarını bağışlatmaq, o dünyada da cənnətdə mələk olub yaşamaq istəyir. Əslində, o, özünü məscidin minarəsindən yerə atmırdı, səhər saat beşdə, dan yerindən çırtlayan, süzülüb qalxan, tuli edən

Günəşə uçmaq istəyirdi. Uçdu və Günəş onu gəlin libasında qəbul etdi. Və yazıçı Hüseynbala Mirələmov azad və ehtiraslı ruhu gəlinlik paltarında Günəşə qovuşmuş Fənayənin parça-parça olmuş cəsədi üzərində dayanıb mükəddər başını göylərə tutaraq belə nəticəyə gəlir: «... İnsanlar danışıqları, gülməkləri, yeriməkləri, yemək və yatmaqları ilə bir-birinə çox oxşayırlar, dəstə-dəstə bir tərəfə gedir, dəstə-dəstə hardansa qayıdırlar, amma onlar heç vaxt bir yerdə deyillər. Hər kəsin öz yolu var. Hər kəs öz yolunu getməli, hər kəs öz ömrünü yaşamalıdır».

Necə ki, «Gəlinlik paltarı» romanının qəhrəmanı Fənayə öz yolunu getdi. Bu yol Günəşə sarı idi. Fənayənin həqiqəti yerdə yox, Günəşdə idi.

Romanda fərd məğlub olsa da, ruh qalib gəlir.



*Oxucularla görüş*

## SOSİAL İFLİCLƏR MƏNGƏNƏSİNDƏ (YAXUD CAHANIN «KÖNÜL DƏFTƏRİ»)

Hər ömrə tale demək olmur. Tale yaşamaq çətin, əzablı, fəqət, şərəfli bir işdir. Romanlar da talelər kimidir. Əslində, hər romanın öz taleyi var. Sovet dönəmində məşhur tənqidçilər «Romanın taleyi – realizmin taleyidir» deyirdilər. Burada danılmaz bir həqiqət var. Çünki roman cəmiyyətin, eləcə də tarixin və şəxsiyyətin durumunu böyük dəqiqlik və ehtirasla əks etdirir. Hüseynbala Mirələmovun «Qırxıncı otaq» («Azərbaycan» jurnalı, 2009, №1) romanında da mən şüuru dolaşmış cəmiyyətə ehtiraslı bir müdaxilə gördüm. Dünyada insan ehtirasından qüdrətli və qiymətli heç nə yoxdur. Alman filosofu Hegel deyib: «Ehtirassız dahiyanə heç nə yaradılmır». «Qırxıncı otaq» amansız bir ehtirasla cəmiyyətin sosial-mənəvi ifliclərini açan, onlara milli şüurla etiraz edən, tarixilik duyğusu ilə yazılan əsərdir. Əsərin qəhrəmanı qocaman hakim Adil Hüseynli təqaüdə çıxdığı gün bütün həyat yolunu və taleyini xatırlayır. Bu xatirələrin ucunda 37-də şərə düşüb Sibirə sürgün olunan atası Həmidin sürgündən göndərdiyi məktub dayanır: «Oğlum, mən sənin adını Adil qoyanda, dünyanı ədalətsizlik bürümüşdü... oğlum, biz laqeydsizliyin, xəyanətin qurbanıyıq. Bilirəm,

körpəsən... Amma böyüyəcəksən. Mənə söz ver ki, heç vaxt ədalətsiz iş tutmayacaqsan. Elə buna görə də adını Adil qoydum, oğlum... Unutma ki, «ədalət koması yıxılan yerdə, rəzalət sarayı ucalır». Sonuncu cümlə romanın bədii-fəlsəfi konsepsiyasını müəyyən edir...

Yazıçı Adili ömrün və taleyin ən həlledici psixoloji vəziyyətində – son qərar məqamında alır və bədii təhkiyənin mərkəzinə gətirərək işığı onun daxili təbəddülatlarına yönəldir. Bu cəhət böyük rus ədibi F.M.Dostoyevskinin romanları üçün xarakterikdir. Adil Hüseynli sonuncu gün işə gəlir, 40 illik hakim həyatının salnaməsini vərəqləyir, təqaüdə çıxıb faciələr və şərəfli işlərlə dolu ömrünün sakit çağlarını yaşamaq barəsində fikirləşir. Adil Hüseynlinin xatirələrinin mənşəyində atası Həmidin həbs olunduğu məqamlar, anası Dilbərlə baş-başa verib yaşadığı soyuq, sərt «xalq düşməni» küləklərinin əsdiyi illər, mahiyyətində göynərtisi kəsilməyən faciəli ailə itkisi olayı əbədiləşən haqq-ədalət uğrunda mübarizələrdə şərəflə yaşanan narahat bir ömür dayanır.

Yazıçı Adil Hüseynlinin psixoloji durumunu həlledici qərar anında – ülviyyətlə rəzalət arasındakı məqamda təqdim edir: «Mən öz insanlıq vəzifəmi yerinə yetirmişəm» – qoca hakim özündən cavan görünən atasının şəklinə baxa-baxa qəlbinin səsini dinləyirdi. «Cəmiyyət həyatında elə vəzifələr var ki, adamdan insanlıq, mədəniyyət və cəsarət tələb edir. Mənəviyyat, insani dəyərlərə hörmət etmək isə bütün peşələr üçün əsas şərtdir. Adamlar həmişə ədalətli cəmiyyətdə

yaşamağı arzu edirlər. Hansı quruluş olursa-olsun, insanın özünü müdafiəsiz hiss etməyi dəhşətdir». Bu sözləri təkcə Adil Hüseynlinin ata ruhu ilə həsb-halı yox, həm də yazıçı qayəsinin ifadəsi kimi oxumaq olar. Romanda konfliktin əsillik və nəsillikcə mənfi qütbünü təmsil edən obrazı, Adil Hüseynlinin gənc həmkarı «qazdan ayıq... həyasız oğlan» Şahin Verdiyev ömrü boyu namusla işləmiş qoca hakimi «Bu işi təkrar istintaqa qaytarsanız yaxşı xeyrimiz olacaq», – deyə rüşvətə məcbur etmək istəyəndə müdrik hakimin qəzəbi şahə qalxır: «Mən, Şahin, Şahin bala, uşaq vaxtı atadan, gəncliyimdə anadan, ahıl çağımda elimdən, obamdan yetim qalmışam. Atasızlığa vərdiş elədim, anasızlığa dözdüm, amma vətənsiz – o dağlarsız yaşaya bilmirəm. Elə bil ki, böyüdükcə daralan bu şəhərdə havam çatışmır... Ona görə də, oğlum, yava-yava danışma. Sən dediyin son məhkəmə isə indi yox, qiyamət günü olacaq!»

Adil Hüseynli həm də ailədən yetim qalmışdı, arvadı, oğlu, qızı metroda terror zamanı həlak olmuşdu.

Hüseynbala Mirələmov həm addan, həm də rəqəm mistifikasiyasından rəmz olaraq istifadə edir. Bu, əsərdə də belədir: ədalətli hakimin adı Adil, onun mübarizə apardığı şirkətin rəhbəri akademik Qaraxanlı, rəqibi «Qara Şahin», haqqını müdafiə etdiyi qadının adı Cahandır.

Bizim nağıllarda qəhrəman otuz doqquz otağı açа-açа gəlib yetişir bütün sirlərin gizləndiyi qırxıncı otağa. Adil Hüseynlinin yazdığı tale kitabının adı «Qırxıncı otağın sirri» adlanır. Adil 40 il hakimlik



*«Xəcalət» tamaşasından sonra*

edir, romanda sirlərin hamısı Şahin Verdiyevin oturduğu 40-cı otaqdan sökülüb açılır. Cinayətkar hakim Şahin Verdiyevin 40-cı otaqda oturması nağıllarda divin gözəl qızın dizinə baş qoyub yatması ilə eyni assosiasiya yaradır. Ədalət uğrunda mübarizə aparan qoca hakim 40-cı otağı dağıtsa da, özü də cəmiyyətdə baş verməkdə olan terrordan yaxa qurtara bilmir...

Adil Hüseynli sürdüyü şərəfli ömrün xatirələrinin iztirablarını yaşayır. Həzzini ötüşdürməyə macal tapmır. Qırx il hakimlik etdiyi «ədalət sarayının kiçik hücrəsinə çəkilib», «zülmün, zalımlığın kökü hardadır, İlahi, göydəmi, yerdəmi?!» kimi düşüncələr içində çırpınarkən ümumi şöbədə işləyən qız ona qadın həbsxanasından göndərilmiş bir məktub verir. Bu, zorən cinayətkara çevrilmiş Cahan Axundovanın «Könül dəftəri» idi. Buradan da roman içində roman başlanır, Adil Hüseynlinin dinc həyat arzusu baş tutmur. Cahanın «Könül dəftəri» ilə yazıçı Hüseynbala Mirələmov gözəl və bədbəxt bir qadının taleyi prizmasından cəmiyyətin sosial-mənəvi ifliclərinə işıq salır, xərçəng kimi insan talelərini öz amansız məngənəsinə almış psixoloji ifliclərin maddi bağlarını, tilsimli düyünlərini inadkar bir inamla açmağa nail olur.

Xoşavaz nənəsinin bayatıları və şipşirin nağılları ilə pərvazlanan, 16 yaşında ali məktəbə qəbul olmuş, dağ döşündə tənha çiçək misallı qənirsiz bir gözəl olan Cahan on səkkiz yaşında ərə gedir. Sən demə, yalnız valideynlərinə nəvə bəxş etmək üçün evlənmiş ər sağalmaz dərdə tutulan bir gənc imiş. Cahan bir

gecənin gəlini olur: «Sonrakı illərim o gecə itirdiklərimin həsrəti, sorağı ilə keçdi və sən demə, bütün ömrüm elə o bir gecəlik gəlinlik həyatıma əsir düşəcəkmiş».

Yazıçı qələmi bu faciəni kədər və vəcdlə qələmə alır:

«Kişi hər gün soyuq odun parçası kimi yatağa uzanan, yaxud büt kimi çarpayının böyründə bitib qalan gəlinin üzünə baxmağa xəcalət çəkirdi. Onun sağlam bədənini istəyincə oxşayıb əzizləməyə, incə belini bərk-bərk qucaqlamağa, püstə dodaqlarından, yupyumru döşlərindən doyunca öpməyə heyi-hərəkəti yox idi. Zifaf gecəsi son dəfə gördüyü gənc, sarışın qadının çılpaq bədənini – mərmər sinəsini, yaraşıqlı ağ baldırlarını, incə belini gözü önünə gətirəndə, alnını soyuq tər basır, əlacsızlıqdan ölmək istəyirdi».

Bu ehtiras və kədərdolu sətirlərdə biz həm xəstə ərin psixoloji vəziyyətini, həm Cahanın gözəlliyini, həm də gənc ailənin taleyini, əslində, talesizliyini vəhdətdə dərk edirik.

Cahanın faciəsi Folklor İnstitutuna işə girib akademik Aşur Qaraxanlıya rast gəldikdən sonra başlayır. Xəstə əri öləndən bir il qara geyinib yas saxladıqdan sonra nənəsinin yanına qayıdır, elmi əməkdaş kimi fəaliyyətə başlayır. Cahan «qeyrətli əsgər» olan vətənpərvər bir insana – Şahmara ərə gedir. Lakin burada da tale onun üzünə gülmür. Şahmar qəhrəmancasına şəhid olur, Cahan bir oğlu ilə yenə də taleyin ümidinə qalır. Cahan – «Sarı gəlin» «yer üzündəki fəlakətlərin sevgisizlikdən baş verdiyindən» bəhs edən ilk kitabını

yazır, «bəxtiyarlıq insanın insana həqiqi sevgisinin nəticəsidir» həqiqətini əsaslandırmağa çalışır...

Aşur Qaraxanlı «Sarı gəlin»ə ilan olub sarılmaq, nəyin bahasına olursa-olsun bu qənirsiz gözələ nail olmaq təşnəsi ilə hiylələr qurur. Fəqət, nə şirin dil, nə də hədə-qorxu, nə mənzil, nə də işlə bağlı təzyiqlər, var-dövlət və vəzifə Aşur Qaraxanlıya kömək ola bilmir, monolit xarakterə, əxlaqi kamilliyə malik «Sarı gəlin» – Cahan xanım bircə oğlunu bağrına basıb şəhid ərinin ruhuna sədaqət nümayiş etdirir. İllər ötsə də, Cahan Aşur Qaraxanlının təqiblərinə, böhtan və əzablarına dözür. Lakin bir gün bu əfi ilan Cahanın hərbi xidmətdə olan oğlu Taleyin nişanlısı Nərgizə tor atanda və bu yolla «Sarı gəlin»ə sahib olmaq istəyəndə Cahanın iyirmi beş illik səbri tükənir, amansız qəzəbə çevrilir. «Qara Xan» adlı ən iri holdinqin sahibi gənc tələbə qıza belə bir mesaj göndərir: «Nərgiz xatun, səni rəfiqənlə barışdırmaq istəyirəm. Şənbə günü «Gənclik» metrosunda «MakDonalds»ın qarşısına gəl. Gəlsən, hədiyyən qəttəzə «Leksus» olacaq. Qərar ver, sonra mənə zəng et»... Cahan son qərarı verir. İllərlə əl çantasında gəzdirdiyi sınıq, əyri güzgü parçasını götürüb orta əsrlərin Avropa qəsrləri kimi dəbdəbəli mülkündə görüşmək üçün Aşur Qaraxanlıya razılıq verir. Lakin sınıq güzgüyə ehtiyac qalmır. Aşur Qaraxanlı öz sarayında Cahana həm də silah kolleksiyasını nümayiş etdirir. Samuray qılıncını əlinə alan gözəl qadın onu iyirmi beş illik bir qəzəblə Aşur Qaraxanlının kürəyinə saplayır...



*Hüseynbala Mirələmov vaxtilə oxuduğu 2№-li orta məktəbdə. Lənkəran şəhəri*

Romanda qadın həbsxanasında baş verənlər, Cahanın başına gələnlər amansız bir sərtliklə təsvir olunur: «Könül dəftəri»ndə az qala bütün dünyanın yaxasından tutub silkələyirdi Cahan», – deyir yazıçı! «Mən ilk dəfə bu həbsxanaya qədəm basanda, onun həyətbacasındakı səliqə-sahmanı görəndə, uşaq vaxtı Xoşavaz nənəmin əllərindən tutub uşaq bağçasına getməyimi xatırladım». Fəqət, həbsxanada o, qadınlarla kişi kimi yatan pırpızsaçlıların rəzil mühiti ilə qarşılaşır, öz əxlaqi, mənəvi dəyanəti ilə həmin mühitə qarşı mübarizə aparır. Yazıçı onu rəğbətlə təsvir edir.

Hüseynbala Mirələmov Cahan obrazında mənəvi təmizliyin ilahi abidəsini, dözüm və dəyanət mələyinin əfsanəvi timsalını yaradır. Özü-özünü ifadə edən Cahan deyir: «Həbsxana nağıl deyildi, sərt, amansız gerçəklikdi... Azadlıqda keçən günlər ömür, buradakı günlər isə müddətdir... Allahın nəzərində bir insanın xoşbəxtliyi naminə canını fəda etməsindən artıq qeyrət yoxdur... Bura yolu ilk dəfə düşən hər kəs öz daxilində itirilmiş «mən»ini axtarır... Azadlığın mücəssəməsi, məncə, ruhdur... Bura bizim azadlığımızı əlimizdən alıb, insanlığımızı, yaşamaq həvəsimizi, geriyə dönmək istəyimizi yox!» Romanın qəhrəmanı Cahan insanın yaşamaq haqqının yalnız Allahın iradəsindən asılı olduğunu təsdiq edən bədii-fəlsəfi obrazdır. Bu gün yer üzündə rəqəmsal dünya ilə qudsal dünya, ruhi aləm arasında mübarizə gedir. Rəqəmsal dünya qloballaşma (kürəsəllik!) adı altında milli adət-ənənələri, dini inancları, milli mədəniyyətləri inteqrasi-

yaya cəlb edib, faktiki olaraq deformasiyaya uğradır. XX əsrin sonlarında milli istiqlalımızla birlikdə kapitalizm də yeni otlaq ərazi axtaran qoyun sürüsü kimi Azərbaycana daxil oldu. Heç kim duymadı ki, sürünün arxasınca nəhəng bir Dinozavr gəlir. Hətta bu Dinozavr da bizə bir az maraqlı, bir az ekzotik təsir bağışladı. Sonra bu heyvərə hər şeyi amansızcasına tapdalayıb əzdi, çeynəyib tüpürdü. Və onun əzdiyi ən dəyərli sərvət insan mənəviyyatı, dərin sevgilər, ülvi duyğular, zərifliklər idi. Hüseynbala Mirələmovun romanı bu Dinozavra qarşı bizim ədəbiyyatın ilk cəsarətli hücumu, insan ruhu uğrunda mübarizənin uğurlu nəticəsi hesab oluna bilər. «Cinayət var, cəza yox. Bəzən ağır cinayətlərə görə «cəza»lar mükafata bənzəyir.

... Bu dünyada, görünür, insanın Həqiqət və Ədalət axtarışı xülyadan başqa bir şey deyil. «Mən ömrüm boyu ədalət axtara-axtara dönüb cinayətkar olacağam», – deyir «Sarı gəlin». Belə də olur. Əslində, roman gözəl bir qadının, sağlam və namuslu bir insanın necə cinayətkara çevrilməsi haqqında səmimiyyətlə yazılmış bir əsərdir.

Yazıçı sərt, real həqiqətlərdən, Xoşavaz nənənin folklor boxçasından, Cahanın «Könül dəftəri»ndən, qocaman hakim Adil Hüseynlinin zəngin xatirələrindən, Cahanın yuxusundan (Nərgizlə bağlı!) bacarıqla istifadə edib bütün bunları reallıq və irreallıq timsalı ədalət axtarışına yönəldir. Bu da əsərə bir polifonizm, bədii-fəlsəfi simfoniya siqləti bəxş edir. Bu yerdə Ç.Aytmatovun «Ağ gəmi», «Dəniz kənarı ilə qaçan alabaş», U.Folknerin «Küy və qəzəb» romanları yada düşür.

Bir gün Adil Hüseynlinin «Qırxıncı otağın sirri» kitabının əlyazması oğurlanır. Lakin sirr də qaynayan bulaq kimidir, haçansa, haradansa vurub üzə çıxır... Və məlum olur ki, Cahanı azadlıqdan məhrum edən, hətta Adil Hüseynliyə rüşvət verməklə ona ömürlük cəza kəsmək istəyən 40-cı otaqda əyləşən Şahin Verdiyev Aşur Qaraxanlının aşnası, Cahanın düşməni Aypara Kazımzadənin oğlu imiş. 40-cı otaqda təmir aparan savadlı ustanın ehtimalları sökülmüş divara hörülən sənədlərdən aydın olur. Ən azı bu aydın olur ki, sən demə, bir çox cinayətlərin başında duran akademik Aşur Qaraxanlı 37-ci ildə Adil Hüseynlinin atası Həmidi (və digər namuslu adamları!) «pantürkist» adı ilə şərləyib Sibirə sürgün etmiş həmin 40-cı otaqda oturan Ali Məhkəmə kollegiyasının üzvü Qaraxan Şubayevin oğlu imiş... Beləliklə, divar uçulur, sirlər açılır, Cahan azad olur. Adil Hüseynli qətlə yetirilir.

Hüseynbala Mirələmovun «Qırxıncı otağ»ı həm də terror əleyhinə yazılmış və insanın yaşamaq haqqını təsdiq edən talelər romanıdır. Əsər kəsişən, çarpazlaşan talelərin xoşbəxt sonluğu ilə bitir. Fəqət, ölümsüz, qurbansız da ötüşmür. «Qırxıncı otaq» kədərli və romantik bir romandır. Əsər müəllifin real müşahidələri əsasında yazılıb. Əsərin bədii-fəlsəfi konsepsiyasını haqqın, ədalətin qələbəsinə inam təşkil edir. Bu insan iradəsi, işığın sönməyəcəyinə inam haqqında psixoloji bir romandır. Həm hakim Adil Hüseynli, həm də məhkum Cahanı yazıçı insanın öz daxilindən ucala bilməsinin rəmzi kimi əbədiləşdirir. Taleyin hökmünü yalnız ulu Tanrı verə bilər.




*Xalq şairi Vaqif Səmədoğlu, Hüseynbala Mirələmov və «Azərbaycan» jurnalının baş redaktoru İntiqam Qasımzadə*




*Xalq yazıçısı Anarla*

## XALQ QƏHRƏMANI BƏY KAMRAN

Qədim və ulu Azərbaycan xalqı həm zaman-zaman adı tarixlərə bəzək olan qəhrəmanlar yetişdirib, həm də öz bayatı və nəğmələrində, nağıl və dastanlarında onların qəhrəmanlıqlarını bədii sözün ecazkar qüdrəti ilə əbədiləşdirərək gələcək nəsillər üçün mühafizə edib. Həmin ənənəni bu gün ədəbiyyatımızda ləyaqətlə qoruyub saxlayan yazıçı Hüseynbala Mirələmov bir sıra əsərlərində, xüsusilə mətbuatda «Dağlarda atılan güllə», kitab halında «Yanan qar» adı ilə çap olunmuş romanında epik bədii səviyyəyə qaldırır. 2007-ci ildə «Kür–Araz Nəşriyyat Evi» tərəfindən çap olunmuş iki kitabdan ibarət «Yanan qar» romanına «Hüseynbala Mirələmov və onun «Yanan qar» romanı» adlı əhatəli və məzmunlu müqəddiməsində akademik Bəkir Nəbiyev romanın ideya xəttini düzgün təyin edərək yazır: «Fikrimizcə, romanın mövzusu müharibə və xalqdır. Müəllif əsərində Qarabağın işğal edilmiş ərazilərində cərəyan edən qanlı hadisələri, erməni quldurlarının dinc azərbaycanlı sakinləri qırmasını, ələ keçirilən əsirlərə olmazın işgəncələr verməsini, şəhər, qəsəbə və kəndlərimizi viran qoymasını, hətta mədəniyyət abidələrini, qəbiristanlıqları dağıtmasını təsvir etməklə erməni işğalçılarının

təsəvvüredilməz vəhşi təbiətini açır». Bu mülahizələri əsərin bədii-fəlsəfi qayəsi haqqında fikir kimi dəyərləndirmək olar.

«Yanan qar» müvəqqəti işğal olunmuş vətən haqqında böyük vətəndaşlıq amalı ilə yazılmış sərt həyat həqiqətlərini əks etdirən realist epik romandır. Müəllifin məqsədi Vətəni işğal olunmuş xalqı düşmənə qarşı qaldırmaq, xalq qəzəbini azadlıq mübarizəsinə yönəltməkdir. Müəllif çox doğru olaraq bu qənaətə gəlir ki, xalq kütlədən ibarət deyil, müharibədən öz cinayətkar məqsədləri üçün istifadə edən, erməni sergeylərin əlində oyuncağa, sonra da qatilə çevrilən Möhnətlərdən ibarət deyil. Mənim yadıma 1975-ci ildə rus şairi Yevgeni Yevtuşenkonun Bakıda sovet ədəbiyyatı günlərində söylədiyi dəyərli bir fikir düşür. O çıxışında dedi: «Народ тот, кто думает, остальное население». Bu, həqiqətən, belədir. Və Hüseynbala Mirələmov bəy Kamranın, onun oğlu Bəxtiyarın, kolxoz sədri Süleymanın, Akif müəllimin, məktəb direktoru Altayın lənkəranlı həkim Mustafanın, Sədəf nənənin, həyat yoldaşı və iki uşağı gözünün qarşısında güllələnmiş, əsirlikdə belə, ləyaqətini qorumuş qənirsiz gözəl Bənövşənin, Ötkəmin, Novruzun, Həsənin simasında Vətəninin azadlığı uğrunda döyüşən xalqın toplum obrazını yaradır. Obrazlı şəkildə şərti olaraq «köhnə dəyirman əhli» adlandıra biləcəyimiz bu insanları bir amal birləşdirir – Azərbaycanı yağı torpağından azad etmək! Onlar bəy Kamranın rəh-




*«Yanan qar» romanının üz qabığı*

bərliyi ilə düşmən əhatəsində köhnə dəyirmana toplaşaraq partizan müharibəsi aparırlar. Hər an ölümlə üz-üzə gələn bu adamların hər biri bir qəhrəmandır. Lakin yazıçı bəy Kamranı xalq qəhrəmanı səviyyəsində işləyib. Hüseynbala Mirələmov sovet ideologiyası və rejiminin 70 ildən artıq sinfi düşmən adlandırıb gecə-gündüz pislədiyi bəyliyin damarında axan qanda, əsil-nəcabətindəki qeyrəti aşkara çıxarır. Bəy Kamran mərd, qorxmaz, vətənpərvər, millətsevər, şəxsiyyətli, yüksək əxlaqlı, gözütox bir qəhrəmandır. O, oğlu Bəxtiyarı da, gənc silahdaşları Ötkəmi, Mustafanı, Səlimoğlunu da belə yetişdirir.

«Yanan qar» əsərində mərkəzi mövqe tutan bəy Kamran adı özündən böyük olan şəxsiyyət və xarakterdir. Müəllif Azərbaycan kişilərinə məxsus ən gözəl və dəyərli xüsusiyyətləri onda təcəssüm etdirir. O, atılmış köhnə dəyirmanı Azərbaycanın azadlığı uğrunda mübarizə qərargahına çevirir. Köhnə dəyirman məğlubedilməz Azərbaycanın bədii-fəlsəfi rəmzidir. Elə buna görə də mən bu romanın adını «Köhnə dəyirman» qoyardım. Həmişə bərəkət, buğda üyüdən bu dəyirman tarixin öz əmri, xalqın varlığından güc alan qəhrəmanların iradəsi və şücaəti ilə indi erməni üyütməli olub...

Müharibələr xalqların həyatından keçən qara bir zolaqdır. O zolağı böyüməyə, millətin üstündə əbədi kölgəyə çevrilməyə qoymaq olmaz. Və bütün müharibələrdə qələbənin əsas səbəbkarlarından biri də

partizanlar olub. Bunu İkinci Cahan savaşının tarixi və təcrübəsi də sübut edir. Bu baxımdan «Yanan qar» romanı böyük tarixi-siyasi və hərbi əhəmiyyətə malikdir. Bu əsər Azərbaycan–Ermənistan arasında gedən Qarabağ müharibəsində partizan hərəkatının strategiya və taktikasını əks etdirən ilk romandır. O, bədii-fəlsəfi yolla bu müharibədə partizan hərəkatının zəruriliyi ideyasını əsaslandırır.

Xalq qəhrəmanı bəy Kamranın bir neçə güc mənbəyi var. Onun birincisi mənsub olduğu bəy nəslidir. Yazıçı onu sovet rejiminə qalib gəlmiş sonuncu bəy kimi təqdim edir. İkincisi budur ki, o, Azərbaycanın tarixi qəhrəmanlıqlarla dolu Laçın bölgəsinin Bəylik kəndində doğulub. Yazıçı onun xarakterində Laçın, Kəlbəcər dağlarının əzəmət və vüqarından gələn xüsusiyyətləri sənətkarlıqla toplayıb.

Keçmişdə marksist filosoflar kütlənin beyninə belə bir fikir yeridirdilər ki, insan ictimai münasibətlərin məhsuludur. F.Engels yazırdı ki, əmək insanı yaratdı, onun nitqini və təfəkkürünü inkişaf etdirdi. Mən bu fikirdəyəm ki, insan yaşadığı cəmiyyətdən çox, doğulduğu təbiətə bənzəyir. Bəy Kamranın gücü başında tac kimi çalmalı Qırxqız dayanan Azərbaycan təbiətidir... Bu təbiət bəy Kamranı yazda dumanı, yayda zümrüd meşələri, payızda məhsulu, qışda adam boyu qarı ilə qoruyur. Əslində, bəy Kamran bu təbiətin ən ali yavrusudur: yaz kimi ətirli, yay kimi hərarətli, payız kimi barlı, qış kimi sərt və vüqarlı!

Bəy Kamran Laçının Bəylik obasının meşəbəyisi idi. Torpaq məsələsi ortaya gələndə o, hər şeyi kənara qoyub, qədim Hun imperatoru Mete kimi raykom katibinin üzünə ağ olur: «Yoldaş katib, vallah bu torpaq məsələsi elədi ki, əstəğfürullah, günahkar Allahın özü də olsa, susmaq mümkün deyil».

«Kişi and içməz» – deyə o, mərkəzin əmrlərini qul kimi yerinə yetirən katibə cavab verir, «şükürlər olsun o Allahımızın birliyinə, dədəmdən, babamdan qalan var-dövləti, o sarı dəmir-dümürü hələ xərcləyib qurtarmamışam ki, el malına əl atam». Bəy Kamranın bu cəsarəti, hər şeyə tüpürüb getməsi katibin də qeyrət damarına neştər kimi sancılır: «Yox, Kamran, sən lap ağın çıxartdın! A kişi, elə indicə torpaqdan, millətdən dəm vururdun. Erməni sənin torpağına göz dikib, sən də aradan çıxmaq istəyirsən?» (s. 46–47).

Bəy Kamranın üçüncü güc mənbəyi, onun erməniyə nifrətini korşalmağa qoymayan yanıb külə dönmüş kəndi, ev-eşiyi, erməni vandallarının əlində sökülüb dağılan gor yurdu, qəbiristanlıq idi. Bu tarixi abidəni, ata-baba məzarlığını söküb, mərmər daşları dağıtmağa gələn erməniləri gənc və igid partizan Bəxtiyar layiqincə cəzalandırır. Bəy Kamranın gücü bundadır ki, o, dövlətdən heç bir kömək, ümid gözləmir. Onun ideologiyası türkün qüdrət mənbəyi olan vətən əxlaqındadır. Bəy Kamran müasir Azərbaycan ədəbiyyatında böyük Azərbaycançı qəhrəman obrazıdır. Türkün bütün tarixi əxlaqi gözəlliklər sərgisidir




*Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsinin tələbələri ilə görüş*

və heç şübhəsiz ki, bəy Kamranın bu sərgidə öz bədii-tarixi yeri var.

«Yanan qar» romanını və bəy Kamran obrazını yaratmaq üçün Azərbaycan xalqının türk əslinə mənsub olmaq, bu polietnik xalqın bütün nümayəndələrinin – talışların, kürdlərin, ləzgilərin, tatların tarixinə, mənəvi aləminə, adət-ənənələrinə, etnogizminə dərindən bələd olmaq lazımdır. Hüseynbala Mirələmov belə universal təfəkkürün, mənəvi-əxlaqi bütövlüyün sahibidir. «Yanan qar» romanı Azərbaycanın Laçın, Kəlbəcər, Qubadlı zonasının bədii xəritəsidir. «Bəy Kamran ehtiyatsızlıq elədi, hər tərəfi yağı tutduğunu unutdu və tez də özünü toparladı, sonra cilovu çəkib atı sakitləşdirdi. Xəyalən Süleymanın gedə biləcəyi yolları fəhm elədi. Uşaq deyil ki, Mıxtökənə qalxa. Axund bulağının yolu da xatalıdı. İki yol qalır. Ya gərək Uzun yoldan Kəlbəcərin Başlıbelinə keçə, ya da Səbətkeçməzdən Alaqayaya adlaya. Ya qismət, Səbətkeçməzə çatım...» (s.72). Yaxud başqa bir təsvir: «Qayabaşı ilə Mehdikənd arasındakı hündür təpəyə çıxdılar. Gündüz buradan Ballıcanı, Xankəndini, Daşbulağı, Keşik kəndi, Əsgəranı, Quşçuları, Həsənabadı, Malıbəylini ovuc içi kimi görmək mümkündü» (s. 342). «Yanan qar» romanını bu yerlərə cikindən-bikinə qədər bələd olan adam yaza bilər. Hüseynbala Mirələmovun romanında bu ərazilərdə qarış-qarış gəzib vuruşmuş döyüşçülərin isti, təzə-tər xatirələri, barıt qoxulu təəssüratları öz əksini tapır.

Bununla belə, romanın ən ciddi qüsuru da təbiət təsviri və insanların hərəkətləri ilə bağlı təəssüratların ifrat dərəcədə çoxluğu ilə bağlıdır. Psixoloji və bədii-məntiqi baxımdan kifayət qədər əsaslandırılmamış təsvir və təfərrüatlar əsərə iki baxımdan xələl gətirir. Birincisi, publisistika bədii ümumiləşməni, ümumən bədiiliyi üstələyir və zəiflədir, ikincisi, yorucu təfərrüat və təsvirlər xarakteri bütöv təsəvvür etməyə imkan vermir. Etiraf etməliyəm ki, böyük ictimai-siyasi, hətta hərbi əhəmiyyət kəsb edən, Azərbaycanın bütöv bir regionunun etnoqrafik-etnogenik koloritini əks etdirən bu əsər, bədii-poetik baxımdan, məsələn, «Cəza» povestindən zəifdir. Romanda boşluqlar, tüfeyli cümlələr və mənasız təfərrüatlar baş alıb gedir...

«Yanan qar» romanında qəbiristanlıq vətənin, əcdadın simvolu, yurd yeri kimi rəmzləşdirilir. Belə də demək olar: qəbiristanlıq romanın ən tutumlu tarixi-psixoloji obrazıdır. Təsadüfi deyil ki, ata-baba qəbiristanlığının erməni goreşənləri tərəfindən dağıdıldığını görən gənc partizan Bəxtiyar hər cür ehtiyat və qorxu hissini unudaraq təkbaşına bir dəstə silahlı erməniyə hücum edir və onları maşınqarışıq sıldırım dərəyə – gedər-gəlməzə göndərir. Yaxud bizim komandir və ağsaqqal Həmid kişi əsir erməni qadını – Vartanuşu qəbiristanlıqda azad edir. Ümumiyyətlə, romanda Azərbaycan xalqının qəhrəmanlığı ilə mənəvi ucalığı, humanizmi vəhdətdə təsvir olunur.

Əksinə, erməni vəhşiliyi amansız bir qəzəblə təsvir edilir. Özünün öldürülməyə gətirildiyini düşünən əsir erməni qadını Vartanuş yaxın olayları belə xatırlayır:

«Düşmən əlində olduğunu unutdu. Hər şey elə bil indicə, Livan ermənilərinin Xoznavarın yuxarı hissəsində tikdirdikləri kilsənin qabağında baş verirdi: Kor Tiqran anasının döşünü əmən körpəni süngüyə keçirib başı üstündə yelləyir. Daşnakların komandir adlandırdıqları Qurqen Falçıyan dünyaya gəlməyə macal tapmayan körpəni avtomatın qundağı ilə anasının bətnində qətlə yetirir. Eçmiədzindən gəlmiş saqqallı cavan keşiş qaynayan samovarı ağbirçək qarının kürəyinə şələlətdirir: «Ay arvad, səni bağışlayırıq əl açıb köməyə çağırdığın Allahına, qaç canını qurtar», – deyir. Gəlin və qızların paltarları gözləri qan çanağına dönmüş dığaların əlində şiltə-şiltə olur. Əlləri, qolları bağlı oğlanları sıraya düzüb ən yaxşı nişançı müəyyənləşdirilir, qalibə doqquz, on yaşlı qızları hədiyyə verirlər» (s. 268–269).

Bu azərbaycanlılar tərəfindən humanistcəsinə, heç bir təmənna güdülmədən üç övladının yanına buraxılan erməni gəlini Vartanuşun gördükləridir. Yazıçı onun bizim millətin erməni əsirinə, qadına və anaya münasibətimizlə adına heç vəchlə xalq, millət deyilməsi mümkün olmayan bir toplumun amansız, antiinsani vəhşiliklərini qarşılaşdırır. Gənc keşişin hərəkəti erməni dininin antihumanist mahiyyətini, vahid Allaha olan antibəşəri xislətini açıb göstərir.




*Lənkəran Dövlət Universitetinin tələbələri Hüseynbala Mirələmovun əsərlərini sevə-sevə oxuyurlar*

Bəy Kamran və onun «dəyirmançıları» belə bir antibəşəri zülmə qarşı vuruşur və əslində, onun mübarizədə güc mənbələrindən biri insanlığı təhqir edən erməni zülmünə qarşı qəzəbdir. Bu qəzəbdə haqqın, ədalətin təntənəsinə dönməz bir inam ifadə olunur. Bu roman Azərbaycan xalqının düçar edildiyi bu ədalətsiz müharibədə qalib gələcəyinə, tarixi ədalətin bərpa olunacağına böyük inamla yazılıb. Oxucu əsərdən bu inamın işığı ilə ayrılır. Roman bitməyib, çünki müharibə də bitməyib...

Hüseynbala Mirələmov xarakterin psixoloji durumunu bəzən bir cümlə ilə ifadə edir. Ermənilərə əsir düşmüş, oğlu Bəhruz əlindən alınaraq, qollarının bazu sümükləri Yerevan klinikasında çıxarılıb Fransaya daşnak erməninin avtoqəzada qolları sınmış oğluna transplantasiya olunan igid kolxoz sədri Süleyman düşünür: «Ovulan torpaq kimi ümidi də ovum-ovum olub azalırdı» (s. 19). Bir neçə maraqlı fikri və o yerlərin kaloritini, danışıq dilini səciyyələndirən bəzi sözləri də misal verməyə ehtiyac duyuram. Məsələn:

«Bəy dağlara tərəf baxıb dedi:

– Bilirsən, qardaşoğlu, dağlar Tanrının bizim üçün yaratdığı saysız-hesabsız möcüzə sirlərdən biridir. Allah yer üçün, insanlar üçün darıxanda dağların qonağı olur. Bilir ki, onlardan təmiz, onlardan uca, müqəddəs heç nə yaratmayıb» (s. 341).

Deməli, uca Dağlar Tanrı məkanıdır. Yaxud «erməni gecələr arvadını oyatmasa, təkbaşına bayıra çı-

xa bilməz» (s. 299). «Bir sübh, bir də toran vaxtı gələn qorxu ömür boyu candan çıxmaz» (s. 290). «İnsan üçün işin çətini qərara gəlməkdi» (s. 289). Bəzi sözləri misal gətirək: «mağdur», «müvəra», «gahgir», «qəzər». Belə sözlər romanın üslubuna kolorit gətirir. Danışan adamın etnik və coğrafi mənsubiyyəti haqqında real təsəvvür yaradır.

Yeri gəlmişkən qeyd edim ki, Hüseynbala Mirələmovun «Yanan qar» romanı görüntülü nəsrin yaxşı bir nümunəsidir, əhvalatlar canlı təsvir olunur, oxucu özünü baş verən hadisələrin içində hiss edir. Bu baxımdan roman əsasında ikiseriyalı bədii film çəkmək olar və bu olduqca vacibdir.

İnanırıq ki, «Yanan qar»ın işığı Azərbaycan xalqının taleyində milli azadlıq məşəlinə çevriləcək, yaddaşlarda və qəlblərdəki laqeydlik buzunu əridəcək.

Yaddaşın müxtəlif çalarları var: gen yaddaşı, qan yaddaşı, din yaddaşı, zaman yaddaşı, tarixi yaddaş. Yaddaş mill-mənəvi varlığın ən böyük ifadəsi, onun rəmzidir. Bir də var xalqın əvəzsiz sərvəti olan Ədəbiyyatı hərəkətə gətirən yaddaş. Onun adı belədir: **AĞRI YADDAŞI!**

## YADDAŞIN QƏTLİ

Dünyada ən böyük işğal YAD-ın YADDAŞ üzərində hökmranlığından başlanır. Tarixən milli istiqlalımıza qoyulan ilk sərhəd dirəyi yad ideologiyanın yaddaşımıza vurduğu ilk zərbədən növbə alır.

Dünyada ilk böyük qadağa – məşhur Çin səddi türklərə qarşı çəkilib. Elə o zamandan da gücümüz, qüdrətimizlə bərabər, düşmənlərimiz də artıb, böyüyüb.

Türk yaddaşının qətli, bəlkə də, Roma Papasının başladığı, gözəl alman qızının bütün Avropanı diz çökdürmüş böyük Hun imperatoru Attilaya verdiyi zəhərdən başlandı. Hiyləgər Avropa diplomatiyasına aldanan qüdrətli Əmir Teymur bütün Avropanı lərzəyə gətirən İldırım Bayəzidin başını kəsdi və peşman olub özü də müəmmalı surətdə öldü. Bu, adi baş deyildi. Türkün tarixi yaddaşı, qəhrəmanlıq tacı idi. Azərbaycan–türk tarixindən yaddaşın qətlinə aid çox-çox belə misallar gətirmək olar. Belə tragik tarixi olaylardan bir ibrətlisini də yazıçı Hüseynbala Mirələmov «Güllələnmiş heykəllərin fəryadı» ədəbi-fəlsəfi essesində vətəndaş qəlbinin ağrısı ilə qələmə alıb.

Həmin əsər əsasında çəkilən televiziya filmində belə bir epizod var: azğınlaşmış, bəşəri normaları ayaqlayan, milli ləyaqətini itirən erməni, ecazkar musiqisi ilə dünyanı fəth edən Üzeyir bəyin Şuşadakı heykəli-




*Hüseynbala Mirələmov  mükafat alarkən*

ni güllə ilə vurub. Heykəlin başından qan açılıb, torpağa yol alıb. Mən filmin müzakirəsində bu epizodu xatırladaraq dedim: «Bu, bizim yaddaşımızın qan izidir. Bu qan ürəyimizdə iz saldı». Yaddaşımızın qan izi biz özümüzük: Azərbaycan torpağında yaşayan hər bir vətəndaşdır. Azərbaycanda düşünən beyinlərə tuşlanan silahların tətiyində hələ də yad barmaqları oynamaqdadır. Məncə, Hüseynbala Mirələmovun əsəri bizə və gələcək nəsillərə məhz bu həqiqəti çatdırmaq istəyir və yazıçı buna uğurla nail olur.

Bu gün Xalq Maarifi Muzeyinin ərazisində millətə göz dağı kimi qoyulan güllələnən heykəllər – Xurşidbanu Natəvan, Üzeyir bəy və Bülbül qeyrətli yazıçı-vətəndaş Hüseynbala Mirələmovu dağ çayı kimi kükrəyib, dərin dəryalara dalmağa vadar edib. Onun narahat təxəyyülü güllələnmiş yaddaşımızın qan izi ilə XIX əsrin olaylarına, işğal tariximizin möhkəm düyünlərinə yol alıb. Nəticədə, tarixiliklə müasirliyi özündə orqanik şəkildə ehtiva edən, qayəsi gələcəyə yönələn mükəmməl bir bədii-fəlsəfi esse yaranıb.

Esse başdan-başa bu günə və gələcəyə yönələn suallarla doludur. Bunlar taleyüklü suallardır. Əslində sual deyil, qupquru quruyub nidaya dönən həqiqətlərdir.

Cavabı özündə olan bu fəlsəfi suallarda «sinəsinə yağılar tikan əkmiş», «özü ilə birgə arzuları da Daşa dönmüş gözəlin» – Natəvanın fəryadı var:

*Baxın bu Natəvan zarə, günü baxtım kimi qarə,*
*Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.*

Hüseynbala Mirələmovun essesi, onun öz sözləri ilə desək, «acı, zəqqum həqiqətlərin şirin tamından», Əsir Şuşa dağlarının pıçıltısından yaranıb.

Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» essesinin əsas qayəsi vətən əxlaqı zəminində milli birlik ideyasıdır.

Güllələnmiş Heykəl – Natəvan deyir: «Zəkamız, istedadımız, ağlımız dünyaya meydan oxuyur. İşığımız əsrləri, zamanları doğrayıb keçir. Ərlər, ərənlər təkbətək vuruş meydanına atılır, ağzından qılıncla doğrasan da gözünü qırpmır, ödünü yemir. Di gəl ki, bir-biri ilə dil tapa bilmirlər. Məmləkətin bu başı ilə o başı bir-birini didməyə fürsət gəzir. Az qala bu didişmə şəhərbəşəhər, kəndbəkənd, küçəbəküçə, nəsilbənəsil çözələnib getsin... Mənim babamın da vaxtında belə idi». Bu mülahizələrdə həm də Azərbaycan xalqının qüdrətinə tarixi inam ifadə olunub.

Fikrimcə, əsərin qüdrətli qəhrəmanlarından biri həsrətdir – əsir torpağın həsrəti. Müəllif bu həsrəti «Şuşa daş qanını, torpaq canını dişinə tutub gözləyir» – deyə Şuşa həsrəti kimi ümumiləşdirir.

Essenin ən maraqlı səhifələri iki həsrətli ağ göyərçin kimi rəmzləşdirilən, qeyrət və ləyaqət timsalı iki bacının – Ağabəyim ağa, Gövhər ağanın taleləri ilə bağlı həqiqət və əfsanələrdir. Qarabağda yaddaş və intiqama çağırış simvolu kimi məscidləşən Gövhər ağanın ruhu deyir: «Mən tarixin çox məşəqqətlərini görmüşəm. Atam İbrahim xanın xanimanı, qapısında çörək verdiyi erməni əsilli Məlik Cümşüdün fitvası ilə dağıl-

dı. Onun bizə düşmənçiliyi sayəsində və Rusiya hökumətinə quyruq bulaması nəticəsində mayor Lisanoviç Xan bağı yaxınlığında ailəmizdən və yaxınımızdan 17 nəfəri güllələdi, qəddarcasına qanına qəltan elədi».

Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» azərbaycançılıq ruhunun bədii-fəlsəfi təcəssümüdür. «Keçmişin də, bu günün də, gələcəyin də bir böyük həqiqəti var: Yalnız vahid və Böyük Azərbaycan öz qüdrətini təsdiq edə bilər» – bu, heykələ dönmüş Vaqifin səsidir.

«Unutqanlıqdan gələn bəlanı yaddan çıxartmağa haqqımız yox idi. Mən sizə əmanət vermişdim «Pənahabadı». Əmanətə xəyanət olmaz. Qaytarın əmanətimi!» – bu haqlı tələbi Pənahəli xanın ruhu irəli sürür.

Müəllif tarixi həqiqətlərin dili ilə müasir dərdlərimizə, faciələrimizə nurlu bir işıq salır. İnad, inam və cəsarətlə sübut edir ki, faciələrimizin bir səbəbi unutqanlıqdan doğan milli-mənəvi laqeydliyimizdirsə, ikinci daha təhlükəli, amansız və məğlub edə bilmədiyimiz mənəm-mənəmlik iddiasıdır. Molla Pənah Vaqif Pənahəli xanın ruhuna ehtiramla deyir: «Tələsmə xan, tədbirli ol. İddia, mənəm-mənəmlik adlı bir qara ilan sürünür içimizdə, gərək əvvəlcə onu boğaq. Ağıl və tədbir üstün silahdır. Şəhid məzarları ilə laləzarlığa bürünən məmləkətin hüzn və kədər içində oğul dağı sinəsini parçalayan, bu ağrıdan zarıyan anaların fəryadı bunu deyir. Düşmən ağılla çökdürülməlidir. Ağlın uçurmadığı sədd yoxdur. İndi qoy hər kəs özü düşünsün, qərar çıxarsın!



*Hüseynbala Mirələmov uşaqlıq dostu, millət vəkili Hadı Rəcəbli ilə*

Əlimi daş ətəyə sürtürəm, daş yaranın ağrısına, qəlpə yerinə alın qoyuram. Əllərimi dolandırıb, daş saqqala sığal çəkərəm. Saqqaldan süzülən göz yaşı əlimi isladır». Beləliklə, M.P.Vaqiflə Hüseynbala Mirələmov – tarixlə müasirlik birləşir. Daş heykəl canlı insan hərarəti verir. Bizim daşlarımız da diridir, çünki onlar yaddaşımızın heykəlləridir. Əslində, YADDAŞ sözündəki YAD ağıl, zəka, təfəkkür (məsələn, yada salmaq), DAŞ isə onun əbədiliyi, dönməzliyi deməkdir. Orxon-Yenisey kitabələri, Qobustan qayaları kimi güllələnən bu heykəllər də düşüncəmizin, ruhumuzun, zəkamızın daşda əbədiləşən abidələridir. Daş olmasaydı, yaddaş da olmazdı.

Dünyanın bütün dillərində insana doğma olan ən böyük söz AZADLIQ kəlməsidir. Ən böyük azadlıq şüurun, təfəkkürün azadlığıdır. Təfəkkür azad olmasa, cəmiyyət azad ola bilməz. Azadlıq isə büllur vazada verilmir, onu mübarizədə qan töküb almaq olar. Bu gün bizim nəinki özümüzün, daha öncə torpağımızın azadlığa  ehtiyacı var. Biz III minilliyə əsir torpağın övladları kimi daxil olduq. Torpağı əsir olan xalq xoşbəxt ola bilməz. Hüseynbala Mirələmov Əsir torpağın yazıçısıdır. Ona görə onun əsərlərində, o cümlədən barəsində söz gedən «Güllələnmiş heykəllərin fəryadı» essesində əsir torpağın fəryadı həssaslıqla ön plana çəkilib. «Göydən daş yağacaq. Bu daşlar yağının başına töküləcək. Amma təkcə yağıların başına yağmayacaq, Qarabağın adı ilə alver edib, qumara qurşananların, Şuşanı yağı ayağına verənlərin, nankorların,

mənsəb ehtirası ilə alışıb-yananların, hərislikdən gözünü qan örtən naxələflərin hamısının başına yağacaq bu daşlar. Daş heykəllər göyə qalxıb, abidələr pərvazlanıb. Göy üzünü bulud kimi tutan daşlar məqam gözləyir yağmağa».

Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» əsərinin bədii-estetik pafosunu Azərbaycanın gələcəyinə, bütöv Azərbaycan istiqlalının bərqərar olacağına yazıçı və əsl vətəndaş inamı müəyyən edir.

Məncə, əsərin ədəbi-tarixi baxımdan dəyəri gənc nəsillərə bu inamı təlqin edə bilməsindədir. Hüseynbala Mirələmov xalqın içindən, məlum ifadə ilə desək, həyatın dibindən gələn adamdır. Ünsiyyət bağladığımız, dostluq etdiyimiz müddət ərzində mən onu müdrik düşüncə sahibi, şəxsi və el ləyaqətini uca tutan bütöv şəxsiyyət kimi tanımışam. O, öz xalqının qürur və ləyaqəti ilə fəxr edən, xalqa məxsus nəcib hisləri həssaslıqla müşahidə edib, milli-mənəvi dəyər kimi, bədii fikrin mərkəzinə gətirən yazıçıdır. Buna inam yaratmaq naminə əsərdən təkcə bir cümləni verməklə kifayətlənirəm: «Nənələr babalara baxanda yaşmandıqları kimi, dağlara da baxanda həyalanırdılar».

Abır-həyanın, qürur və ləyaqətin ən ucuz qiymətə hərraca qoyulduğu, mənəvi deformasiyaların həyat tərzi diqtə etdiyi cəmiyyətdə bu cümlə bahar şimşəyi kimi gözəl görünür.

Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» essesi yaddaşımızın qətlinə yazılan nikbin elegiya, bir oyanış uvertürasıdır.

## TƏNQİDİN MEYARI – MƏNƏVİ TƏMİZLİK

Mətbuat ən böyük milli sənətdir, millətin pasportudur. Biz millətimizin dünəni haqqında həqiqətləri YAZIDAN oxuyub öyrənirik. Azərbaycanda «Yazıya pozu yoxdur» misalı və bir də «Əlyazmaları heç vaxt yanmır» deyimi var. Yazıya belə ehtiram təkcə Azərbaycanda yox, ümumən Türk–İslam Şərqində ən böyük, ən müqəddəs YAZI olan «Quran»a ilahi sitayişdən gəlir.

Yazı əlifbanın əyani şəkli, əlifba xalqın kodlaşmış Yaddaşıdır. Yazı YADDAŞI – söz vasitəsilə gələcəyə göndərmək üçün yaranıb. Təbii ki, bu halda söhbət yalnız ziyalı qələmi ilə, vətəndaş zehnindən və qəlbindən gələn, yüksək mənəvi niyyətlə yazılan yazılardan gedir.

Təəssüf ki, gələcək nəsillər bəzi qəzetləri oxuyub bizim bir millət kimi, kimliyimiz haqqında həqiqət əvəzinə hərzəvü-hədyanlarla rastlaşacaqlar.

Tələbə yoldaşım və vicdanlı qələm əhli Aqil Abbasın redaktoru olduğu «Ədalət» qəzetinin «Alatoran» və « Körpü» ədəbi əlavələrində gedən «şeir» və «tənqidlər» belə təəssüfedici qənaətə xeyli imkan verir...

Azərbaycan cəmiyyətində, hətta ən diletant oxucular arasında belə, heç bir reytinqi olmayan «Reytinq» qəzeti 9 fevral 2003-cü il tarixli sayında Seymur Baycan (?!)



*Seçicilərlə görüş*

adlı birisinin «Hüseynbala Mirələmov və Yazıçılar Birliyinin «Xəcaləti» adlı cızmaqarısını dərc edib.

Kimliyini bilmədiyim (hər halda, ədəbi aləm belə imza tanımır) üçün ona necə müraciət etməkdə də çətinlik çəkirəm: cənab bəy, müəllim, yoxsa...?! Beləliklə, bu adam həddindən artıq ucuz bir manevr edərək, guya Hüseynbala Mirələmovun «Xəcalət» povestində işlənmiş «Pissant» sözünün ucundan tutub, yazıdan göründüyü kimi, povesti oxumadan, yaxud ən azı onu başa düşmədən, bir sıra əcaib «həqiqətlər» deyir, əsl şər və böhtan toru qurmağa çalışır. Ədəbi məsuliyyətsizliyin bariz nümunəsi olan bu yazıda onu yazan adam sırf məlumatsızlıq üzündən iki yalan danışır: birincisi, o bilmir ki, YADDAŞ milli mükafatı (Ədəbi yox!) Yazıçılar Birliyinin deyil, Bədii Ədəbiyyatı Təbliğ Bürosunun nəzdində bir qrup qeyrətli ziyalının, ədib və şairin təsis etdiyi, Qarabağ mövzusunda yazılmış və milli-mənəvi yaddaşı oyadan ən yaxşı bədii əsərlərə verilən mükafatdır. Mən və digər əlaqədar adamlar bunu bir neçə müsahibəmizdə demişik.

İndi də iri hərflərlə yazıram: YADDAŞ Milli Mükafatını Yazıçılar Birliyi vermir, cənablar!

İkincisi, bu adamın yazısında deyildiyi kimi, zəhmətkeş və gözəl tənqidçimiz V.Yusifli «Əməkdar incəsənət xadimi» deyil, ona «Əməkdar mədəniyyət işçisi» adı verilib.

Bu adamın yazısında Hüseynbala Mirələmovun «Xəcalət» povestinə münasibət də belədir.

Qarabağ mövzusunda müvafiq mükafatlar almış üç əsərə – Hüseynbala Mirələmovun «Xəcalət» povestinə, Vəliş Qaragölün «Bir cüt hörük» və Meyxoş Abdullayevin «Alagöz» hekayəsinə mükafat komissiyasının sədri olaraq, sonda mən rəsmi yazılı rəy vermişəm. «Xəcalət» povesti haqqında devizlə, müəllifin kimliyini bilmədən verdiyim rəy sonradan «İt ulayanda fəlakət, qurd ulayanda səadət gətirər» adı ilə «Kredo» qəzetində dərc olunub. Həmişə olduğu kimi, bu dəfə də obyektivliyi itirmədən, mən yüksək vətəndaşlıq qayəsi, əsl yazıçı təəssübü ilə yazılmış bu əsərdə açıq siyasi rəğbət, tendensiyanın olduğunu da tənqid təriqi ilə qeyd etmişəm. Müəllif də bununla razılaşıb.

Amma bu adamın yazısında Hüseynbala Mirələmovun rəğbət hissi müəllifə ittiham məqsədi daşıyan avantüra üçün vasitəyə çevrilir. «Tənqidçi» orijinallıq edərək Hüseynbala Mirələmovun siyasi liderə rəğbəti ilə bağlı sətirləri əsərin bədii kontekstindən çıxarıb çılpaqlaşdırıb, bunu «yazıçının özünü gülünc vəziyyətdə qoyması» kimi izah edir. Bir qədər sonra isə məlum olur ki, «tənqidçi»nin məqsədi niyə məhz bu povestin mükafat almasını araşdırmaqdan daha çox, Hüseynbala Mirələmova siyasi böhtan atmaq imiş. O, heç bir fakta və məntiqə əsaslanmadan yazır: «Ümumiyyətlə, Aydəmir kimi obrazı povestdə yalnız Heydər Əliyevə mədhiyyə (!) söyləmək üçün düşünülüb. Bu obrazın onsuz da primitiv süjet xəttinə heç bir aidiyyəti yoxdur. Çox güman ki, müəllif bu sayaq

«ədəbi mədhiyyələr»lə (!) Əlikram Hümbətovla keçmiş əlaqələrinin üstünə «Söz toru» çəkmək istəyir».

Heydər Əliyevə rəğbət bəsləməsi bir vətəndaş kimi, Hüseynbala Mirələmovun şəxsi işidir. Belə rəğbətin əsərə bədii zəiflik gətirməsi isə artıq siyasi yox, estetik problemdir. Yalnız «güman»a əsaslanıb. Hüseynbala Mirələmov kimi bacarıqlı iş adamına, qəlbi vətən dərdi ilə dolu yazıçıya, az vaxt ərzində çoxlarının unutduğu milli dərdimizə – Qarabağ mövzusuna üç dəyərli əsər – «Xəcalət» povesti, «Vicdanın hökmü» pyesi, «Güllələnmiş heykəllər» telefilmi həsr etmiş namuslu bir ziyalıya, böyük azərbaycançıya siyasi ittiham vermək, yumşaq desək, ədəbi məsuliyyətsizlikdir.

Bu azmış kimi, cızmaqara müəllifi, necə deyərlər, «bir budaqda oturub, min budağı silkələyir».

Ədəbi məqsədsizlik səbəbindən o, xalqımızın böyük yazıçısı, şəxsən mənim fikrimcə, milli ziyalılığımızın emblemi olan Anara da bir özünəməxsus şəkildə «əl gəzdirməyi» də unutmur. Bu adamın tez-tez işlətdiyi, özünə hamıdan çox yaraşan ifadə ilə desək, yazıdan daha bir primitiv müqayisəyə nəzər salın: «Xəcalət» povestinin 2002-ci ildə Azərbaycan Yazıçılar Birliyinin (?!) ədəbi mükafatına layiq görülməsi, Anarın Nobel mükafatı alması kimi bir şeydir.

Görəsən, Nobel mükafatı alanların nəyi Anardan artıqdır? Əgər S.Baycan kimilər imkan versə, Anar da, başqaları da dedi-qoduya əsəb və ömür sərf etmək əvəzinə, oturub daha güclü əsərlər yarada bilərlər.

«Xəcalət» kitabı haqqında yazanların, bizə irad tutanların əksəriyyəti və bu adam da əsərin bədii məziyyətləri və qüsurlarından danışmaq əvəzinə, avantüra yolu tutaraq, Hüseynbala Mirələmovun Qaz Emalı Zavodunun direktoru, neftçi-mühəndis olmasını bəhanə gətirirlər.

Məgər A.P.Çexovun həkim, Ç.Aytmatovun zootexnik olması onların yazıçılığına ləkə idi?! Belə hesab edirəm ki, «Xəcalət»in Qaz Emalı Zavodunun direktoru tərəfindən yazılması müəllifin qəbahəti yox, bir çoxlarına dərs olan mənəvi ləyaqətidir.

Bu adam öz yazısında heç bir mənəvi haqqı olmadan təkcə Anar kimi şəxsiyyətlərə yox, xalqa da ironiya ilə yanaşmağa cəhd edir. «Kiçik xalqın böyük ədəbiyyatı olmur» sözləri ilə o, onsuz da işğal olunmuş, zaman-zaman parçalanmış, torpağı və əhalisi əsir düşmüş xalqı parçalamaqla, separatçılıqla məşğul olur.

Əslində, «kiçik xalqın böyük ədəbiyyatı olmur» ifadəsi ilə S.Baycan özü Əlikram Hümbətova dəstək verir. Necə deyərlər, «Adımı sənə qoyum, səni yana-yana qoyum».

Fəqət, siyasi savadsızlıq səbəbindən unudur ki, kiçik xalq olmur, azsaylı xalqlar olur. Xalqın böyüklüyü əhalinin sayı ilə ölçülmür. Bir sözlə, S.Baycanın yazısını oxuyanda Hüseynbala Mirələmovun əsərinin adı yadıma düşdü: Xəcalət! Milləti xəcalətdən qurtarmaq istəyən namuslu bir yazıçıya belə münasibət özü yeni bir xəcalət deyilmi?!

Layiq olmadığı halda, bu yazının üzərində ona görə bu qədər artıq dayandım ki, onun müəllifi tək deyil, son vaxtlar bəzi qəzetlərin mövqesizliyindən istifadə edən «tənqidçi»lər söz azadlığını, fikir plüralizmini öz səviyyələrinə uyğun başa düşərək, ləyaqətli ziyalılar haqqında hədyanlar yazmaqdadırlar. Anar, Qabil, Elçin, Nizami Cəfərov və mənim haqqımda «Ədalət»in «Ədəbi əlavələr»ində deyilənlər acı təəssüf doğurur.

Yazıçılar Birliyinin kuluarlarında daldalanan, «Ədalət» və «Ədəbiyyat qəzeti»nin tribunasından ərköyün bir iddia ilə istifadə edən Əsəd Cahangir «Kamal Abdulla və Nizaməddin Şəmsizadə ədəbi dünyalarını dəyişiblər» deyə bizi Araz Dadaşzadə, Qulu Xəlilov, Aydın Məmmədov, Əziz Mirəhmədov və Yaşar Qarayevlə – mərhumlarla bir sıraya qoyursa, daha hansı ədəbi əxlaqdan danışmaq olar?!

Çağdaş mətbuatda bu cür mülahizələri oxuyanda istər-istəməz Səməd Vurğunun bir misrasını xatırlayıram: «Ağılsız köpəklər ulduza hürər».

Vaxtilə bir müəllif dayaz bir əsər yazanda, həmin əsər qəzetdə, ya jurnalda çap olunanda səhərisi gün Yazıçılar İttifaqının sədri Mehdi Hüseyn həmin müəllifi və redaktoru yanına çağırıb özünəməxsus bir dotələbliklə soruşurmuş: – Sən nə ixtiyarla zəif əsər yazırsan, bəs sən nə ixtiyarla belə zəif əsəri çap etmisən?! Unutmayın ki, bu ədəbiyyatın yiyəsi var!

Əlbəttə, ədəbiyyatın yiyəsi Yazıçılar Birliyi deyil, əsl ədəbiyyatı yaradanların hamısıdır, yüksək əx-

laqa, dərin-nəzəri savada, estetik zövqə və vətəndaşlıq qeyrətinə malik ədəbi tənqiddir.

Bu gün əsl yazıçılar ləyaqətlərinə qısılıb, ədəbi tənqid isə susub, həyasız cızmaqaraçılar daraşıb ədəbiyyatın canına. Ancaq böyük M.Ə.Sabir demişkən, çalxalandıqca zaman nehrə kimi, yağı-yağ üstə çıxıb, ayranı ayranlıq olacaq.

Mənim tədqiq etdiyim dövrdə, XX əsrin 20–30-cu illərində də belə idi. Ucuz bolşevik təbliğatına, siyasi konyunkturaya uyub mətbuatda böyük sənətkarlarla böhtan və föhşlər yağdıranların üstündən ədalətli hakim olan TARİX öz qüdrətli əli ilə qələm çəkdi. O vaxt 37-ci ilin tufanına salınanlar sonralar tarixin üzünə çıxdılar. Əslində bu gün tarix 20-ci illərin siyasi böhranları ucbatından 37-ci ilin qanlı repressiyalarına məruz qalanların – Mikayıl Müşviqin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Əhməd Cavadın, Bəkir Çobanzadənin, Əli Nəzminin, Mustafa Quliyevin, Hənəfi Zeynallının və başqalarının şəxsiyyətinin, irsinin və əməllərinin təsdiqinə xidmət edir.

Ədəbiyyat (ədəbi tənqid!) elə bir müqəddəs aləmdir ki, oraya çirkli addımlarla girmək olmaz. Ədəbiyyat insanın özünə ucaltdığı ən möhtəşəm abidədir. Onun mayası səmimiyyətdən yoğrulub, səmimi olmayanları ədəbiyyat, dəniz dalğası çirkabı sahilə atan kimi, özündən kənara atacaq. Xalqın mənəvi varlığı olan ədəbiyyatla ləyaqətsiz rəftar etmək milli-mənəvi cinayətdir.

# MÜNDƏRİCAT

Yazıçı ömrünə uvertüra ............................................5

**ƏQİDƏYƏ SƏDAQƏT**

Heydər Əliyev: yaxından və uzaqdan ...........................21
Böyük nəslin dastanı ..................................................35
Hakimiyyət əzmi .......................................................59

**BİR TİKƏ ÇÖRƏK, BİR DÜNYA ÜRƏK**

Göz yaşında bitən çiçək ............................................73

**XƏCALƏTLİ İNSANLAR,
SƏDAQƏTLİ HEYVANLAR**

Qurd ulayanda səadət, it ulayanda fəlakət gətirər ........83
Dünyanı gözəlləşdirən cəza........................................91

**BİR GECƏ VƏ BÜTÜN ÖMÜR**

Azmış şüurun faciəsi .................................................103

**ROMAN VƏ QƏHRƏMAN**

Həqiqətin bədii gücü ................................................123
Sosial ifliclər məngənəsində
(Yaxud Cahanın «Könül dəftəri») ............................141
Xalq qəhrəmanı bəy Kamran ....................................154
Yaddaşın qətli.........................................................167
Tənqidin meyarı – Mənəvi təmizlik ..........................175

**Nizaməddin Şəmsizadə**
***(Şəmsizadə Nizaməddin Şəmsəddin oğlu)***

YAZIÇI ÖMRÜNƏ UVERTÜRA
(Monoqrafik variasiyalar)

Bakı, «Təhsil», 2010.


Nəşriyyat redaktoru: ***Mustafa Çəmənli***
Bədii və texniki redaktor: ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçısı: ***Səbinə Məmmədova,***
***Aqil Əmrahov***
Rəssamı: ***Gündüz Ağayev***
Korrektorları: ***Ülkər Şahmuradova, Leyla Ələkbərova***

Çapa imzalanmışdır 03.09.2010. Kağız formatı 84x108 $^1/_{32}$.
Fiziki çap vərəqi 5,75. Sifariş 57. Tiraj 1000.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121$^{A}$
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com